KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 08 (382) 03 - 09 Aprel, Nîsan, sal, 2017
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: Hêjaye: 40 qəpik

# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR


Səh. 2

## Prezident İlham Əliyev: "Aprel döyüşləri demək olar ki, Ermənistan rəhbərliyinin ideoloji əsaslarını dağıtdı"


Səh. 22

## Bərzani kürd dövlətinin yaradılacağı vaxtı açıqladı


Səh. 22

## "Kürdlər öz dövlətinə sahib olacaq"



Səh. 3


Səh. 3

## Aprel şəhidlərimiz heç zaman unudulmayacaq

## SERBAJARÊ AZERBAYCANÊ BAKUYÊ EYDA NEWROZ HAT DERBAS KIRIN



Səh. 8-9

## Kürd xalqı Bakıda möhtəşəm Novruz şənliyi keçirtdi

## KƏLBƏCƏRİN İŞĞALINDAN 24 İL ÖTDÜ
Səh. 6

## İRAQDA BİZ TÜRKMANLARIN MİLLİ VARLIĞI CƏNAB MƏSUD BƏRZANİNİN SAYƏSİNDƏ TANINDI
Səh. 15

## "Diplomat" qəzetinin baş redaktorunun təşəbbüsü ilə 5 nəfərlik heyət Şimali İraqın Kürdüstan bölgəsində Xocalı soyqırımını gündəmə gətirdilər
Səh. 10

## KOMARA KURDISTAN
Səh. 16

## Qüdsün xilaskarı Sultan Səlahəddin Əyyubi–əl-Kurdi
Səh. 23

## NEWROZ: Cejna neteweyî- Sembola azadiyê û serxwebûnê...
Səh. 18


Səh. 12

Biz türkmanlar Məsud Barzani cənablarının yardımı ilə İraqda bir millət kimi tanındıq


Səh. 4

ERMƏNİLƏRİN "DƏNİZDƏN DƏNİZƏ" ERMƏNİSTAN XÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SİMKO


Səh. 7

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR


Səh. 10

Əsəd Ərbil: "Vəziyyətimiz yaxşı deyil, Mərkəzi İraq hökuməti bizə Kürdüstan hökuməti qədər hüquq və azadlıqlar vermir"

# Prezident İlham Əliyev: "Aprel döyüşləri demək olar ki, Ermənistan rəhbərliyinin ideoloji əsaslarını dağıtdı"

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüş keçirib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı görüşdə çıxış etdi:

- Aprel döyüşlərindən bir il keçir. Mən bu hərbi qələbə gününün ildönümü ərəfəsində Müdafiə Nazirliyinin rəhbərliyini, döyüşlərdə iştirak etmiş hərbçiləri dəvət etmişəm. Xahiş edirəm ki, ilk növbədə, aprel döyüşlərində Vətən uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin və eyni zamanda, həlak olmuş mülki şəxslərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin, Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bir il bundan əvvəl Ermənistan növbəti dəfə silahlı təxribata əl atdı, bizim mövqelərimizə atəş açdı, hücum etdi, yaşayış məntəqələrimizi atəşə tutdu. Bu təxribat nəticəsində hərbçilərimiz şəhid oldu, yaralandı, mülki şəxslər arasında da həlak olanlar oldu. Onların arasında azyaşlı bir qız uşağı da həlak olmuşdur. Bu, növbəti təxribat idi. Ondan əvvəlki dövrlərdə də Ermənistana beynəlxalq təzyiq gücləndikcə onlar bu cür təxribatlara əl atırdılar. 2014-cü ilin noyabr ayında da buna oxşar hadisə baş vermişdi. O vaxt da Azərbaycan Ordusu onlara tutarlı cavab vermişdir. Onların keçənilki təxribatı daha da genişmiqyaslı idi. Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilmişdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik.

Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir.

Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək.

Təmas xətti dəyişdirildi. Bu gün Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Aprel döyüşləri, - mən bunu əvvəllər də qeyd etmişdim, - hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir.

Ermənistan uzun illər ərzində öz ordusu haqqında miflər yaradırdı ki, onların güclü ordusu var və bu ordu böyük qələbə əldə etmişdir. Halbuki biz hamımız yaxşı bilirik ki, 1990-cı illərin əvvəllərində nələr baş vermişdir. O vaxt Azərbaycanda xaos, anarxiya hökm sürürdü, hakimiyyət uğrunda mübarizə gedirdi. O vaxt - 1992-ci ildə AXC-Müsavat cütlüyü hərbi çevriliş etmişdir və bundan sonra biz cəbhədə torpaqlarımızı itirməyə başladıq. Şuşa, Laçın 1992-ci ildə, Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşəndən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdır və biz strateji mövqelərimizi o vaxt itirdik. O, dövlətə, xalqa qarşı bir xəyanət idi və ermənilər, Ermənistan, onların havadarları bu vəziyyətdən istifadə edərək xarici dəstək, xarici müdaxilə hesabına bizim torpaqlarımızı işğal etmişdir. Bu, tarixdir, biz bu tarixi bilirik və gənc nəsil də tarixi olduğu kimi bilməlidir. Qeyd etdiyim kimi, ondan sonra Ermənistan rəhbərliyi uzun illər miflər yaradırdı. Aprel döyüşləri bu mifləri, bu əfsanələri darmadağın etdi və göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur. Bu döyüşlər göstərdi ki, xarici yardım almadan Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilmir və bilməz. Onlar özləri də məcbur qalıb bunu etiraf etməyə başlamışlar.

Aprel döyüşləri zamanı onlar beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrə müraciət etmişlər ki, döyüşlər tezliklə dayandırılsın. Sonra isə onlar bəzi ölkələri ittiham etməyə başlamışlar ki, onların yardımına gəlməyiblər. Halbuki Dağlıq Qarabağ məsələsi bizim daxili məsələmizdir. Dağlıq Qarabağ bütün dünya tərəfindən, Minsk qrupunun həmsədr ölkələri tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. Dağlıq Qarabağda və işğal edilmiş bütün torpaqlarda baş verən və baş verə biləcək hadisələr bizim daxili işimizdir. Heç bir beynəlxalq təşkilat, yaxud da ki, hansısa bir ölkə bizim daxili işimizə qarışa bilməz.



Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa etmişdir. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Halbuki onlar o dəstəyə çox arxalanırdılar, ona bel bağlayırdılar. O dəstəyi almadıqdan sonra həmişə olduğu kimi, müxtəlif ölkələri ittiham etməyə başladılar. Axırda məcbur olub aprel döyüşlərinin məğlubiyyətini etiraf etdilər. Gah deyirdilər ki, onlar torpaqları itirməyiblər. Gah deyirdilər ki, o, əhəmiyyətsiz torpaqlardır. Gah da deyirdilər ki, onlar o torpaqları geri qaytaracaqlar. Bütün bunlar hamısı yalandır. Ermənistan rəhbərliyi özünü o qədər biabırçı vəziyyətə saldı ki, onun acı nəticələrini Ermənistan bu gün də hiss edir.

Aprel döyüşləri demək olar ki, onların ideoloji əsaslarını dağıtdı. Bu gün Ermənistan cəmiyyəti sarsıntı, təşviş içindədir. Artıq vəziyyətə daha praqmatik baxımdan yanaşan qüvvələr açıq-aydın bildirirlər ki, əgər Azərbaycan ilə münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur. Mən bunu dəfələrlə demişəm ki, Ermənistanın bir ölkə kimi bundan sonra da yaşaması üçün yeganə yol qonşularla münasibətləri tənzimləməkdir. Bunun üçün də yeganə yol var. Bu yol ondan ibarətdir ki, bizim işğal edilmiş torpaqlardan işğalçı qüvvələr qeyd-şərtsiz və dərhal çıxmalıdır. Bu baxımdan bu döyüşlərin çox böyük təsiri oldu. Bu təsir bu gün də özünü göstərir. Bu döyüşlər Azərbaycan xalqının, dövlətimizin, ordumuzun gücünü əyani şəkildə göstərdi. Göstərdi ki, son illər ərzində ordu quruculuğuna yetirilən diqqət, aparılan siyasət, maddi-texniki bazanın möhkəmləndirilməsi, ordumuzun döyüş potensialının gücləndirilməsi, bax, bu nəticələrə gətirib çıxarır.

Bu gün həm danışıqlar prosesində, həm də bölgədə yeni bir vəziyyət yaranıb. Düzdür, Ermənistan çalışır ki, danışıqlardan boyun qaçırsın. Ancaq buna müvəffəq olmayacaq. Nə qədər çalışsa da, məcbur olub danışıqlara qayıdacaq. Çünki danışıqlar aparılmasa, onlar yaxşı bilirlər ki, vəziyyət hansı istiqamətdə inkişaf edəcək. Əlbəttə ki, aprel döyüşlərindən sonra danışıqlar masasında bizim mövqeyimiz daha da möhkəmlənib və bunu bütün beynəlxalq aləm əyani şəkildə gördü. Əlbəttə, onlar bilirdilər ki, Azərbaycan dövləti Dağlıq Qarabağ problemini istənilən yolla həll edə bilər. Bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə bəyan etmişlər və bu yaxınlarda da bəyanatlar səsləndi ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bunu dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi işğala son qoymaq deməkdir. Çünki status-kvonu Ermənistan dəyişdirməlidir. Onlar işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan çıxarmaqla status-kvo dəyişdiriləcək və sülh üçün əsas yaranacaq.

Biz bu döyüşlər zamanı və döyüşlərdən sonra xalqımızın qəhrəmanlığını gördük. Ermənistan həmişə olduğu kimi, döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə atəş açır. Bu dəfə də belə oldu. Bizim yüzlərlə kəndlimizin evləri dağıdıldı, bir neçə mülki şəxs həlak oldu. Ancaq təmas xəttinə yaxın yerlərdə yaşayan insanlarımız, vətəndaşlarımız çox böyük cəsarət göstərmişlər. Biri də yerindən tərpənmədi. Öz evlərini, kəndlərini tərk etmədilər. Ermənilər hesab edirdilər ki, 1990-cı illərin əvvəllərində olduğu kimi olacaq. Ancaq onlar səhv etdilər. O vaxt satqın AXC-Müsavat rəhbərliyi ancaq hakimiyyət barədə düşünürdü və vətəndaşlar da onu bilirdilər ki, o hakimiyyətdən hər hansı bir dəstək, hər hansı bir kömək gözləmək əbəsdir, mənasızdır. Bu dəfə isə vətəndaşlarımız tam əmin idilər ki, Azərbaycan dövləti və ordusu onları müdafiə edəcək, onların əziyyətlərinin, tökülmüş qanın əvəzini çıxacaq. Belə də oldu. Hesab edirəm ki, bu, əsas amildir. Ona görə Azərbaycan vətəndaşları - düşmənlə üz-üzə, daim təhlükədə yaşayan Azərbaycan vətəndaşları çox yüksək qiymətə layiqdirlər. Aprel döyüşlərindən sonra mən təmas xəttində yerləşən kəndlərə baş çəkərkən bir daha Azərbaycan xalqının cəsarətini və Vətənə bağlılığını əyani şəkildə gördüm.

Aprel döyüşlərində hərbçilərimiz qəhrəmanlıq göstərdilər. Şəhid hərbçilərimizin xatirəsi bizim qəlbimizdə, Azərbaycan xalqının ürəyində daim yaşayacaq. Eyni zamanda, döyüşlərdən sonra hərbi hospitalda yaralı hərbçilərə baş çəkərkən gördüm ki, onlarda nə qədər böyük Vətən sevgisi var. Ağır, yaralı vəziyyətdə olmalarına baxmayaraq deyirdilər ki, bizim arzumuz tezliklə sağalıb yenə də cəbhə bölgəsinə getməkdir. Bax, budur bu gün Azərbaycan gənci, Azərbaycan vətəndaşı, onun düşüncəsi, onun əqidəsi və Vətənə olan sevgisi. Bizim ölkəmizi gücləndirən əsas amillər bunlardır.

Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib - ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Mən əminəm ki, biz buna nail olacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqda yaşayıb, yaradıb, qurub, tikib. Biz Dağlıq Qarabağ bölgəsinin tarixini yaxşı bilirik. İndi XIX əsrdə ermənilərin oraya necə köçürülməsi barədə çox gözəl elmi əsərlər, kitablar yazılır. Hətta XX əsrin əvvəllərində çar Rusiyasında dərc edilmiş xəritələrə baxmaq kifayətdir görək ki, nəinki Dağlıq Qarabağda, indiki Ermənistan Respublikasında da əksər toponimlər Azərbaycan mənşəlidir. O da sirr deyil və bunu artıq beynəlxalq aləm də bilir ki, indiki Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan, Zəngəzur, Göyçə mahalları bizim tarixi torpağımızdır. Biz ədalətsizlik, böyük dövlətlərin siyasəti nəticəsində bu torpaqlardan məhrum olduq. Əlbəttə, biz bu tarixi bilməliyik. Bilməliyik ki, qondarma "Dağlıq Qarabağ qurumu"nun heç bir gələcəyi yoxdur. Biz başqa ölkələrin torpağına iddiaçı deyilik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik.

Əfsuslar olsun ki, 1918-ci ildə gənc Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı Ermənistana, demək olar, bağışladı. Bütün sənədlər var. Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də o idi ki, İrəvan paytaxt kimi Ermənistana verilsin. Baxmayaraq ki, o vaxt İrəvanda əhalinin əksəriyyəti azərbaycanlılar idi. Bu, böyük səhv idi. Bu, o vaxt gənc Azərbaycan dövlətini erməni təxribatlarından qorumadı. Bəlkə də buna ümid edirdilər. Biz demək olar ki, İrəvanı o vaxt itirdik. Amma görürük ki, ermənilərin iddiaları azalmır. Onlar vaxtaşırı ən yüksək səviyyədə müxtəlif cəfəng şüarlar, fikirlər səsləndirirlər ki, yenə də onların qonşu ölkələrin torpağına iddiaları var. Biz aprel döyüşləri zamanı onları yerinə oturtduq. Hər an hazır olmalıyıq ki, onları yerinə oturdaq. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək. Heç bir ölkə bu qondarma qurumu tanımır. Orada bu yaxınlarda keçirilmiş qondarma "referendum" bunu bir daha göstərdi. Bizim bütün qonşu dövlətlərimiz, beynəlxalq təşkilatlar, Minsk qrupunun həmsədr ölkələri birmənalı şəkildə bəyanatlar vermişlər ki, onlar bu "referendum"u tanımırlar. Bu, o deməkdir ki, Ermənistan və onun rəhbərliyi növbəti dəfə özünü biabır etdi. Hər dəfə orada qondarma "referendum" keçirilərkən bu, bizim xeyrimizə işləyir. Çünki hər dəfə beynəlxalq təşkilatlar və dövlətlər bunu qəbul etmirlər. Beləliklə, hər dəfə Azərbaycanın ərazi bütövlüyünü onlar bir daha dəstəkləyirlər və təsdiqləyirlər.

Biz ərazi bütövlüyümüzü, əlbəttə ki, bərpa edəcəyik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də ölkəmizin tərkibində olacaq. Sadəcə 1990-cı illərin əvvəllərində ovaxtkı hakimiyyətin, xüsusilə AXC-Müsavat hakimiyyətinin xəyanətkar və satqın fəaliyyəti nəticəsində biz o torpaqları müvəqqəti olaraq itirmişik. Ancaq biz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik.

Bu gün Ermənistan rəhbərliyi öz təxribatçı fəaliyyətini davam etdirir. Aprel döyüşlərindən sonra bir müddət təşviş, qorxu içində idi. İndi elə bil ki, o stressdən bir qədər çıxmağa çalışır və yenə də cəfəng bəyanatlar verir, bizi hədələməyə, hansısa silahlarla qorxutmağa çalışır. Bizim buna gülməyimiz gəlir. Çünki onlar yaxşı bilməlidirlər və bilirlər, bu gün Azərbaycan Ordusu o qədər güclüdür ki, bu gün bizim o qədər güclü texnikamız, silah-sursatımız, müasir silahlarımız var ki, düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə hər an hazırıq. Onlar bunu bilir və bilməlidirlər, elə bir strateji və hərbi hədəf yoxdur ki, biz onu məhv edə bilməyək. Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır.

Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın.

Bizim işimiz haqq işidir. Bunu xalqımız, beynəlxalq aləm bilir və bizim haqq işimiz bizə haqq verir ki, məsələni istədiyimiz yolla həll edək. Baxın, BMT Təhlükəsizlik Şurası, - dünyada bu təşkilatdan ali qurum yoxdur, - dörd dəfə qətnamə qəbul edib və tələb edib ki, erməni silahlı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın. Əməl edilmir. Amma bu, beynəlxalq təşkilatın qərarıdır, qətnaməsidir. Bu, əsasdır. Digər beynəlxalq təşkilatlar da oxşar qərarlar qəbul ediblər. Yəni, bu, məsələnin həlli üçün hüquqi baza yaradır, çox önəmlidir. Əgər biz buna tarixi həqiqəti də əlavə etsək, əlbəttə ki, burada iki fikir ola bilməz. Dağlıq Qarabağ tarixi və hüquqi cəhətdən Azərbaycan torpağıdır və biz, əlbəttə ki, bu torpaqlara qayıdacağıq. Bunun üçün daha güclü olmalıyıq. Bütün siyasi və beynəlxalq tədbirlər görülübdür. Sadəcə olaraq, iqtisadiyyatımızı, ordumuzu daha da gücləndirməliyik.

Deyə bilərəm ki, Ermənistan öz müstəqil həyatını, bax, bu işğala qurban verdi. Çünki əgər bu işğal olmasaydı, əgər onlar Azərbaycan ilə münasibətləri normal qura bilsəydilər bu gün Ermənistan müstəqil ölkə kimi bəlkə də özünü göstərə bilərdi. Ancaq bu gün hamı bilir ki, Ermənistan müstəqil dövlət deyil. Onlar bu işğala görə müxtəlif ölkələrdən, müxtəlif xarici dairələrdən, beynəlxalq maliyyə qurumlarından, demək olar ki, tam asılı vəziyyətə düşüblər. Çünki bunların iqtisadiyyatı iflic vəziyyətindədir, xarici borc kritik həddə çatıb, yoxsulluq demək olar ki, 40-50 faiz səviyyəsindədir, heç bir perspektiv yoxdur. Bunlar öz xalqını nə qədər aldadacaqlar? Ona görə də bu vəziyyətə düşmələrinin əsas səbəbi onların işğalçı siyasətidir. Bu gün bu yolu seçmiş Ermənistan rəhbərliyi öz xalqını uçuruma aparır.

Biz isə müstəqillik dövründə əsl müstəqil ölkəyə çevrildik. Biz sübut etdik ki, bizim taleyimiz öz əlimizdədir, heç bir kənar qüvvə bizə heç nəyi diktə edə bilməz və tarix bunu göstərdi. Biz ləyaqətlə yaşayırıq, dünya arenasında öz maraqlarımızı müdafiə edirik və sözümüzü deyirik. Ermənistan isə demək olar ki, bütün bu imkanlardan məhrum olub və bu, əlbəttə, heç bir ölkəyə başucalığı gətirmir. Ona görə, bugünkü Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə ki, onların maraqları üçün işğala son qoyulmalıdır, məsələ o qədər tez həllini tapar, sülh bərpa olunar və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edər.

Biz öz siyasətimizi davam etdirəcəyik, ölkəmizi gücləndirəcəyik, ordumuza daim yüksək diqqət göstəriləcəkdir. Bildiyiniz kimi, baxmayaraq ki, indi maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bu da təbiidir, ancaq ordumuzun ehtiyaclarını ödəmək üçün heç bir məhdudiyyət yoxdur. Mən hökumətə də bunu demişəm, bütün dövlət qurumları bunu bilir. İlk növbədə, ordumuzun sifarişləri təmin edilməlidir və büdcə xərclərinin tərkibində ən böyük xərclər hərbi xərclərdir. Yeni şəhərciklər salınır, hərbi bazalar tikilir, ən müasir silah, texnika alınır. Aprel döyüşlərindən sonra çox böyük məbləğdə yeni kontraktlar imzalanmışdır və ən müasir, yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan silahlar sifariş edilmişdir. Onların bir hissəsi Azərbaycana gətirilib. Sadəcə Ermənistan rəhbərlərindən fərqli olaraq, biz bunu təbliğat naminə nümayiş etdirmirik. Amma lazım gələrsə və vaxt gələndə, lazım bildiyimiz anda biz bir daha göstərəcəyik ki, nəyimiz var. Qoy, onlar bilsinlər ki, bu gün Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır.

Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır.

Mən bu gün sizi dəvət edərək bir il əvvəl baş vermiş hadisələrə bir daha öz qiymətimi vermək, ordumuzu uğurlar münasibətilə təbrik etmək istəyirəm. Sizə və Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

# Aprel şəhidlərimiz heç zaman unudulmayacaq














## *Aprel hadisələrindən bir il ötməsinə baxmayaraq, şəhidlərimiz hər zaman xalqımız tərəfindən anılır, hörmətlə yad edilir və mütəmadi məzarları ziyarət edilir*

Xalqımızın xilaskarı, Ulu Öndər Böyük Heydər Əliyev, Vətənimizin çətin günündə, Xalqın istəyi ilə, bir güllə atmadan hakimiyyətə gəldi, qardaş qırğınına son qoydu və bir tarixi kəlamı ilə: "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir" ifadəsi Azərbaycanda yaşayan bütün millətləri, türkünü, kürdünü, rusunu, talışını, tatını, ləzgisini, avarını, lahıcını, bir yumruq kimi birləşdirərək düşmənə qarşı birgə mübarizə aparmağa səbəb oldu, Vətənimiz Azərbaycanı dünya xəritəsindən silinməkdən xilas etdi və öndə gedən ölkələr sırasına çıxartdı. Xalqımız bu gün, Ulu Öndər Böyük Heydər Əliyev cənablarının uzaq görən siyasətini uğurla davam etdirən hörmətli Prezidentimiz Ali Baş Komandan İlham Əliyev cənabları ətrafında sıx birləşərək, düşmənə qarşı əzmlə mübarizə aparırlar. Qoy hamı bilsin, heç bir məkirli niyyətdə olan xarici qüvvələr xalqlarımızın birliyini, əzmini sındıra bilməz. Çünki onun İlham Heydər oğlu Əliyev cənabları kimin Ali Baş Komandanı var.

Şəhid Xaliq Həsən oğlu Əzizzadə, iyirmi yeddi avqust 1996-cı ildə, Naxçıvan Muxtar Respublikasının, Şərur rayonunun, Aşağı Yaycı kəndində ziyalı kürd ailəsində həyata göz açmışdı. 2003-cü ildə Bakı şəhəri Xətai rayonunun 116 saylı tam orta məktəbinin birinci sinifinə daxil olmuş, 2014-cü ildə həmin məktəbi müvəfəqiyyətlə bitirmişdir. 2015-ci ilin oktyabr ayinda, Xətai Rayon Hərbi Komisarlığından həqiqi hərbi xidmətə çağırılmışdır. Öz istəyinə görə, Xalqımızın yaralı və qürur yeri olan, Qarabağda düşmənlə sərhəd olan ön cəbhədə xidmət etməyi xahiş etmişdir. Hərbi xidmətdə qulluq etdiyi zaman, rəhbərliyin və yoldaşlarının etimadını qazanaraq böyük hörmətə sahib olan, Xaliq Həsən oğlu Əzizzadə, rəhbərliyin diqqətini çəkir və nümunəvi xidmətinə görə, dəfələrlə komandiri tərəfindən dəyərləndirilmiş və mükafatlandırılmışdır.

Bildiyimiz kimi mənfur daşnaq ünsürləri, Azərbaycanımızın Cənnət məkanı olan Qarabağa və Dağlıq Qarabağa göz dikərək ərazilərimizin iyirmi faizini işğal etmişdir. Öz işğalçı siyasətindən gözü doymayan mənfur daşnaq ünsürləri, aprelin 2-də atəşkəsi pozaraq sərhədd boyu mövqeylərimizi mina atanlardan və roketlərdən atəşə tutsalar da, igid əsgərlərimiz vaxtında düşmənin cavabını verərək, ermənilərin əlində olan bir neçə kəndi və bir sira strateji yüksəklikləri azad edərək düşməni geri oturtdu.

Müharibə itgisiz olmur, Vətənimizin onlarla igid övladları bu şərəfli yolda, Vətənimizin müdafiəsində həyatlarını Vətənimiz Azərbaycan uğrunda qurban verərək Şəhidlik zirvəsinə ucaldılar.

Xaliq Həsən oğlu Əzizzadə, Cəbhənin Tərtər-Goranboy istiqamətində aprelin 4-dən 5-nə keçən gecə erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən canını düşünmədən Vətən uğrunda qurban verərək Şəhidlik zirvəsinə ucaldı.

Cənab Prezidentimiz, Ali Baş Komandan, İlham Heydər oğlu Əliyev başda olmaqla, Dövlətimiz, Xalqımız bütün Şəhidlərimizə və ailələrinə böyük diqqət və qayğı göstərərək onların yas mərasimində iştirak edir və Şəhidlərimizin ailələrinin yanında olurlar.

Şəhid Xaliq Həsən oğlu Əzizzadənin yas mərasimində biz bunun canlı şahidi olduq. Xətai Rayon İcra Hakimiyyətinin, Sabunçu Rayon İcra Hakimiyyətinin rəhbərlikləri, hökumət nümayəndələri, möhtəşəm Xalqımız, Şəhidimizi o qədər izdihamla, hörmətlə son mənzilə yola saldılar ki, bunu sözlə ifadə etmək mümkün deyil.

Xaliq Azərbaycan bayraqları ilə, güllə-çiçəklə, maşın karvanı ilə, Şəhid Xaliq Həsən oğlu Əzizzadənin yaşadığı Xətai rayonunun Əhmədli qəsəbəsindəki ünvanından başlayaraq, Kürdəxanı məzarlığına qədər, insan selindən tərpənmək olmurdu. Xalq hər yerdə Azərbaycan bayraqları ilə Şəhid karvanını hörmətlə qarşılayır və Şəhid karvanına qoşulurdular. Şəhid karvanı Kürdəxanı məzarlığına çatanda məzarlıqda daha böyük izdihamın olduğunun şahidi olduq. Həqiqətən Xalqımız öz şəhidinə böyük sevgi, hörmət və məhəbbət göstərdi. Çox yüksək səviyədə, hörmətlə, izzətlə

Cənazə namazı qılındıqdan sonra Şəhidin tabutu üzərindəki üçrəngli dövlət bayrağımız əbədi xatirə olaraq, mərhumun atası Həsən müəllimə təqdim edildi.

Şəhidimiz, Sabunçu rayonunun Kürdəxanı qəsəbəsindəki qəbiristanlıqda Azərbaycanın dövlət himninin sədaları altında dəfn olundu. Bəli, torpaq uğrunda Şəhid olan varsa Vətəndir. Vətən uğrunda Şəhid olan varsa o, Vətən basılmaz! Allahtəala bütün Şəhidlərimizə rəhmət eləsin, məzarları nurla dolsun. Amin!

***Tahir Süleyman***

Aprelin 6-da cəbhədə erməni təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan Laçın rayonunun Qarakeçdi kənd sakini, 1996-cı il təvəllüdlü Məmmədov Ülvin Cəmaləddin oğlu aprelin 7-də dəfn olunub. Şəhid ailə üzvlərinin müvəqqəti məskunlaşdığı Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki Qarakeçdi obasında torpağa tapşırılıb. Onun dəfnində Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini müvəqqəti icra edən Aqil Nəzərlinin iştirakı ilə rayonun idarə, müəssisə və təşkilatları, kənd İcra nümayəndəlikləri, ziyalılar, ağsaqqallar, gənclər, məktəblilər və hərbiçilərdən ibarət 6000 nəfərdən çox rayon sakini, şəhidin qohumları, dostları iştirak edirlər.

Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Aqil Nəzərli çıxış edərək bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş və məntiqli siyasət nəticəsində torpaqlarımızı işğaldan azad edəcəyik, qaçqın və məcburi köçkünlər öz doğma yurd–yuvalarına qayıdacaq və cəzasız qalmış cinayətkarlar layiqli cavablarını alacaqdır. Sonda rayon rəhbəri erməni qatillərinin qurbanı olan bütün şəhidlərə Tanrıdan rəhmət diləmişdir.

İzdihamlı tədbirdə iştirak edən Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin katibi Abdulla Qurbani, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Millət vəkili Mahir Abbaszadə və Aqil Abbas çıxış edərək şəhidin yaxınlarına səbr diləmiş, Silahlı Qüvvələrimiz tərəfindən işğalda olan bütün torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyini bildirmişlər. Daha sonra şəhidin atası Camaləddin Məmmədov çıxış edərək övladı şəhid olduğundan qürur duyduğunu bildirmişdir.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşləri altında son mənzilə yola salınıb.

Yekunda Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Aqil Nəzərli , hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə müəssisə rəhbərləri, kənd icra nümayəndələri, ziyalılar və rayon ictimayyəti nümayəndələri şəhidin qəbri üzərinə tər çiçək dəstələri düzdülər.

Evin Cəmaləddin oğlu Məmmədov 1 yanvar 1996 cı ildə valideyinləri məskunlaşan "Taxta körpü" ərazisindəki "Laçın obaları"nda dünyaya gəlmişdi. Torpaqlarımızın 20 faizini zəbt edib, Xocalı soyqırımını törədən mənfur düşmənə qarşı Ülvində barışmaz mövqe yaranmışdı. Qarabağı, əzizlərinin doğulduğu Laçın torpaqlarını işğaldan azad edənədək döyüşməyi şərəfli borcu bilirdi. Yaşadığı şəraitin ağırlığı Ülvinin idmana olan həvəsinin qarşısını ala bilməmiş, sərbəs güləşdə yeniyetmələr arasında dəfələrlə ölkə birincisi olmuş və bir sıra fəxri fərmanlarla təltif edilmişdir. Laçın rayon Qarakeçdi kənd 1 nömrəli tam orta məktəbini bitirib hərbi xidmətə çağırılan Ülvin 2016 cı il aprelin 1 də həqiqi hərbi xidmətini başa vurmuşdur. Həmin gün komandir tərxis olunan əsgərləri sıraya düzüb azad olduqlarını bildirmiş və sonra soruşmuşdu; Müddətdən artıq xidmət etmək istəyən varsa bir addım önə çıxsın. Ülvin irəli çıxaraq demişdi: "Komandir, Qarabağa, Laçına qayıdana kimi sizinləyəm. Vətən uğrunda Şəhid olmaq arzusundayam". Elə həmin gün Tərtərə, Talışdağa yola düşür. Ülvi sərras snayper nişancısı idi. 2016 cı il aprelin 5 də Tərtər, Talışdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdu. Qarabağın işğaldan azad olunacağı gün və Laçında yaşamaq Ülvinə qismət olmasa da vətən uğrunda Şəhidlik zirvəsinə ucalaraq arzusuna qovuşdu. Böyük izdihamla Şəhidini son mənzilə yola salan minlərlə Laçınlı "Atəşgəsə son","Rədd olsun erməni", "Qarabağa azadlıq" kimi şüarlar hayqıran Laçınlı gənclər torpaqlarımızın azadlığı uğrunda düşməni hər an məhv etməyə hazır olduğunu bəyan elədi. Ülvinin, eləcədə, bütün Şəhidlərimizin xatirəsi heç vaxt xalqımızın yaddaşından silinməyəcək.

***Şəhid varsa, torpaq da var, Vətən də,***
***Şəhidlərə ölüm yoxdur Vətəndə!***

***Vüsal Ziyadxanomku***

# ERMƏNILƏRIN "DƏNIZDƏN DƏNIZƏ" ERMƏNISTAN XÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SIMKO

**İran Hökumətinin xaincəsinə öldürtdüyü İsmayıl Ağa Sımkonun ölümüdən 87 il keçdi.**

1880-ci ildə böyük inqilabi hərakata başlayan Şeyx Ubeydulla inqilabının yatırılmasından sonra İran Kürdüstanında, əşirət rəisi və dərəbəylərinin rəhbərliyində siyasi və milli məqsədlərlə başlayan hərəkat deмək olar ki, sona yetdi.



Kəlbağı, Cuanruyi kimi əşirətlərin ağır vergi ödəmələri səbəbindən zaman-zaman baş qaldırdıqları üsyanlar gerçəkdə milli məqsədlərdən və yurdsevər bir anlayışdan baş qaldırmışdı.

Muzafferuddin şah zamanında İran hər baxımdan ağır çətinliklərlə üz-üzə qaldı. Ölkənin gəlir və zənginlik qaynaqları iflasa uğradı. Hər əşirət rəisi özünün bölgəsinə müstəqil hökumət kimi baxırdı. İran Kürdüstanında Səlmas (Şapur), Urmiya (Rzaiyə) və ətrafının ən böyük kürd əşirəti olan Şıkakilər hökumətə tabe olmurdu. Sımko, bütün Şıkaki əşirətinin rəisi olub, Avdoyu boyuna mənsub idi. Sımko olduğu əraziyə hər baxımdan sahib olmuş, dövlətin buradakı hökmünə son vermişdi.

1905-ci ildə Muzafferrudin şahın avropa səyahətinə çıxdığı bir vaxt Nizamül-Səltənə adlı bir əsilzadə Azərbaycana vali olaraq göndərildi. Nizamül-Səltənə, Şıkaki əşirətini dövlətə boyun əydirmək istəyirdi. Amma bunun Şıkak əşirət rəisi Məhmət ağaya müharibə ilə qalib gələcəyinə inanmırdı. İkiüzlü sümürgəci bütün düşmənlər kimi o da müxtəlif planlar, hiylələr hazırlamağa başladı.

Özlərinə pislik etməyəcəyini və işbirliyi görəcəyini söyləyərək rəsmi bir dəvətlə Məhməd ağanın oğlu Cəfər ağanı Təbrizə dəvət etdi. Yaxşı niyyətli və Qurana inamı olan Cəfər ağa dayısı Mirzə və altı qoruyucusu ilə birlikdə Təbrizə gedir və ilk öncə yaxşı qarşılanır.

O vaxtlar Qafqazlarda ermənilər rus havadarlarının köməyi ilə Türkiyə, İrəvan və Azərbaycanın müxtəlif bölgələrində və eləcə də Şaumyanın və Mikoyanın planları əsasında Bakıda Azərbaycanlıların soyqırımına başlamışdılar. Onların planlarına görə, bu günki işğal olunmuş ərazilər, Zəngəzur, Naxçıvan, Gəncə, Qazax, Tovuz, bir sözlə, Kürə qədər olan ərazilər, Bakı və Bakı ətrafı ərazilər onlar tərəfindən soyqırım aparılaraq işğal olunmalıydı.

Nizamül-Səltənə 1915-ci ildə Türkiyədə kürdlər tərəfindən burunları ovularaq geri qayıdan ermənilərin asayişi pozmalarının qarşısını almağa və xalqın güvənliyini saxlamaq işini Cəfər ağaya həvalə etmək istədiyini bildirir. Əl altından isə onu öldürməyin planını hazırlayırdı. Məsələ ilə bağlı planı həyata keçirməkdən ötrü bura gəlişinin ertəsi günü Cəfər ağa Nizamül-Səltənə ilə görüşmək məqsədilə valiyə aid olan qonaq evinə göndərilir. Ancaq onun öldürülməsi üçün qonaq evinin çevrəsinə tapşırıqla lazımi pusqular qurulmuş, silahlı adamlar uyğun yerlərdə yerləşdirilmişdi.

Cəfər ağa hər şeydən xəbərsiz qonaq evinə gəlir və Qaracadağlı Məhməd Hüseyn xan Zərhami və adamları tərəfindən yaylım atəşinə tutularaq öldürülür. Cəfər ağanın adamları silah səsinə hadisə yerinə gəlirlər. Cəsədin aparılmasının qeyri-mümkün olduğunu görüb canlarını qurtarmaq üçün vuruşurlar və iki ölü verərək Uruğ kəndində düşmənlə qarşı-qarşıya gəlirlər. Bu beş kürd qəhrəmanı çətin bir döyüş sonunda bir neçə əsgər öldürərək onların atlarına minir və Kürdüstana dönməyi bacarırlar.

Cəfər ağanın bu şəkildə tələyə salınıb öldürülməsi Məhməd ağa və oğlu İsmayıl ağa Sımkonu dərindən hiddətləndirdi. Bunun sonucu İran dövlətinə qarşı mübarizə aparmaq, İran hökumətinin Kürdüstanın bu bölgəsindəki hökmranlığına son verib öz idarəçiliyinə keçirmək qərarına gəlir.

İsmayıl ağa Sımko başqa siyasətçilər kimi istək və arzularını gerçəkləşdirmək üçün bir-birlərinə düşmən olan Türk və İran dövlətləri arasındakı münaqişədən yararlanmışdır. O vaxtlar Osmanlı-İran sərhədlərini müəyyənləşdirmək üçün təyin edilmiş komissiya fəaliyyət göstərirdi. BMT-nin qərarına görə, Qotol (Qopur) dərəsi və ətrafı İranda, Şıkak əşirətlərinin hakimiyyəti altında olan ərazini Osmanlı dövləti qəbul etmək istəmirdi. Sımko bu anlaşılmamazlıqdan yararlanaraq o ərazilərə əl qoyub öz hökmü altına aldı və dövlət elan etdi.

**İsmayıl ağanı öldürmək planları**

Sımko İran dövləti qarşısındakı mövqeyini bildirdikdən sonra silahlı qüvvə toplamaqla, bölgə üzərindəki hökmranlığını göstərdi.

Azərbaycan valisi Mükərrəmül-Məlik Sımko ilə müharibə etməyin çıxış yolu olmadığı düşüncəsiylə onu xaincəsinə öldürmə planlarını hazırlamağa başladı. Bir bombanı şirniyat qutusu həcmində hazırlayaraq Xoydan xüsusi olaraq İsmayıl ağa adına göndərir. Hadisəni İsmayıl ağa belə nəql edir:

"Həyətdə oturmuşdum. Uşaqlar bir şirni qutusu gətirdilər. Nənələrinin onlar üçün göndərdiyini güman edərək həmən içinə baxmaq istəyirlər. O anda Heydər Əroğluna Nizamül-Şucadan bir şirni qutusu göndərildiyini və açdıqda partlayışdan öldüyünü eşitmişdim. Bir şübhə düşdü içimə. Uzağa götürün dedim. Uzaqlaşdırılarkən bir aydınlıq göründü gözümə. O saat oğlumu qucağıma alaraq özümü yerə atdım. Bomba partladı. Mən qurtuldum, ancaq qardaşım Əli və bir neçə adam öldü".

Mükərrəmül-Məlikin bu namərdliyinə görə, 1919-cu ildə İsmayıl ağa Sımko çalışmalarını daha gücləndirərək bölgəni dövlətin əlindən alır və öz hökmü altına salaraq daha da gücləndirdi. Təbriz-Urmiya yolunu tutub, gediş-gəlişi kəsdi. Hökumət yalnız Urmiya gölü üzərindən bölgə ilə əlaqə saxlaya bilirdi.

**Erməni-Assuri ordusunun rəhbəri Mar Şəmunun Sımko tərəfindən öldürülməsi**

I Dünya Müharibəsi və Türkiyədə ermənilərin Rus-İngilis-Alman-Yunan havadarları tərəfindən bir erməni dövlətinin qurulması planı üzrə ermənilər kütləvi qırğınlar törətdilər, bir milyondan artıq insanı qətlə yetirdilər. Bundan sonra 25 minlik rus-erməni-assuri ordusu İran ərazisinə keçərək Səlmas, Urmiya və Xoy ətrafında yerləşdilər. Bunlar rus-türk müharibəsi zamanı Çar Rusiyası tərəfindən silahlandırılmışdılar. Amerikalı ermeni milyonerlər də onlara arxa dururdular. Başqa bir tərəfdən onların ingilislərlə də əlaqələri vardı. Bu dövlətlər Səlmas, Urmiya və Həkkari arasında qalan ərazidə Erməni-Assuri dövləti qurmaq istəyirdilər. Hətta, Rusiya və İngiltərə kimi iki böyük dövlətin də bu planda barmaqları vardı. Məqsədləri Səlmas, Urmiya bölgəsi ilə Həkkari sərhəddi arasında özlərinə bağlı və Türkiyəyə qarşı bir dövlət qurmaq, sonra isə Van və Həkkarini də bu əraziyə qatmaq istəyirdilər. Bu hədəfə çatmaq məqsədiylə yüksək ingilis nümayəndəsi, assuri, erməni və kürd xalqları arasında bir birlik yaratmaq istəyirdi. Ancaq kürdləri belə bir plana razı salmadan erməni-assuri dövləti qurmaq ideyasını gerçəkləşdirə bilməyəcəklərini yaxşı bilirdilər.

Türkiyədən qovulmuş ermənilərlə assurilər Urmiya və Təbrizə tərəf qaçdıqları zaman qırğına və talana girişdilər. Yerli əhaliinin qırılanı qırıldı, qalanı isə canlarını qurtararaq içərilərə köçməyə



başladılar. Assurilərin rəhbəri Mar Şəmun, qərargahını Səlmas yaxınlığındakı Xosrov ağa qəsəbəsində qurdu və 25 minlik ordu ilə bölgədə ağalıq etmək fikrinə düşdü.

Ermənilərin və assurilərin bu bölgədə yerləşməsi Sımko ağanı narahat etməyə başladı. O, əl altından Azərbaycan bəylərindən, ağalarından kömək istədi.Lakin Sımko ağa bölgədə müstəqillik əldə etdiyindən şah Azərbaycandan ehtiyat edərək böyük bir gücü Azərbaycanda saxlayırdı.

# ERMƏNILƏRIN "DƏNIZDƏN DƏNIZƏ" ERMƏNISTAN XÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SIMKO

Şeyx Ubeydulla, İsmayıl ağa hərakatı şahın gözünü qorxutmuşdur. Neçə illəridi ki, Kürdüstanda ağalar baş qaldırmış və özlərini müstəqil elan etmişdilər. Lakin rusların, ingilislərin, ermənilərin Amerikadakı havadarları və İran, Türkiyə dövlətləri imkan vermirdilər ki, dünya dövlətləri Kürdüstanı tanısınlar.

Ona görə İran şahı erməni və assurilərin rus və ingilis havadarlarının Kürdüstan və Azərbaycanda yerləşməsinə göz yumurdu. Ona görə ki, əsrlərdən bəri Kürdüstan inqilablar ocağı olmuşdur. İstər İran, istərsə də Türkiyə parçalanmış Kürdüstanın gücünü, birliyini dağıtmaq üçün həmin ərazilərdə ermənilərlə assurilərin yerləşməsinə göz yumurdular. Ancaq onlar düşünmürdülər ki, belə bir dövlətin qurulmasının aqibəti necə olacaqdır.

A. Kəsrəvi "İran Məşrutiyyət Tarixi" adlı kitabında bunları yazır:

"Erməni və Assuri ordusu Urmiya şəhərini asanca ələ keçirdi. Mar Şəmun bir qrup assuri və erməni ilə birlikdə Səlmasa doğru hərəkət etdi. Mar Şəmun İsmayıl ağanı yanıltmaq istəyirdi. İsmayıl ağaya xəbər göndərərək onunla bir yerdə görüşmələrini arzu etdiyini bildirdi. 1918-ci ilin fevral ayında Konəşarda görüşməyi qərara aldılar.

Mar Şəmun yanına silahlı 140 süvari və seçkin adamlar alaraq bir faytona minir və şərtləşdikləri gündə görüş yeri olan Konəşara gəldi".

Təqdimatçı və tarixçi yazar Ələddin Secadi "Kürd inqilabları(başqaldırılarında)" kitabında göstərir ki, çar Rusiyası, bu ölkədə bolşeviklərə qarşı əngəllər etmək istəyirdi. Bunun üçün üsyanlar ölkəsi olan Kürdüstanın bu bölgəsində yaşayan kürdlərin, ələlxüsus İsmayıl ağanın səsini söndürmək fikrindəydilər. Ruslar Mar Şəmunla danışıqlar apararaq bir anlaşma əldə etdilər: "Bu məmləkətdə İsmayıl ağa var. O, həm çarın, həm də Mar Şəmunun önündə bir əngəldir dedilər. Başlanğıcda kürdlərlə ermənilərin birlikdə bir hökumət qurmalarını əldə etmək məqsədilə Sımko ağa ilə görüşmələr etdilər. Ancaq həqiqətdə Sımkonu və kürdləri aradan çıxararaq doğrudan doğruya bir erməni və assuri dövləti qurmaq istəyirdilər".

Bu həqiqətə çox bənzəyirdi. Çünki, yuxarıda qeyd etdiyimiz kimi Mar Şəmunun təlimli 25 min silahlısı varidi. Bunlar əsgəri ordunun komandası altında idi. Arxasında ingilislər və Rus çarının hər cür dəstəyi vardı.

**I Dünya Müharibəsinin sonunda ölkədə olan şərait və durum**

İsmayıl ağanın qüvvələri isə nə o dərəcədə təlimli, nə də dissiplinə sahib idi. Təməldə əşirət qüvvələri birliyi idi. Ayrıca, ona arxa çıxıb silah və cəbhəxana baxımından yardım verən hər hansı bir dövlət də yox idi. Belə olunca Sımkonun ortadan qaldırılması ermənilər üçün bir içim su kimi asan olacaqdı.

İsmayıl ağa Sımko yaxşı bilirdi ki, erməni və assurilər Türkiyədə kürd bəy və ağalarını bir yerə yığaraq güya kürd dövləti qurmaq planlarını hazırlayırmışlar. Lakin, qəfildən xain ermənilər kürd bəylərini atəşə tutub hamısını güllələyirlər. Ancaq onlardan biri bayırda olduğu üçün atına minib xalqı xəbərdar edir. Beləliklə kürdlər Türkiyədə ermənilərin kökünü kəsir. Əslində isə ermənilər kürd bəy və ağalarını öldürərək, onların türklər tərəfindən qətl edildiyini yayaraq, onsuz da aralarında olan münaqişəni qızışdıraraq iki müsəlmanı bir-birinə qarşı saldıraraq qırdırmaq istəyirdilər. Bu məsələləri yaxşı bilən İsmayıl ağa Sımko hər addımını ölçüb-biçib, düşünülmüş şəkildə atırdı. Necə deyərlər, suyu üfləyə-üfləyə içirdi.

Hətta, bir dəfə Sımkonun siyasətindən baş aça bilməyən bir kürd bəyi Sımkoya qarşı çıxır. Onu başa düşən Sımko ona deyir: "Mən səni yaxşı başa düşürəm, narahat olma. Ata-babalarımızın qanı ilə suvarılmış bu müqəddəs torpaqların üstündə nəinki erməni dövlətinin qurulmasını, heç onların ayaq basmalarını da istəmirəm. Səbrli ol, nəticəni görəcəksən".

İsmayıl ağa Sımko ilə Mar Şəmun arasında keçən görüşmələr haqqında tarixçi və tədqiqatçı Ələddin Səcadi bunları yazır:

"İsmayıl ağa Mar Şəmunu padşahlar üçün hazırlanan rəsmi qayda ilə qarşılayır. Mar Şəmun dini liderlərin geydiklərə allı-şallı geyimlər içində gələcəkdə bir xalqın rəhbəri olacaq adam kimi, çevrə mühafizələri ilə zərli dörd atlı bir faytona minərək, dördü rus olan və faytonda oturmuş vəziyyətdə üzləri qarşıya və yana baxan atlı yüksək rütbəli əsgərin ikisi Mar Şəmunun arxasında ayaq üstə gözləyirdi. Qılınc dəstəklərinə zümrüd və dəyərli mücəvhərlərlə bəzədilmiş qılıncları qınından çəkib əllərində tutmuşdular. Bu görkəm padşahlara yaraşan bir görkəm idi. Günəş şüaları düşəndə insan heyrət içində qalırdı . Mar Şəmun bu biçimdə Teymur ağanın qonaq evinə endi".

Mar Şəmun görüş yerinə çatan vaxt İsmayıl Ağa arxasında bir sıra adamla Konəşara gəldilər. Ancaq İsmayıl ağa daha qabaqcadan öz adamlarını Teymur ağanın imarətinə göndərmiş və evin əhatəsində özlərinə uyğun mövqe tutmuşlar.

Mar Şəmun oraya çatınca özü otağa keçib oturur və atlıları tam hazır bir vəziyyətdə eşikdə gözləyirdilər. Kəsrəvi bu haqda belə yazır:

"Bizim Mar Şəmun və Sımko görüşməsindən xəbərimiz yox idi. İsmayıl ağanın hadisə haqqında özünün söylədiyinə görə, Mar Şəmun "İndi Kürdüstan deyə adlandırılan bu ölkə bizim, bizim vətənimizmiş. Nə var ki, din Aləmi qarşı-qarşıya bizi bölmüş. İndi birləşməmiz gərəkdir. Ölkəmizi ələ keçirib birlikdə yaşamalıyıq. Ordumuzu birləşdirsək siz də bizimlə olursanız TƏBRİZİ almaq bizim üçün çox asan olar". Çünki şimalda da rusların köməyi ilə Şaumyan və Mikoyanın rəhbərliyi altında Xəzərdən Qara dənizə, Diyarbəkirdən İran körfəzinə kimi bir federativ dövlət yaradacağıq.

Sımko Mar Şəmunun planını öyrəndikdən sonra gülümsəyərək ona "düşünərəm" - dedi. Mar Şəmunu yola salmaq üçün onunla birlikdə bayıra çıxır. Mar Şəmun faytona minən zaman silah səsi eşidilir. **Bu səs istər Kürdüstanı, istərsə də Azərbaycanı ingilis rus havadarları olan erməni,**



Assuri lideri Mar Şəmun

**assuri qırğınlarından qurtarır və ermnilərin dənizdən dənizə xülyasını alt üst edərək Lozanadakı erməni plankeşlərin planını alt-üst edir**. Mar Şəmun yerə yıxılır. Şıkaki silahlı gücləri dörd bir yandan Tiqranın və Mar Şəmunun atlı silahlılarına atəş açır və 100-ə qədər seçmə adamlarını öldürürlər. İsmayıl ağa həmin gün Çariyə dönür. Ertəsi gün sübh tezdən assur və erməni orduları İsmayıl ağaya qarşı hücuma keçirlər. Ətraf kəndlərin əhalisini qətl edərək heç kimə aman vermirlər. İsmayıl ağa çətin bir qarşıdurmadan sonra Çariya şəhərindən çıxmaq məcburiyyətində qalır.

Mar Şəmunun öldürülməsindən sonra xalq, xüsusilə Səlmas və Urmiya ətrafındakı əhali erməni və assurilərin qanlı qırğınlarına hədəf oldu, çoxlu insan öldürüldü. Mar Şəmunla danışıqlara gedən zaman İsmayıl ağa Sımko Osmanlılardan və Təbrizdən yardım istəmişdi. Və o xəbərdar etmişdir ki, 25-000 nizami orduya qarşı vuruşar lakin bu bir çox əhalinin kütləvi qırğınına səbəb ola bilər. İsmayıl ağa Sımkodan gözü qorxan şah imkan vermirdi ki, Azərbaycanda bir erkək quş da uçsun. Odur ki, Azərbaycandan heç bir yardım gəlmədi. Bir tərəfdən isə İran şahı o ərazilərdə bir erməni və assuri dövlətinin yaranmasının tərəfdfrı idi. Ona görə erməni və assurilərə ingilislərin vasitəsilə yardım edirdi.

Amma İsmayıl ağa Sımko kürdlərdən ibarət silahlı dəstənin Türkiyədən yardım gəlməyinə inanırdı. Türkiyədən gələn əşirət qüvvələri və eləcə də İraq Kürdüstanından Şeyx Mahmud Bərzənçi qüvvələri gec də olsa köməyə gəldi, erməni və assuri ordularına ağır zərbələr vuraraq məğlubiyyətə uğratdılar. Ermənilər ingilis ordusuna sığınmaq üçün Sayınqəlaya çəkildilər. Mukriyani kürdləri arasında bu il "Çilo ili" olaraq adlandırıldı. Mar Şəmunun öldürülməsindən sonra Rzayidə yaşayan (Urmiya) tarixi yazıcı və tədqiqatçı Əli Dehqaninin dediyinə görə ermənilər və assurilər 109 gün Urimya bolgəsində qətliyamlar etdilər. Uşaq, qadın, kişi demədən 140 min adamı öldürdülər. Kənd və qəsəbələri talan etdilər.

Yaxşı, Sımko heç bir səbəbi olmadan nə məqsədlə Mar Şəmunu öldürdü? Bu haqda müxtəlif fikirlər var. Bəzi tədqiqatçılar Sımkonun bu hərəkətini böyük səhv olaraq qiymətləndirdilər. Ancaq bir qism sənədlərə görə Sımko Rusiya və İngiltərənin dəstəyi ilə Mar Şəmunun belə böyük bir qüvvə ilə Kürdüstanın bu bölgəsində dövlət quracağına inanmışdır. Xüsusilə M.Şəmunun öldürülməsindən sonra liderliyə gətirilən Petros, Lozan konfransında Kürdüstanda assurilər üçün bir yerin təyin edilməsini istəyirdilər.Tipik Fələstində yəhudilərə yaradıldığı İsrail dövləti kimi.Və ya Leninlə Atatürkün razılaşması ilə Araz boyu qədim Azərbaycan torpaqlarının İqdır, Ərzurum, Ağrı, Amasiya, Vana qədər yəni ArazAzərbaycan Cumhuriyyətinin bir hissəsinin Türkiyəyə verilməsinə qarşılıq Türkiyədən qovulmuş və qədim Azərbaycan torpaqlarında yeni qondarma Ermənistan respublikasının yaranması üçün şərait yaratdi və Musavat hökumətini bolşeviklərə təslim etdi.

İranın adlı-sanlı yazarı və şairi Məliküm-Şüarrayi Bahar "Siyasal Partilərin qısa tarixi" adlı kitabında belə yazır:

"Lozan" konfransında erməni Petros Londonun dəstəyi ilə assur və kəldanilərin ən köhnə millətlərindən olduqları, yurdlarının isə Mosuldan Osmanlı Kürdüstanından və İran Kürdüstanından Urmiyaya qədər olan ərazini onlara verilməsini, ayrıca özləri üçün bəlirli bir mərkəz və iqamətgahın verilməsini tələb edirdilər. Bununla birlikdə assurların İngiltərə və Rusiya üçün müxtəlif xidmətlər etdiklərinə və edəcəklərinə söz verirdilər. Türklərin yürütdükləri çabaların Mar Şamunun öldürülməsində üzaq bir fikir yoxdur. Hər necə olursa-olsun Sımkonun bu planı İngiltərə və Rusiyanın Kürdüstanda və Cənubi Azərbaycanda bir assur - erməni dövləti qurmaq planını pozmuşdur. Cilo məsələsinin yatırılmasından sonra 1919 -cu ilin yazında Sımko bölgədəki gücühü artırmaq məqsədilə planlarını hazırladı. Təbriz Urmiya yolunu öz himayəsi altına aldı. 1919-cu ilin sonlarında Sipahandari Azam Azərbaycana vali təyin edildi. Sipahsalar Ziyaud Devlə adında birini Urmiya hakimi olaraq göndərilmişdir. O, Sımkoya qarşı dirənməyə və öz müdafiəsini əldə etməyə çalışdı.

**Araşdırdı: Tahir SÜLEYMAN**

# KƏLBƏCƏRİN İŞĞALINDAN 24 İL ÖTDÜ

Azərbaycan Kəlbəcər rayonunun işğalından 24 il ötdü. Kəlbəcər 1993-cü il aprel ayının 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Dağlıq Qarabağ ərazisindən kənarda yerləşən, 1936 kv.km ərazisi, 58 min nəfər əhalisi olan Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalı nəticəsində dinc əhaliyə vəhşicəsinə divan tutulub, yerli əhali min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salınıb. Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib. Kəlbəcər rayonunun əhalisi Azərbaycan Respublikasının 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində qaçqınlıq şəraitində yaşayır. Kəlbəcər rayonu ərazisində qalmış 13.000-dək fərdi mənzil, 37.852 ha meşə sahəsi indi də talan olmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılıb. Ermənistan Respublikasının münaqişədə, o cümlədən Kəlbəcər rayonunun işğalında iştirakı qeyri-hökumət təşkilatı olan "Human Rights Watch/Helsinki" "Azərbaycan. Dağlıq Qarabağda münaqişənin 7 ili" (Nyu-York, 994-cü il, səh. 67-73) məcmuəsində də təsdiq olunub. Bundan əlavə, 1998-ci ildə Ermənistanda keçirilən seçkilər zamanı səyyar səsvermə qutuları Kəlbəcər rayonunda yerləşdirilən erməni əsgərlərinin səsini toplamaq üçün Ermənistan Respublikasının dövlət sərhədindən keçirilib ki, bu da ATƏT-in Demokratik təsisatlar və İnsan Haqları Bürosunun Ermənistanda 1998-ci il martın 16-sı və 30-da keçirilən prezident seçkilərinə dair 1998-ci il 10 aprel tarixli yekun hesabatında öz əksini tapıb.

**Dağıdılmış mədəni abidələr**

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndinə Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kədində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı işğal zonasında qalaraq, Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb.

**İşğal zonasında ekoloji vəziyyət**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları; sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 Ağyataq, Levçay, Çorbulaq və ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları; ehtiyatları 10941 min m3 olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı; ehtiyatları 1312 min m3 olan və kərpic istehsalına yararlı Keşdək gil yatağı; ehtiyatları 4473 min m3 olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı; ümumi ehtiyatları 2,2 mln. m3 olan 2 üzlük daşı yatağı, ehtiyatları 2540 min m3 olan Çəpli qumçınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), nefroid (ehtiyatları 801 ton) yatağı; ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min m3 olan 1 listvenit yatağı qalıb.

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da (ümumi istismar ehtiyatları 3093 m3/gün) işğal ərazisində yerləşir.

Murovdağ, Şahdağ, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinin əhatəsində yerləşən Kəlbəcər şəhərinin ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Təbaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik suxurları yayılıb. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qolları Lev çayı, Tutqunçay və başqalarıdır.



Hazırda işğal altında olan Sərsəng su anbarı da 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmişdir. Onun ümumi su tutumu 560 milyon m3, bəndinin hündürlüyü 125 metrdir. Tərtər çayının yığıldığı bu nəhəng su anbarının sağ və sol sahilindən çıxan magistral kanallar vasitəsilə Tərtər, Bərdə, Yevlax, Ağcabədi, Ağdam və Goranboy rayonlarının ümumilikdə 79000 hektar əkin sahəsi suvarılırdı. Sərsəng su anbarı işğal altında olandan bəri ermənilər illik su sərfinin 85-90 faizini qəsdən, su




## İşğal nəticəsində 53 340 nəfər qovulub, 511 dinc sakin öldürülüb, 321 adam əsir götürülüb və itkin düşüb

lazım olmayan vaxtlarda, xüsusilə qış aylarında buraxırlar. Lazım olan vaxtlarda isə illik su normasının 10-15 faizini buraxırlar ki, bu da suyun səviyyəsinin aşağı düşməsinə və suvarmanın qeyri-mümkünlüyünə səbəb olur. Əkin sahələrinə xeyli ziyan dəyir, yaşıllıqlar susuzluqdan quruyaraq məhv olur, ciddi ekoloji gərginlik yaranır. Qəza vəziyyətində olan su anbarından aşağıda yaşayan 400 min nəfər əhali isə daim təhlükə altındadır.

Kəlbəcər rayonunun Ala göllər, Zalxa gölü və s. kimi saf sulu gölləri var. Əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqlarına malikdir. 1988-ci ildə aparılmış son meşə quruluşu işlərinə əsasən Kəlbəcər meşə təsərrüfatının ərazisi 32774 hektar təşkil edirdi. Bundan əlavə rayonda 8676 hektara yaxın kolxoz və sovxoz meşələri, qiymətli balıq növləri olan çayların ətrafında yerləşmiş 13471 hektar qoruq meşələri, 15531 hektar ətraf mühitin mühafizəsi əhəmiyyətli meşələr, 274 hektar yaşıllıqlar, 80 hektar meşə-park zonası var idi.

Meşələrdə bitən ağac və kolların bir neçəsi Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir. Kəlbəcər rayonunda dəniz səviyyəsindən 1500-2100 metr hündürlükdə bitən Ayıfındığı və ya ağacvarı fındıq bunlardan biridir. Bəzi Ayıfındığı ağacının hündürlüyü 25 metrə, diametri 48-120 santimetrə çatırdı. Bu ağacın oduncağı qiymətli mebel materialı kimi ermənilər tərəfindən qırılaraq Ermənistana aparılır. Kəlbəcər rayonu ərazisində 4 mindən artıq müxtəlif növ bitkilərdən 200-ə qədəri dərman bitkiləridir. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq,




vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda alp və subalp çəmənlikləri geniş yer tutur. Dağ keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və s. bu yerlər üçün xarakterik fauna növləridir.

**İşğaldan əvvəl**

Hələ 1990-cı ildə, iyul ayının 11-də erməni separatçıları tərəfindən «Tərtər Kəlbəcər» sərnişin avtobusu partladılıb, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası həyata keçirilib və nəticədə 14 nəfər qətlə yetirilib, 35 nəfər yaralanıb.

1993-cü il aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdi.

Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Ermənilər azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərini həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətməyə nail olmuşdular. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respubilkasının Milli Təhlükəsizlik Nazirliyinin radioəkskəşfiyyat xidməti tərəfindən lentə alınıb.

1993-cü ilin qiymətlərinə görə Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53.340 nəfər qovulub, 511 dinc sakin öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb. ***ANS PRESS***




**OLDU**

Bu ili də yola saldıq,
Yenə dərdlər sürən oldu.
Kimi öldü, heç görmədi,
Kimi qaldı görən oldu.

Ana vətən, doğma diyar,
İnanmayın bizi duyar.
Sevdiksə də olmadıq yar,
Vətən eşqi yalan oldu.

Yas bağlayıb oturmaqdan,
Hüzünlərə qatılmaqdan,
Dərd odunda çatılmaqdan,
Dərd yerində qalan oldu.

Vətən dərdi dərin yara,
Hələ yoxdu gələn kara.
Ağ bəxdimiz oldu qara,
Gündüzümüz toran oldu.

Anaların qəlbi qandı,
Ataların ruhu yandı.
Qeyrətimiz girov qaldı,
Düşmən bizə gülən oldu.

On doqquz il dərdlə bitdi,
Dərd üstünə dərdlər bitdi.
Yenə həsrət qəlbi diddi,
Dərd yerində duran oldu.

Puça döndü dürüst, düzlər,
Qara oldu bəyaz üzlər.
Igidiydik, axı bizlər,
Qürbət bizə ilan oldu...

Hanı sənin Dəli dağın,
Xoşbəxt günün, xöşbəxdt çağın.
Güzarında şah sayağın,
Qürbətlərdə viran oldu.

Bu dərdlərə dözür ürəkə,
"Dözümlüyük" , dözək gərək.
Axı deyin, deyin görək,
Qeyrət niyə talan oldu?

Vətən oğlu qalx ayağa,
Vətən üçün dön dayağa.
Yaraşarmı mərdə qağa?
Vətən bizi silən oldu.

Yadlar bizə yanan deyil,
Heç kəs səni qanan deyil.
Qürbət sənin oban deyil,
Dağlar sənin vətən oldu.

Vətən bizə oğul deməz,
Ana haqqın halal etməz.
Oturmaqla bu dərd bitməz,
Səbir kasam dolan oldu.

Bəsdi yetər bu acılar,
Biz birləşsək dərd uçular.
Bizə necə deyər dağlar
Sizin kimi balam oldu?!
Cəlil, dərdin bir dəryadı,

Könül evin sal qayadı.
Kim görəcək bu fəryadı?
Ömrün tufan, boran oldu.

***26.03.2012.***

# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

## SOYQIRIM – tarixin qanlı səhifəsi

Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım düşünülmüş şəkildə geniş-miqyaslı qanlı aksiya nəticəsində yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, minlərlə azərbaycanlını böyük qəddarlıqla qətlə yetirmişlər. Ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı ardıcıl etnik təmizləmə, soyqırım və təcavüzü nəticəsində minlərlə insan evindən-obasından didərgin düşmüşdür. Soyqırım siyasətini həyata keçirmək üçün IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər "Böyük Ermənistan" dövlətini yaratmaq üçün Rusiyanın imperiya siyasətindən alət kimi istifadə etmişdilər.



Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

1813-1828-ci illər Rusiya ilə İran arasında gedən iki müharibənin (1804-1813, 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir.

1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Statistik məlumatlara əsasən demək olar ki, 1905-1907-ci illərdə baş verən hadisələrdən sonra azərbaycanlılara qarşı kütləvi repressiyalar gizli şəkildə aparılıb.

1916-cı ilin məlumatları göstərir ki, 1831-ci illə müqayisədə həmin il İrəvan quberniyasının 5 əyalətində əhalinin sayı 40 dəfə artaraq 14 min 300-dən 570 min nəfərədək yüksəlmişdir. Ancaq həmin zaman kəsiyində azərbaycanlıların sayı cəmi 4,6 faiz artaraq 246 min 600 nəfər təşkil edib. Yaxud başqa bir nümunə, əgər 1886-1897-ci illərdə əhalinin mütləq artımı 40 min nəfər olubsa, 1905-1916-cı illərdə bu rəqəm cəmi 17 min nəfər olub. Halbuki hələ 1905-ci ildə 1886-cı illə müqayisədə əhalinin sayı 61 min nəfər çox olub. Bu rəqəmlər çar Rusiyasının idarəçiliyi dövründə erməni millətçilərinin şovinist siyasətini həyata keçirməsindən, "Türksüz Ermənistan" planının reallaşdırılması istiqamətində azərbaycanlıların qovulmasından xəbər verir.

1918-1920-ci illər Birinci dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd edirlər. Bakı Soveti əksinqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın, reallaşdırılmasına başlayır. 1918-ci ilin mart-aprel aylarında isə qanlı hadisələr zirvə nöqtəsinə çatıb. O aylarda ermənilər tərəfindən törədilən cinayətlər azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilib. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarliq abidələri məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılır Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir.

1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 58 kənd dağıdılmış 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunmuş; əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir. lrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində ("Aşxadavor" ("Əməkçi") qəzeti, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması da qurbansız ötüşməyib. ADR-in Nazirlər Sovetinin sədri F.X.Xoyskinin xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda deyilir: "Ermənilərlə biz bütün mübahisələrə son qoymuşuq. Onlar ultimatumu qəbul edib müharibə ilə qurtaracaqlar. Biz ermənilərə İrəvanı güzəştə getdik. Cənubi Qafqazda 3 suveren respublikanın yaranması və müttəfiqlərin köməyi ilə Ermənistan ərazisi 1 milyon 510 min nəfər əhali ilə (795 min erməni, 575 min müsəlman, 140 min digər xalqlar) 17 min 500 ingilis kvadrat mili həcmində olur. Bununla kifayətlənməyən ermənilər heç bir şeyə məhəl qoymadan "Böyük Ermənistan" ideyası ətrafında Gürcüstanın tərkibində olan Axalkalaki, Borçalı, Azərbaycanın Qarabağ, Naxçıvan, Gəncə quberniyasının cənub hissəsinə iddia irəli sürürlər.

1948-1953-cü illər Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam ediblər. 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər Birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılıq verməsi faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoyur.

1988-ci ildən başlayaraq yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış guya Ermənistanla Qarabağın iqtisadi cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. 1988-ci ildən başlayaraq kütləvi hədə qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi yandırılması həyata keçirilir. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Ermənistanın digər rayonlarından - Yerevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovakan, Qoris, Sisian, Amasiya və Alaverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovulur. 1905-1920-ci



illərin tarixi yenidən təkrar olunur - qadın və uşaqlar, yaşlılar qarlı dağlar aşaraq, donadona, insani itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtarırdılar. Yenidən 1948-53-cü illərin tarixi təkrar olunur - İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir, onlar özlərinə çadır şəhərciklərində sığınacaq tapırlar. 1991-ci il



avqustun 8-də (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) sonuncu azərbaycan kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. "Türksüz Ermənistan" kimi daşnak ideyası reallaşdı. 1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü. Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən ölüm doğan o gecədə hələ də dəqiq olmayan məlumatlara görə, 613 nəfər xocalı şəhid oldu. Onlardan ancaq 335 nəfərinin meyidini dəfn etmək mümkün olub. 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil.

Bu faktlardan göründüyü kimi, ermənilər öz şovinist məqsədlərinə çatmaq üçün beynəlxalq hüquq normalarına məhəl qoymadan bütün mümkün vasitə və metodlardan istifadə ediblər. Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam ediblər.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. 31 Mart faciəsi tarixə qanlı bir ləkədir. Bu qanlı ləkə, bu faciə düşmənin üzündəki maskaların düşdüyü və canilərin bütün çılpaqlığı ilə ortaya töküldüyü gündə baş verib. Bu qanlı faciənin gözə çarpan obyektiv mənzərəsi sadəcə kökündən yıxılmaq istəyən böyük bir imreratorluğun çökməsindən ibarətdir.

Hər şeydən əvvəl, hamımızın birinci vəzfəsi millətimizin üzərindən bu qanlı ləkəni silmək, onları tarix önündə təsvir etmək və bu qanlı ləkəni bir daha təkrar etməmək, onların murdar və maskalı üzlərinə çırpmaqdır.Milli intibah müsəlman Türk düşmənlərinin məzarı və ölümü olacaqdır.

26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası prezidenti H.Əliyevin "31 Mart Azərbaycanlıların soyqırımı Günü" kimi qeyd olunması üçün xüsusi fərmanı olmuşdur. 28 mart 2006-cı ildə Azərbaycan Respublikası prezidenti İ.Əliyevin "31 Mart Azərbaycanlıların soyqırımı Günü" münasibətilə Azərbaycan xalqına müraciəti olmuşdur.Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət, yaxınlarına səbr diləyir, xalqımıza səadət, ümummilli vəzifələrimizin həlli yolunda uğurlar arzulayırıq.

*Səhifəni hazırladı: Namiq Həsənov*

# SERBAJARÊ AZERBAYCANÊ BAKUYÊ EYDA NEWROZ HAT DERBAS KIRIN

Di pêşnîyarîya Yektîya Civata ``Kurdên Azerbaycanê``, ser nave Melle Mistefa Barzanî`` 26-ê adarê,seet 15-00-ê li ser bajarê Azerbaycanê Bakuyê li mala şahîyê ``Bahar``-ê cejna ``Newroz`` bi coşeke mezzin hat derbaskirin. Şahîya ``Newroz``-ê ji alîyê serokê Yektîya Civata ``Kurdên Azerbaycanê`` û sernivîsarê rojnama ``Dîplomata kurd`` Tahir Silêman hat despêkirin. Tahir Silêman slav û spasîya endamên ``Yekitêya Civata ``Kurdên Azerbaycanê``beşdarbunara anî ziman, siruda Komara Azerbaycanê û sruda Kurdistanê ``Ey reqîb`` hat gujdar kirin, peyra bona Şehîdên Azadîya herd welatan, bona şehîdên Xocaliyê û komkujîya Helepçe demek beşdarvan rabune şipê bîranîna Şehîdara rêz hatî girtin û hate bîranîn.

Sazîya Yektîya Civata ``Kurdên Azerbaycanê``, ser navê Melle Mistefa Barzanî``26-ê adarê, seet 15-00-ê li ser bajarê Azerbaycanê, Bakuyê li mala şahîyê ``Baharê`` cejna Newroz derbaskir, Gel bi coşeke mezin dihatin û beşdarî Newrozê dibûn. Nêzîngî 300 kes beşdarî Newrozê bûbûn.

Tahir Silêman beşdervanên ``Newroz``-ê silav kir, bona bîranîna şehîda, komkujîya Helepçe û Xocalîye deqek rêz kirtin hîvîdarî kir.

Tahir Silêman bi zimanê kurdî û azerî xêr hatin û slava mêvana kir. Li dîrokê ji dostanîya kurd û azerîyan axaft, bona anîna rewşa dêmokrasîyayê û azadîyê seva gellên Azerbaycanê Hêyder Elîyêvê hertim zindî hate bir anîn. Spasî li serok komara Azerbaycanê Îlham Elîyêv hat kirin wekî, ev roj li çar alîyê cîhanê şer biveji, lê Azerbaycanê gel edil û rewşeke bratî dijîn.

Tahir Silêman gilî da serokê Navenda Çanda Kurd ``Ronahî`` Fexreddîn paşayêv û serokê Yektîya Civata ``Kurdên Azerbaycan``-ê Nîcatê Bakîr. Helbestvan û rojnamevan Murvet Qedimoglî jî beşdarîyan silava-pîroz kirin û daxaz kirin wekî heya Newrozeke nu gellên penaberên Qerebaxê Cîya vegerine warên kal û bavan.

Bi rêvebertîya hozan Şêro Cavanşîr, Azer Amoyêv û Eslîxan, şahî bi coşeke germ û gur, klam stran govendava hat derbas kirin.

Wusajî bi rêvebertîya endamên ``Yektîya Civata Kurdên Azerbaycanê, ser nave Melle Mistefa Barzanî`` Barzanîyê Musa, Bahaddînê Evdile, Romanê Tahir, Barîyê Hemîd, Xalidê Evdilbarî, Hesenê Elî, Kermê Oric, Nîcatê Bakir, Îsmayilê Tahir, Nîgara Mehmed, Ayşêxan û yêd mayîn gellekî bi eşq, coşeke germ û mezin Newrozê şên kirin, beşdarvanan şakirin.

Şahîya Newrozê gellekî bi coşeke mezin derbas bu û gel daxwaz kirin wekî şahîyên wusa berdewambe.
















# Kürd xalqı Bakıda möhtəşəm Novruz şənliyi keçirtdi

Molla Mustafa Bərzani adına “Azərbaycan Kürdləri”İctimai Birliyi təşkilatının idarə

heyətinin təşəbbüsü ilə mart ayının 26-da saat 15.00-da “Bahar” şadlıq sarayında 300

nəfərin iştirakı ilə Novruz bayramı şənliyi keçirilmişdir. Şənliyə gələn qonaqları

salamlayan birliyin sədri Tahir Süleyman, şənlik iştirakçılarını və xalqımızın “Novruz”

bayramı münasibəti ilə təbrik etdi və arzu etdi ki, qaçqın və köçkünlərimiz gələn ilki Novruza

qədər öz doğma yurdlarında, evlərində Novruz bayramını qeyd etsinler . Qədim dostluğa malik olan və tarixən birgə yaşayan qardaş xalqların, Azərbaycanın və Kürdüstanın dövlət himləri səsləndirildi və torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin, Xocalı və Hələbcə soyqrımında həlak olanların xatirəsini anmaq üçün qonaqlardan bir dəqiqəlik sükutla ayağa qalxmalarını xahiş etdi. Anımdan sonra Molla Mustafa Bərzani adına “Azərbaycan Kürdləri” İctimai Birliyi təşkilatının sədri Tahir Süleyman kürd və azərbaycan dillərində qonaqları salamlayaraq, iki qardaş xalqların qədim dostluğundan söhbət açdı, Novruzun yaranma tarixindən tamaşaçılara məlumat verdi və Ulu Öndər Böyük Heydər Əliyevin Azərbaycanda yaşayan xalqlara gətirdiyi azadlıq və demokratiyadan söhbət açdı. Öndərimizin “Hər bir xalqın milli mənsubiyyəti, onun qürur mənbəyidir” ifadəsini yad edərək, onun ruhuna Allahdan qəni-qəni rəhmət dilədi. Ölkə prezidenti hörmətli İlham Əliyev cənablarının xalqlarımıza bəxş etdiyi sabitliyə və əminamanlığa görə ona can sağlığı arzuladı. Sonra sözü “Ronahi” Kürd Mədəniyyət Mərkəzinin sədri Fəxrəddin Paşayevə və “Azərbaycan Kürdləri” gənclər təşkilatının sədri Nicat Bakiroğluna verdi. Onlar da öz növbələrində tədbir iştirakçılarını və xalqımızı Novruz bayramı münasibəti ilə təbrik etdilər . Tədbirdə iştirak edən şair,tədqiqatçı-jurnalist Mürvət Qədimoğlu da tədbir iştirakçılarını təbrik etdi və öz növbəsində Novruzun Yaxın Şərq və Orta Asiya xalqları tərəfindən müqəddəs bir bayram kimi qeyd etdiklərindən söhbət açdı, tədbir iştirakçılarını və Azərbaycan Xalqını təbrik etdi.

Tahir Süleyman sözü şənliyin bədii rəhbəri kürd və azərbaycan xalqlarının sevimli müğənnisi Şero Cavanşirə verdi. Şero öz gözəl və məlahətli səsi ilə milli yallı mahnıları oxuyaraq şənliyə xüsusi rəng qatdı, Azer Amoyev və Əsli xanımda öz növbəsində şənliyi daha da coşdurdu. Şənliyin bədii rəhbəri kürd və azərbaycan xalqlarının sevimli müğənnisi Şero Cavanşir qonaq qismində gecədə iştirak edən Ziba Hüseyinovanı, Sabir İsmayilovu, Vasif Nəsirlini və Birgül Ağdamlını dəvət etmişdir, onlar da öz növbəsində şənliyinə gözəl mahnıları ilə rəng verərək Novruz iştirakçılarında yüksək bayram əhval ruhiyyəsi yaratdılar, şənlik iştirakçılarını yallı və digər musiqilərlə coşdurdular. Sonra Molla Mustafa Bərzani adına “Azərbaycan Kürdləri” İctimai Birliyi təşkilatının təşəbbüsü ilə idarə heyyətinin üzvləri Umud Amoyev, Barzani Əliyev,Nəcəf Quliyev Tariyel Cəlilov, Xalid Sultanov, Bari Fetiyev, Röbşən Musaoğlu Xalid Bədiyev, İsmayıl Əliyev, Nigar Əliyeva, Həmidə Əliyeva,Ayşə xanım, Roman, Əli, Rizvan, Mübariz Əmirxan oğlunun əvəzolunmaz rəqsləri və yallıları ilə tədbir iştirakçılarını heyran etdilər. Şənlik yüksək coşqu ilə keçdi və qonaqlar belə şənliklərin mütəmadi olmasını arzuladılar.

***Hazırladı:Ismayıl Əliyev***





















# "Diplomat" qəzetinin baş redaktorunun təşəbbüsü ilə 5 nəfərlik heyət Şimali İraqın Kürdüstan bölgəsində Xocalı soyqırımını gündəmə gətirdilər

Ərbilin Səlahəttin Universitetində konfrans təşkil olunacaq; Xocalı soyqırımı ilə bağlı sərgi keçiriləcək.

Aprelin 12-də Azərbaycandan 5 nəfərlik nümayəndə heyəti Şimali İraqa səfər edəcək. Bakıda nəşr olunan "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman Ş.İraqın Səlahəttin Universiteti rəhbərliyinə müraciət edib. Müraciətə müsbət cavab verilib və 5 nəfərlik nümayəndə paytaxt Ərbil şəhərində təşkil olunan konfransda iştirak edəcək.

Onların arasında "Yeni Müsavat" qəzetinin əməkdaşı Emil Salamoğlu da var. Reportyorumuz həm konfransdan, həm də Ş.İraqdan eksklüziv olaraq reportajlar, müsahibələr təqdim edəcək. T.Süleyman qəzetimizə açıqlamasında bildirdi ki, konfransda kürd, türkmən və müxtəlif xalqların iştirakı ilə görüşlər keçiriləcək:

"Konfransın mövzusu "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" barədə olacaq. Eyni zamanda Xocalı soyqırımı ilə bağlı tədbir təşkil olunacaq və ermənilərin Azərbaycanımızın başına gətirdiyi müsibətlərdən, dəhşətli cinayətlərdən söz açılacaq.



Xocalı soyqırımı ilə bağlı mətbuat konfransı keçiriləcək və orada yaşayan insanlara Xocalı faciəsi barədə məlumat verəcəyik, ermənilərin törətdiyi cinayətlər haqda faktlar təqdim edəcəyik. Həmçinin Xocalı faciəsi qurbanlarının şəkilləri sərgidə nümayiş olunacaq". T.Süleyman qeyd etdi ki, bu ölkədə 15 min erməni yaşayır. "Bağdadda səfirlikləri, Ərbildə konsulluqları var. 2 milyondan çox türkmən var. Amma nə səfiri var, nə konsulluğu. 2010-cu ildə cənab prezident İlham Əliyevin sərəncamı var idi ki, Bağdadda rəsmi səfirliyimiz açılsın. Amma Xarici İşlər Nazirliyindən mənə bildirdilər ki, səfirliyin açılmaması Bağdadda sabitliyin olmaması ilə əlaqəlidir. Amma ermənilərin var. Gürcüstandan Ərbilə təyyarə reysi var. Bizim niyə olmasın?" - deyə T.Süleyman vurğuladı. (Aşağıdakı şəkildə: nümayəndə heyəti Naxçıvan aeroportunda olarkən).

***Emil SALAMOĞLU,***
***musavat.com***

***"Səddam bizə çox zülm elədi, 70 ziyalımızı və onların qohum-əqrəbasını elə yoldaca tutdurub asdırdı..."***

# Əsəd Ərbil: "Vəziyyətimiz yaxşı deyil, Mərkəzi İraq hökuməti bizə Kürdüstan hökuməti qədər hüquq və azadlıqlar vermir"

## *Tanınmış türkmən şairi, sabiq millət vəkili "Yeni Müsavat"a danışdı*

Azərbaycandan Şimali İraqın Kürdüstan muxtariyyətinin paytaxtı Ərbil şəhərinə gedən 5 nəfərlik nümayəndə heyəti artıq bu ölkəyə çatıb. Məlum olduğu kimi, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə 5 nəfərlik nümayəndə heyəti Səlahəddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunub. Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var.

İraq Kürdüstanında ilk müsahibimiz Türkmən Yazarlar Birliyinin sədri, sabiq millət vəkili Əsəd Ərbil oldu. Müsahibimiz İraq türkmənlərinin problemlərindən, Səddam Hüseynin hakimiyyəti dövründə onlara qarşı yürüdülən qeyri-insani siyasətdən və indiki Bərzani hökumətinin türkmənlərə münasibətindən danışdı. Əvvəlcə qeyd etdi ki, "Barış" dərgisinin baş yazarıdır. Ancaq iki ildir bu dərginin nəşri maliyyə çətinliyindən dayandırılıb.

Dərgi Mədəniyyət Nazirliyinə aiddir. İraq Kürdüstanı ilə mərkəzi hökumət arasında maliyyə problemi yaranıb deyə dərginin nəşrinə vəsait ayrılması dayandırılıb. Bu dərgidə türkmən, ərəb, kürd və Anadolu türkcəsində yazılar dərc olunurdu. Bu 4 il ərzində 57 sayı işıq üzü görüb.

***- Əsəd bəy, türkmənlər Səddam Hüseyn dövrünü necə xatırlayır?***

- Səddamın adı gələndə insanlığın ağlına sığmayan qanlı faciələr yada düşür. Kimyəvi bombalarla minlərlə insanın kütləvi ölümündənmi, yoxsa kütləvi qırğın adı verilən Ənfal faciələrindənmi danışım? Səddam kürdləri, şiə ərəbləri, türkmənləri buldozerlərlə çalalar qazdıraraq diri-diri üstlərini torpaqlatdırırdı. Səddam bu xalqlara qarşı zülmündə hədləri aşırdı. 1992-ci ildə Səddamın türkmənlərə qarşı zülmünü qardaş ölkəyə çatdırmaq üçün bir qrup ziyalımız gizli Türkiyəyə gedirlər. Səddamın onların başına açdığı fəlakətlərin qarşısının alınması üçün kömək istəyirlər. Lakin Türkiyə bu olayların İraqın daxili işi olduğunu söyləyir. Aydınlarımız naümid geri qayıdır. Ziyalılarımız Altunkörpüyə çatmamış onların Türkiyə səfəri Səddama çatdırılır. Səddam 70 ziyalımızı və onların qohum-əqrəbasını yolda tutdurur, Altunkörpü ilə Dilafər arasında dar ağacları düzəltdirərək asdırır. Əmr verir ki, 7 gün heç kim onları dəfn edə bilməz. Cənazələr şişib partlamışdılar. Bir türkmənin evi təsadüfən uçsaydı, evini təmir etdirməyə haqqı yox idi. Ya o ərazini bir ərəbə satmalı idi, ya da uçuq vəziyyətdə yaşamalı idi.



***- Səddam dönəmi ilə müqayisədə türkmənlərin vəziyyətində indi nə dəyişib?***

- 2000-ci ilədək parlamentdə türkmən təmsilçisi yox idi. 2005-də seçkilər oldu və bizdən 5 nəfər seçildi. Bəzi qanunları dəyişərək, təcrübədən istifadə edib problemləri həll etməyə başladıq. Səddam Hüseynin dövründə türkmənlər assimilyasiyaya məruz qalmışdı. Türkmənlərdən kimsə ölkədən qaçsaydı, Səddam onun ailəsini edam etdirirdi. 1991-ci ildə indiki Kürdüstan bölgəsi ayağa qalxdı. Ondan sonra bir az nəfəs ala bildik. İndi İraq Milli Türkmən Partiyası, Türkmən Demokrat Partiyası, Türkmən Reform Hərəkatı var. Sadəcə, ən önəmli problemimiz birliyimizin olmamasıdır.

Bir olsaq, istəklərimizi reallaşdıra bilərik. Səddamın vaxtında türkmən adını qoya bilməzdik. İndi İraq Kürdüstanı konstitusiyasında türkmənlərin milli mənsubiyyəti, türkmən adlarının verilməsi təsdiqini tapıb. Kürdlərdən sonra ikinci ən çoxsaylı millət türkmənlərin olduğunu Ana Yasada rəsmiləşdirmişik.

***- Əsəd bəy, bəs İraqda türkmənlərin siyasi gələcəyini necə görürsünüz? Muxtariyyət olmalıdır, yoxsa Kürdüstan muxtariyyəti tərkibində qalmalıdır?***

- Əvvəla, onu deyim ki, indi 5 millət vəkilimiz var. Kərkükü də əlavə etsək, türkmən millət vəkilləri 15 nəfərə çatır. Sənaye və ticarət naziri Sinan Çələbi türkməndir. Mərkəzi İraq bizə Kürdüstan hökuməti qədər hüquq və azadlıqlar vermir. Səbəb Amerika və İngiltərədir. Çünki onlar heç zamana türkü sevməzlər. Ümumilikdə türkmənlərin vəziyyəti yaxşı deyil. Bizə vədlər verildi, amma kağız üzərində qaldı. İstəyirik ki, nazirliklər artırılsın, millət vəkillərimiz çoxalsın. Ən vacib məsələ - Kərkükə əhəmiyyət verilsin. Orada neft var. Kərkükün iqtisadi inkişafının yaxşılaşdırılması üçün ora sərmayə qoyulsun ki, xalqın rifahı yaxşılaşsın. Tusxurmatu, Təzəxurmatu, Mendeli, Dilafər kimi türkmən bölgələri baxımsız qalıb. Harda türkmən bölgəsi varsa, orada iqtisadi inkişaf yoxdur. Bu bölgələr Mərkəzi İraqın nəzarətindədir. Biz türkmənlərin muxtariyyətə böyük ehtiyacımız var. Amma heç bir halda İraqın dövlət sərhədlərinin pozulmasını istəmirik və muxtariyyəti ölkənin ərazi bütövlüyü çərçivəsində arzulayırıq. Türkmənlərin niyə icra hakimiyyəti olmasın? Universitetdə rektoru olmasın? Doğrudur, Səlahəddin Universitetində türkcə şöbə açmışıq. Türkmən məktəbləri var. Habelə 4 uşaq bağçası var. Kimsə sahibkarlara, ticarətçilərə müdaxilə etmir. Amma ürək daha çox şey istər.

Onu da deyim ki, türkmənlərin əksəriyyəti Mərkəzi İraqda yaşasa da onların nə məktəbi var, nə də siyasi partiyası. Bu bölgədə 120 türkmən məktəbimiz, 8 siyasi partiyamız, bir neçə radio qovşağımız, türkmən telekanalımız, mədəniyyət mərkəzlərimiz var.

***- Millət vəkili olduğunuz zaman hansı məsələlərin həllinə nail oldunuz?***

- Ən əsası terrorla mübarizə qanunudur. Görürdün bir qrup şəxs təxribat edib haradasa partlayış törədir. Biz ölüm hökmünü bərpa etdik. Kürdüstan bölgəsində terrorçuluqda ittiham olunan şəxslər məhkəmə hökmündən sonra edam olunur. Əvvəllər isə terrorçulara ən ağır cəza 25 illik həbs idi. Məsələn, "Şixzanə" terror dəstəsi var idi. Onlar insanları öldürür, sonra ətini qonşulara yedizdirirdilər. 2007-ci ildə ələ keçirildilər və dəstədə olan 15 nəfər asılaraq edam olundu. Kərkük, Bağdad və Mosulla müqayisədə Ərbil çox sabit şəhərdir. Burada terror yoxdur, rahat yaşayırıq. Kərkükdə evindən çıxan fatihə oxuyur ki, bəlkə geri dönmədi.

***- Son olaraq Azərbaycana deyəcək sözünüz varmı?***

- Dədə-babalarımız bura Azərbaycandan gəlib. Özümüzü azərbaycanlı sayırıq. Bu halda niyə Azərbaycanın bir səfirliyi, konsulluğu açılmır? Azərbaycana gələndə çox çətinliklə viza alırıq. Səfirlik olsa, rahat gedib-gələ bilərik. "Diplomat" qəzetinin baş yazarı Tahir Süleyman mütəmadi Ərbilə gəlir. Kürdlərdən çox bizim problemlərimizlə maraqlanır, istəklərimizi Azərbaycana çatdırır. Şükürlər ki, siz birinci Azərbaycan türkü olaraq bizi ziyarətə gəlmisiniz. Olmazmı idi ki, sizinlə bir neçə qəzetçi də gələydi, istəklərimizi, arzularımızı qələmə alaydılar?!

***Emil SALAMOĞLU,***
***musavat.com***

# Sabiq türkmən naziri, İraq Kürdüstan Türkmən Kültür Dərnəyinin başqanı Cövdət Nəccar Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etdi

## İraq Türkmən Dərnəyinin rəhbəri Cövdət Nəccar: "Gözümüz Bakıdadır və ümidimiz odur ki, burada Azərbaycan səfirliyi açılsın"

"Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə Azərbaycandan İraqın Ərbil şəhərinə 5 nəfərlik nümayəndə heyəti gedib. Onlar Səlahəddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunublar. Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var. O, türkmən əsilli keçmiş idman naziri Cövdət Nəccarla görüşüb.

C.Nəccar nazir işlədiyi dövrdə - 2009-cu ildə "Yeni Müsavat"ın redaksiyasına təşrif buyurmuşdu. O vaxtdan sonra müxtəlif vəzifələrdə çalışan C.Nəccar hazırda İraq Türkmən Dərnəyinin rəhbəridir. O bildirdi ki, bu mədəniyyət mərkəzi 1998-ci ildə yaradılıb və məqsədi İraqda yaşayan xalqların qardaşlığına nail olmaqdır. Onun sözlərinə görə, amma bəzi siyasətçilərin ucbatından türk, kürd və ərəb xalqları arasında problem yaradılıb.

C.Nəccar qeyd etdi ki, Səddam Hüseyn dövründə bu mərkəzin qərargahını qapatmağa, terror etməyə çalışıblar, onlara qarşı hücumlar etməyə cəhd göstərilib. Bununla belə,



mərkəz mücadilə verərək varlığını qoruyub saxlaya bilib.

"Səddamın dövründə türkmənlərin başına nələr gətirildiyini bilirsiniz. Təbii haqlarımızı istəyirdik, vəzifələrdə türkmənlərin də təmsil olunmasını arzulayırdıq. Məktəblər, siyasi partiyalar, mədəniyyət mərkəzlərimiz yox idi. Artıq o dövr geridə qaldı. Biz kürdlər və digər xalqlarla birlikdə qardaşlıq içində yaşayırıq. İraq Kürdüstanında Türkiyə dövləti bizə bir dayaq oldu. Ərdoğan Bərzani hökuməti ilə siyasətdə düzgün addımlar atdı və bu baxımdan bizə imkanlar yarandı. Türkmənlər xeyli irəli getdilər. Səddam vaxtı isə heç türkmən milləti deyə bilməzdik.

Pasportda milliyyətini ya kürd, ya da ərəb yazmalı idin. İndi kürdlərdən sonra sayca ikinci millət kimi türkmənlər rəsmən qəbul olunub, bütün İraqda isə üçüncü çoxsaylı millətik. İraq Kürdüstanında 5 millət vəkilimiz var, məktəblərimiz var. Amma problemlərimiz də bitməyib" - deyə müsahibimiz vurğuladı.

Sabiq nazir əlavə etdi ki, hazırda türkmənlər daha çox ticarətlə məşğuldur. C.Nəccar bölgədəki inkişafı Türkiyə və İranla ticarət əlaqələrinin olması ilə əlaqələndirdi: "Arzu edirik ki, Azərbaycanla da bu əlaqələr yaransın. Biz türkmənlər həmişə Azərbaycanı öz vətənimiz hesab etmişik. Çünki Azərbaycandan köçüb gəlmişik. Soyumuz-kökümüz, dilimiz, dinimiz birdir. Bu mənada əlaqələrimizin sıxlaşması, genişlənməsinə




ehtiyac var".

C.Nəccar Azərbaycan prezidenti İlham Əliyevə müraciət edərək İraqda səfirlik açılmasını xahiş etdi: "Biz Azərbaycana getmək üçün çətinlik çəkirik. Viza almaq problemi yaranır. İraq Kürdüstanında 27-28 ölkənin səfirliyi var. Rusiyanın, Türkiyənin səfirlikləri fəaliyyət göstərir. İraqın Azərbaycanda səfiri var, amma Azərbaycanın burada yox. Biz cənab prezident İlham Əliyevdən rica edirik ki, bu məsələyə baxsın. Hörmətli millət vəkili Qənirə Paşayeva da bu məsələni qaldırmışdı. Səfirlik olsa, gedib-gəlmək, ünsiyyət qurmaq imkanlarımız daha çox genişlənə bilər. İş adamlarınız burada gəlib iş qura bilərlər, türkmənlərin problemləri daha çox qabardılar. Əgər Türkiyə, Rusiya kimi ölkələrin burada səfirliyi varsa, Azərbaycanın niyə olmasın? Gözümüz Bakıdadır və ümidimiz odur ki, səfirlik açılsın. Qəzetiniz vasitəsilə də Azərbaycan xalqına salamlarımı çatdırıram".

**Emil SALAMOĞLU,**
**musavat.com**

# Bərzani əmin-amanlığı yaradır, İraq tərəfdə isə hər gün ölümdür

## Şimali İraqın təzadlı həyatından növbəti qeydlər

Neft gəlirləri hesabına Şimali İraq kürdləri sürətlə varlanır. Ərəblər isə partlayışların, terrorun adiləşdiyi ölkənin cənub şəhərlərindən baş götürüb şimala qaçırlar. Onlar Şimali İraq şəhərlərində qara işlərdə ən aşağı əmək haqqına çalışırlar. Hətta aralarında gecələməyə yerləri olmadığı üçün açıq havada yatanlar var. Çünki aldıqları maaş hoteldə qalmağa yetərli olmur.

Son illər mərkəzi kürd muxtariyyətinin tabeliyində olan şəhərlərə kütləvi köç var. 2003-cü ilin əvvəlində Şimali İraqda əsgər, polis, müəllim 100-150 dollar maaş alırdı. Bu rəqəmlər son 5 ildə 750-1250 dollar arasında dəyişib. Duhok, Ərbil və Süleymaniyyə kimi böyük şəhərlər inkişafdadır. Ərbildə 2500 kvadrat metr ərazinin qiyməti 10 milyon dollardırsa, əraf ərazilərdə belə torpaq sahəsi 500 min 3 milyon arası dəyişir. Xüsusilə villaların tikintisində xarici ölkələrdəki evlərin arxitektura quruluşundan nümunə götürülür.

İngilis, amerikan, fransız, alman, italyan kəndləri adı ilə tanınan bu massivlərdə hər villanın 300-500 min dollar qiyməti var. Ərbil məhəllələrindən keçərkən İsveç massivi və yaxud alman massivi yazılmış lövhələr qarşınıza çıxacaq. Bu massivlərdə həmin ölkələrin arxitekturasına uyğun villalar ucaldılıb. Hər birində 250-400 villanın olduğu, elektrik enerjisinin heç vaxt kəsilmədiyi bu müasir məhəllələrdə Şimali İraqın elitar təbəqəsi yaşayır. Bu bölgədə qızıl və almaz satışına ciddi maraq var. Rusiya, Hindistan və Çexiyadan bu ölkəyə almaz idxal olunur. Əsasən də toylarda gəlin və bəyə bu zinət əşyaları hədiyyə edilir.Kürdlər artıq "Rolls-Royce" kimi bahalı maşınlarda gəzir. Səddam Hüseyn dövründə "Brazil" deyilən rus istehsalı olan nəqliyyat vasitəsindən istifadə edən kürdlər indi bu maşınları bəyənmirlər. Artıq bu köhnə avtomobillərə rast da gəlməzsiniz. "Land Cruise", "Land Rower", "Mercedes", "BMW" kimi maşınlar kürdlərin sevimlisidir. "Rolls Royce" kimi dünyanın ən bahalı avtomobilləri də burada satışa çıxarılıb. Şəhərdə gecələr gənclər arasında bu maşını sürənlər qarşımıza çıxır. Bölgənin ən böyük ticarət mərkəzi olan Majidmoolun alt qatında sərgilənən "Rolls Royce" avtomobilləri şəhərin ən zəngin iş adamlarından biri tərəfindən gətirilib. Şimali İraq təzadlar məmləkətidir. Ölkənin yuxarıda təsvir etdiyimiz gülən üzüdürsə, ağlayan sifətini də diqqətinizə çatdırmalıyıq. Bağdad və Mosul başda olmaqla, cənub şəhərlərindən gələn minlərlə ərəb ailələrini dolandıra bilmək üçün kürdlərin nəzarətindəki bütün ağır işlərə baş vururlar. Gündə 10-15 min dinar (10 manat) müqabilində ərəblər tikintidə, tualet, təmizlik, süpürgəçilik və başqa işlərdə çalışırlar. Ərəblər danışırlar ki, yaşadıqları doğma şəhərlərdə artıq onların həyati təhlükəsizliyi sıfıra bərabərdir. 10 ildir ki, sabitlik bərqərar olunmur. Digər tərəfdən, dolanışıq da çətinləşib. Ərəb Yusif Abdullanın dedikləri bizə tərcümə edilir: "Qarşıdurmalardan yorulmuşuq. Buna nə zaman son qoyulacaq bilmirik. Ölkəmizin gələcək taleyi qaranlıq



görünür. Ailələrimiz aclıqla üz-üzə qalıb. Ərbil, Süleymaniyyə kimi şəhərlərə köçüb burada işləyirik. Qazancımızın bir qismini hotellərə versək ailəmizə göndərəcək pul qalmayacaq. Parklarda, boş ərazilərdə gecələyirik..." Şimali İraqın Ərbil şəhərindəki Kayseri bazarı. Bir yanda işıldayan zərgər dükanları, digər tərəfdə ədviyyatçılar və s. Osmanlı dövründə bazarın indiki yerində karvansaraylar olduğu, alver üçün Ərbil qalasına gələn xaricilərin heyvan və yüklərini burada buraxdığı rəvayət edilir. Son zamanlar zərgər, geyim, texniki avadanlıq dükanlarının açılması belə bazarın tarixi xüsusiyyətini dəyişdirməyib. Tarixi boyunca hər dərdə dərman qurudulmuş bitkilərin, cürbəcür otların və yüzlərlə növ ədviyyatın satıldığı nəhəng bazarda ürəyin istədiyini tapa bilərsən. Kənd və dəri pendirləri, halva, doşab, qəhvə növləri, loxum, şəkərləmə, sosiska və paxlavaların piştaxtaya çıxarıldığı Kayseri bazarı bu ənənəvi xüsusiyyətini heç də asanlıqla itirmək istəmir.

33 ildir dərzilik edən Sahib kişi bazarın köhnəyə nisbətən çox dəyişdiyini söyləyir: "Dərziliyi ustadımdan öyrənməyə başlayanda 9 yaşım var idi. Bazarda dərzilər, qəssablar, tərəvəz satıcıları. Hər şeyin özünə görə ayrı küçəsi vardı. Sonra dəyişdi".

Dərzi deyir ki, Kayseri bazarı Hələb və Şamdakı bazarlara bənzəyirdi. Çünki bazarın arxitekturasına Hələb və Şam üslubunda inşa olunub. Bazarın tarixinin ən az 200 illik olduğunu deyən Davud kişi ərbilli Əhməd Çələbinin atasının buranı suriyalı ustalara tikdirdiyini söyləyir: "Qəssab, Kəndirbaz, Dəmirçi kimi ləqəbləri olan biznesmenlər vardı. İndi heç biri yoxdu. Qədimdə karvanlar Çindən, Pakistandan və Əfqanıstandan bura mal gətirər, Mosul şəhəri üzərindən Şam, və Fransaya ixrac edirmişlər.

Ərbil əhlinin ən əsas qazancı ticarətdir. Ticarət olmasa, batarıq. Bərzani hökuməti neft pullarını ilə abadlıq işləri aparır, yeni şəhərlər salır, yollar düzəldir. Mərkəzi hökumətdən asılılıq azalıb. Ona görə ticarətçilərin üzərinə ağır vergilər qoymayıb".

**Emil SALAMOĞLU,**
**musavat.com**

*Azərbaycan-Kürdüstan dostluq əlaqələri*

# Biz türkmanlar Məsud Barzani cənablarının yardımı ilə İraqda bir millət kimi tanındıq

***İraqda iyirmidən fazla Türkman Mədəniyyət Mərkəzlərimiz var, iyirmidən artıq türkman adı ilə siyasi partiyamız, altıdan artıq teleyayım mərkəzlərimiz, onlarla mətbu orqanlarımız var və bunların bütün məsrəflərini Kürdüstan hökuməti təmin edir***



*Müsahibim İraq Federativ Respublikasının Kürdüstan bölgəsinin parlament üzvü, millət vəkili, türkman şairi Əsəd Ərbildir*

Mən hər il bir-iki dəfə İraqa gedirəm. Başqa xalqların nümayəndələri ilə yanaşı türkman xalqının da nümayəndələri, şair və yazıçıları ilə görüşlərim olur. Belə görüşlərdən biri də türkman əsilli millət vəkili və parlament üzvü, on üç kitabın müəllifi şair Əsəd Ərbildir.

Mən istərdim ki, Əsəd bəyin rəhbərliyi altında, bir sıra ziyalı, dövlət xadimi Ərbildən Azərbaycana gəlsin, Azərbaycanın ictimai-siyasi durumunu görsünlər, İraqın ictimai-siyasi reallıqlarını Azərbaycan xalqına çatdırsınlar. Nə vaxta kimi biz gələcəyik? İndi artıq növbə sizindir. Sizlər mütləq gəlməlisiniz! Gəlməlisiniz ona görə ki, əlaqələr yaransın. Çünki bu iki qardaş xalqın talehi demək olar ki, eynidir. Və ilk sualım belədir.

**- Əsəd bəy, bildiyimiz kimi oktyabr ayında TBMM- i ordunun İraq ərazisinə girməsi və Kürdüstan İşçi Partiyasının, yəni PKK- nın otuz illik mübarizəsini yox etmək üçün "təskərə" qəbul etdi. Və Qəndil dağlarındakı gerilla qərargahına, sığınacaqlarına və gerilla dəstələrinə ağır zərbələr vurmaq məqsədi ilə təyyarə, vertolyot, top, tank və müasir zirehli texnika ilə təpədən dırnağadək silahlanmış iyirmi minlik ordu ilə hərəkət etdi. Sizin bu məsələyə münasibətiniz necədir?**

- İlk öncə çox xoş gəlmisiniz və sizin vasitənizlə bütün Azərbaycan xalqına sayqı və salamımızı yetirirk.

Türkiyədə qəbul edilən "təskərə" yə biz bir İraqlı olaraq, türkman kimi və sonunda Kürdüstan vətəndaşı kimi doğrudan-doğruya fikrimi (yanıtımı) bu şəkildə verəcəyəm. Türkiyənin çıxardığı "təskərə" Kürdüstan İşçi Partiyasına (PKK) görə çıxarılıb. PKK sorunu da İraq sorunu deyil, yüzdə yüz Türkiyə sorunudur. Onun üçün biz arzu edərik bu sorun siyasət və ağıl-məntiqlə masa arxasında, dialoq yolu ilə, danışıqlar vasitəsi ilə öz həllini tapsın. İndiki dönəm kürəlləşmə dönəmidir, demokratiya və sülh dönəmidir. Müharibə, zorakılıq, işğal, yox etmə, milləti danmaq, qan tökmək zamanı bitdi. Millətlər üzeyə (kosmosa) uçurlar, elmi axtarışlar, kəşflər dalınca iş aparırlar. Bundan belə silah yolu ilə heç nəyi çözmək olmaz, faşist Səddamın aqibəti göz qabağındadır. O "ənfal" planı ilə bizə hər zaman dayaq olan 185 min qəhrəman kürd övladını kütləvi şəkildə məhv etdi. Sonuc Səddamın başına nə gəldi yaxşı bilirsiniz. İnsanlıq olan yerdə, ağıl məntiq olan yerdə, sözsüz ki, insani amillər özünə yer tutmalıdır. Dünyanın nə qədər mübahisəli məsələləri olubsa, qanlar tökülübsə əski zamanına da baxsaq sorum sonda masaya oturulub, danışıqlar yolu ilə diplomatik yollarla çözülüb. Ona görə də biz buradan türk qardaşlarımıza, Türkiyə rəhbərliyinə səslənirik: "İraq Kürdüstanının bölgə rəhbəri Məsud Barzani cənablarının burda yaşayan xalqlara verdiyi demokratik haqlar əgər Türkiyə rəhbərliyi də ordakı kürd xalqına verərsə mənə elə gəlir ki, nə PKK sorunu qalar, nə də iqtisadi çətinlik." Türkiyə kürdləri "Demokratik Muxtariyyat" barədə yeddi maddədən ibarət təklif irəli sürmüşlər və dövlət rəhbərinə təqdim etmişlər.

Həmin deklarasiyanı bir daha oxucuların nəzərinə çatdırırıq:

**1. Türkiyənin ali kimliyi kimi kürd kimliyi də tanınmalı və qanun Konstitusiyada yer almalı.**

**2. Kürdlərin dili və mədəniyyəti qarşısında duran bütün qadağalar və əngəllər qaldırılmalı, ana dilində təhsil alma hüququ verilməli, Kürdüstan bölgəsində kürd dili ikinci təhsil dili kimi qəbul edilməli, bununla da başqa azlıqların mədəni hüquqlarının yolu açılmalı.**

**3. Özünü ifadə etmək təməlində düşüncə və inancın, siyasət yürütmək hüququ verilməli, ictimaiyyət arasında bərabərsizlik aradan qaldırılmalı.**

**4. Kürd və Türk ictimaiyyətinin bir-birini əfv etməsi məqsədi ilə birgəyaşayış çərçivəsində azad birlik təsis edilməli, Kürdüstan Fəhlə Partiyasının rəhbəri də daxil olmaqla bütün siyasi məhbuslar buraxılmalı.**

**5. Xüsusi əməliyatlar və döyüş aparmaq məqsədi ilə Kürdüstan bölgəsində dislokasiya edilən əsgəri birliklər geri çəkilməli, qoruyuculuq sistemi aradan qaldırılmalı, əhalinin öz yurd-yuvalarına qaytarılması üçün mədəni və iqtisadi tədbirlər həyata keçrilməli.**

**6. Bölgədəki idarəetmədə yeni bir qanunla düzəlişlər aparılmalı və icrası gücləndirilməli.**

**7. Yuxarıda sadalanan maddələrlə bağlı əgər irəliyə doğru müsbət addım atılarsa, gerilla gücləri ictimaiyyətə dönüşünü saxlayacaq və silahı yerə qoyacaqdır.**

**Ədalət naminə etiraf edib deyə bilərəm ki, Kürdüstan rəhbərliyi burada yaşayan bütün azsaylı xalqlara, eləcə də türkmanlara yuxarıdakı təkliflərdən on qat artıq haqq verib. Bunda qorxulu nə var?**

Türkiyə rəsmilərinin verdiyi rəsmi rəqəmlərə görə Türkiyə Respublikası PKK -ya qarşı 380 milyard dollar pul xərcləyib, 4500 kürd kəndi boşaldılıb, 30 000 insanın həyatına son qoyulub və dövlət borca görə dünya dövlətlərindən asılı vəziyyətə düşüb. Təkcə son əməliyyatlarda 80 milyard dollar pul xərclənib. Görəsən PKK-ya qədərki inqilabi mübarizələr zamanı da daxil olmaqla bu günə qədər nə qədər sərmayələr izafi getdi? Əgər bu mənasız müharibələrə xərclənən paralar Türkiyə xalqının rifahına, qalxınmasına, inkişafına xərclənsəydi sizi inandırıram ki, Türkiyə bəlkə də iqtisadi baxımdan dünyanın qabaqcıl ölkələrindən biri olardı.

**- Əsəd bəy, bir millət vəkili kimi, birinci, İraqın Kürdüstan bölgəsindən kənar yaşayan türkmanları haqqında, ikincisi Kürdüstan bölgəsində yaşayan türkmanların ictimai-siyasi durumu haqqında oxuculara məlumat verməyinizi xahiş edirəm.**

- İraq ərazisində doğrudan-doğruya türkmanlar istədikləri haqların hamısına sahib deyillər, arzu edirik ki, daha fazla haqlar əldə edək. İraq içərisində türkmanların bütün hüquqi haqları əldə edə bilməməsinin bir neçə səbəbi var. İlk öncə türkmanların birliyinin olmaması, ikinci kənar qüvvələrin türkman xalqının içində öz mənafeyinə uyqun apardığı çirkin siyasət, bizim birliyimizi dağıtdı, parça-parça etdi və biz başqaları üçün oyuncağa çevrildik. Amma Kürdüstan bölgəsində vəziyyət tamam başqadır. Kürdüstan bölgəsinin rəhbəri Məsud Barzani cənabları, İraq anayasasına türkmanların adını demək olar ki, zorla qəbul etdirdi. Lakin İraq ərazisində türkmanlar dağınıq olduğu üçün türkman dilini dövlət dili kimi qəbul etmədilər. Çünki İraq parlamentində söz birliyimiz yox idi, hətta, bəzi türkmanlar ərəblərə səs verirdilər. Birliyimizin olmaması üzündən istəklərimizi İraq parlamentinə qəbul etdirə bilmədik və zəif düşdük. Amma Kürdüstan bölgəsində nəinki biz türkmanlar üçün, mən inamla deyərdim ki, Kürdüstanda yaşayan bütün azsaylı xalqlar üçün bütün demokratik-insani haqlar tanınıb. Mən başqan Məsud Barzani cənablarının toplantıların birində dediyi sözləri xatırlatmaq istəyirəm. O, demişdi: "Biz kürdlər işğalçı dövlətlər tərəfindən o qədər faciələr, zülmlər, dəhşətlər görmüşük ki, bunu sadalamaqla bitirmək olmaz, biz yaşadığımız faciələri bizimlə birlikdə yaşayan türkman, asuri, kıldani xalqları da yaşayıblar. Mən Məsud Barzani heç vaxt icazə verməyəm ki, bizimlə çiyin-çiyinə mübarizə aparan xalqlar hər hansı bir haqsızlığa məruz qalsın. Kürdüstanda yaşayan hər hansı bir xalqın bir fərdi varsa biz onunda bütün insani haqqını vermişik və gələcəkdə hər hansı bir istəkləri olarsa böyük məmnuniyyətlə yerinə yetirməyə çalışacağıq". Cənab Barzaninin bu çıxışı hamımızı məchub etdi, sevindirdi.

İndi 127 üzvdən ibarət Parlamentimiz var və İraq tarixində ilk dəfə olaraq dörd türkman millət vəkili Kürdüstan parlamentində təmsil olunur. Hökumət içində iki nazirimiz var, onların biri sənaye naziridir, digəri isə dövlət naziridir. İraq anayasasında özümüzü tanıda bilməsək də, biz Kürdüstan anayasasında Məsud Barzani cənablarının yardımı ilə bir millət kimi tanındıq. Çünki Kürd



qardaşlarımızın yaşadıqları faciələri biz də birgə yaşamışdıq. İndi Kürdüstan bölgəsində kürdlərdən sonra biz ikinci millətik. Qaldı təhsil məsələsinə, 1991-ci ildən sonra hansı ki faşist Səddam rejimi dağıdıldı, biz ilk ibtidai siniflərimizi açdıq, İstambul şivəsi ilə dərslərə başladıq. Yaxşı olardı ki, Azərbaycan hökuməti Kürdüstan hökuməti ilə əlaqə yaratsın, məktəblərimizdə azəri şivəsi ilə dərslər keçirilsin. Çünki türkman ləhçəsi ilə azərbaycan ləhçəsi demək olar ki, eynidir. İndi Kürdüstanın paytaxtı Ərbildə 13 məktəbimiz var, doqquzu ipdidai, dördü isə orta məktəbləridir. Ərz etmək istərdim oxucular bilsinlər ki, iyirmidən fazla Türkman Mədəniyyət Mərkəzlərimiz var, iyirmidən artıq türkman adı ilə siyasi partiyamız, altıdan artıq teleyayım mərkəzlərimiz, onlarla mətbu orqanlarımız var və bunların bütün məsrəflərini Kürdüstan hökuməti təmin edir. Bu yaxınlarda parlamentdə Kürdüstan Milli Elmlər Akademiyasının yaradılması məsələsinə baxıldı. Bununla bağlı biz, türkmanlar da Kürdüstan parlamentinə öz diləkçəmizi verdik ki, akademiyada türkman dilinin şöbəsi açılsın. Bu məsələ ilə bağlı Kürdüstan Parlamentinin rəhbəri Ədnan Müfti yeni təkliflə çıxış etdi və bildirdi ki, Kürdüstan Milli Elmlər Akademiyasında Kürdüstanda yaşayan bütün xalqların dilində şöbələr açılsın və o xalqların tarixini, mədəniyyətini, keçmişini tədqiq etsin. Bu təşəbbüs Kürdüstanda yaşayan xalqlar tərəfindən, eləcə də biz türkmanlar tərəfindən böyük rəğbətlə qarşılandı. İndiyə qədər türkman xalqının kitabxanası olmamışdır, Xalq əsrlərdir kitabları evlərində saxlamış, nəsildən nəslə çatdırmışdır. İnanıram ki, xalq milli birliyi üçün evlərində olan dəyərli kitabları Türkman Akademiyasına təqdim edəcək və əllərdə saxlanılan xəzinə xalqın ixtiyarına veriləcəkdir və bununla da qismən olsa da, türkman xalqını dünyaya tanıdacağıq. İstərdim oxucular bilsinlər ki, yuxarıda sadalananlar Kürdüstan bölgəsində yaranıb. Lakin İraq daxilində birlik və bərabərliyimizin olmaması bizi hər bir imkandan məhrum etdi.

**- Əsəd bəy, Sizin, yəni türkmanların birliyi niyə pozuldu, bunun günahı kimdədi və kimdir günahkar?**

- Tahir bəy, bunun çox şaxəli tərəfləri var, danışmaqla bitməz. Mən oxuculara qısa da olsa bəzi məqamları açıqlamağa çalışacam. Səddamın süqutundan sonra, bir çox dövlətlər öz mənfəətləri üçün İraqın daxili işlərinə müdaxilə etdilər. ABŞ başda olmaqla, İngiltərə, İran, Türkiyə, Suriya, Rusiya və Avropanın demək olar ki, bütün dövlətləri müdaxilədə bulundular. Burdakı xalqları qarşı qarşıya qoydular, bəzilərini pul-para ilə ələ aldılar, bəzilərinə vədlər verərək aldatdılar, burdakı xalqların birliyini pozdular və zəif salaraq qismən də olsa məqsədlərinə nail oldular.

**- Əsəd bəy, İraq hökumətinin türkmanlara münasibəti necədir? Kürdüstan hökumətinin türkmanlara münasibəti necədir?**

- İraqdakı türkmanlarla və Kürdüstandakı türkmanların fərqi, Tahir bəy, bu suala çox qısa cavab verəcəm. Kürdüstandakı türkmanların ümumi vəziyyəti və durumunu dağın zirvəsi, İraqdakı türkmanların durumunu isə həmin dağın ətəyi kimi müqayisə edə bilərəm. Bu fərqə məncə heç bir izahat lazım deyil.

**- Əsəd bəy, olmazmı türkman millət vəkilləri və ziyalıları Azərbaycan hökumətinə bir diləkçə göndərsinlər və bildirsinlər ki, biz istəyirik Azərbaycan və Kürdüstan hökumətlərarası ictimai-siyasi və dostluq əlaqələri yaransın. Belə bir addım atmaq olar, ya yox?**

- Dünyada elə bir şey olmaz ki, mümkün olmasın. İstəklər olan yerdə əlaqələr də olmalıdır və sözsüz olmalıdır. İndi bir sox ölkələrdən iş adamları Kürdüstana gəlir, külli miqdarda sərmayələr qoyub işləyirlər. Eləcə də Türkiyədən minlərlə şirkət hal-hazırda burda çalışır. Niyə bizə doğma olan əzizlərimiz Azərbaycandan gəlib işləməsinlər? Nə qədər əlaqələrimiz tez yaranarsa, birliyimiz bir o qədər güclü olar, dostluq əlaqələrimiz möhkəmlənər. Əvvəl siz dövlət olaraq gəlin, biz də sizinlə qürurlanaq Kürdüstan hökuməti qarşısında məsələ qaldıraq. Tahir bəy, niyə Rusiyanın, Türkiyənin, Fransanın və bir çox ölkələrin konsulluğu Kürdüstanda olsun, Azərbaycanın nümayəndəliyi olmasın? Biz Azərbaycanı özümüzün doğma vətəni hesab edirik. Nə üçün, Kürdüstanın nümayəndəliyi Anqarada, Moskvada, Avropanın bir sıra ölkələrində olsun, Azərbaycanda olmasın? Nə üçün Azərbaycan rəhbərliyi bizə dost əlini uzatmır?

-Müsahibəyə görə çox sağ olun.

-Mən təşəkkür edirəm, xoş gəlmisiniz.

*Müsahibəni apardı:*
***Tahir Süleyman***



# Qoy heç kim türkman xalqını öz mənafeyinə qurban etməsin

**-Şirzad bəy, özünüzü təqdim edin.**

-Mən Şirzad Əmrəl Üzeyirağalı Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanıyam.

Bizim yaşadığımız Kürdüstan bölgəsi Həvin dağlarının uzunluğu ilə güneyi Ərəbistandır və quzeyi Kürdüstandır. Surcardan Bədrocağa qədər güneydən bizim şəhərlərimiz, kəndlərimiz bu sərhəddə bütün kürd,türkman kəndləri və şəhərləri xarabaya çevrilmişdi. Kürdüstan və ətraf bölgələr Səddam Hüseyn tərəfindən İraq dövlətinin quruluşundan bəri ərəblərin zülmü altında idi. Xüsusilə Səddam Hüseyn hakimiyyətə gəldiyi andan ilk zülmünü türkman millətinə verdi. Türkman millətinin nə adı var idi, nə də bir hüququ. Türkmanlar şəhərlərdən mülk ala bilməzdi, sata bilərdi, uşaqlarının adını belə türkmanca qoya bilməzdi, qadağan idi. Əks təqdirdə onu siyahıya alınmada qeyd etməzdilər, şəxsiyyət vəsiqəsi verməzdilər.Görəsən onda Türkiyə dövləti harada yatmışdı?

Səddam Hüseyn, doğrudur, kürd xalqına qarşı kimyəvi silah işlətdi , kütləvi qırğınlar elədi, repressiyalar etdi. Yüz səksən min dinc ənalini diri-diri gömdü.Səkkiz min insanı səkkiz yaşından səksən yaşına qədər Barzani nəslindən olan kişiləri yox eti. İstədi kürd xalqını yox etsin. Amma eyni zamanda da türkmanlara heç bir haqq tanıtmamışdır. Türkmanlar kütləvi şəkildə doğma vətənlərindən qaçırdılar amma Türkiyəyə yox.Çünki Türkiyə Səddamdan neft alırdı.O zamanlar türkmanlar Türkiyənin yadına düşmürdülər. Səddam Hüseyn heç bir insana heç bir haqq verməmişdir. O, tək zülmündə “adil” idi. Zülmünü adilanə bir şəkildə bölüm yapmışdır. Zülmünü “ədalət” lə kürd xalqına, türkman xalqına paylamışdır. Amma Səddam Hüseynin bu zülmünə xalqımız, başda qardaşlarımız kürd xalqı olmaqla haqlarımızı müdafiə etmək üçün mübarizəyə qalxdıq. O mübarizə 1991-ci ilin mart ayında Məsud Bərzaninin və Cəlab Təlabaninin rəhbərliyi altında xalq mübarizəyə qalxdı və Səddam ordusunu Kürdüstan bölgəsindən qovub çıxartdılar. Biz Kürdüstan bölgəsində yaşayan xalqlar Kürdüstan Parlamentini seçdik. Kürdüstanda yaşayan millətlər seçki keçirdilər və parlamentin vəkilləri seçildi. Parlament seçkisindən sonra bir hökümət quruldu. Və xəyallarımızda arzuladığımız Kürdüstan dövləti elan olundu.

Bu dövlətdə bütün xalqların nümayəndələri təmsil olunurlar. Ən çox böyük demokratik özgürlük Kürdüstanda yaşayan azsaylı xalqlara verildi. Radio və televiziya kanalları, qəzet və jurnallar, dərnəklər, maqazinlər açıldı, bütün millətlərin öz dilində özgürcə yayımları yayımlanır, nəşr olunur və xalq oxuyur. Kürdüstan hökuməti tərəfindən heç bir basqı heç kəsə olmayıb və yoxdur.

**- Kürd rəhbərliyi sizə necə münasibət bəsləyir?**

- Kürd xalqı tarixi bir zülm altındadırlar. Bu zülmləri görən kürd milləti türkmanlara, məsihlərə, assurilərə, kuldanilərə, ərəblərə qardaşcasına baxır. Onlar istəmirlər ki, bir vaxtlar özləri yaşadıqları zülmləri başqa millətlər də yaşasınlar. Ona görə də Kürdüstan rəhbərliyi tərəfindən böyük demokratik seçim uyğulandı, tətbiq olundu. Bu demokratiyanın içərisində türkman milləti də yararlandı. Xalqımızın arzuladığı milli partiyalar elan olundu. Qanuni parlamentdən iş görmək icazəsi aldı.



“Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman və Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanı Şirzad Əmrəl Üzeyirağalı

Kürdüstanda bütün azsaylı xalqlar örnək demokratiya əldə etdilər. Hökümət dairələrində təmsil olundular.

Arzumuz budur ki, Yaxın Şərqdə və dünyada Küdüstanda olan demokratiya həyata keçirilsin, heç bir xalqın haqqı tapdanmasın. Necə ki, kürd xalqı bu böyük özgürlüyü bizə rəva gördülər ki, öz dilimizdə məktəbimiz, radio və televiziyamız, qəzetimiz, mədəniyyət mərkəzimiz olsun ki, adət-ənənələrimizi unutmayaq. Bu həqiqəti biz Kürdüstandan bütün dünyaya səsləndiririk, zülm dönəmi getdi!

Qoy Türkiyə bizim daxili işimizə qarışmasın, orda yaşayan iyirmi beş milyonluq kürd xalqının haqlarını versin. Müharibə zamanı bitdi.Cənabınız Azərbaycanın yaşamından nümunə verdiniz ki, orada necə yaşayırsınız. İnanın millət birliyi qarşısında heç bir qüvvə dura bilməz. Bu gün kürd xalqı üzərinə nə qədər basqı çox olursa , qarşı durma da çox olur. Çünki millətin, xalqın qarşısında heç bir şey dura bilməz. Əgər biz istəsək ki, insanlarımız barış içərisində yaşasınlar və bir insan yaşamını tətbiq etsinlər, onda millətlər bir-birinə qardaş gözü ilə baxmalıdırlar. Qoy bir-birlərinə kömək etsinlər. İraq Kürdüstanındakı seçimi ölkələrdə tətbiq etsinlər. Çünki bu demokratiya bizə şan-şərəf verir,biz bu demokratiyanı müdafiə edir və özgürcə yaşayırıq. Bir əldən min könüldən dövlətimizə xidmət edirik.

Türkiyə dövləti öz içində yaşayan xalqların demokratik haqqlarını versin, kürd xalqını millət kimi tanısın, bizə verilən haqqları onlara da versin, ondan sonra başqalarının işinə qarışmağa yox, danışmağa haqq qazansın.

**- Dünya türkdilli dövlətlərinə nə demək istərdiniz?**

- Bizim soyumuzdan, bizim qanımızdan olanlar, türk dünyasında yaşayan insanlarımız, Azərbaycandır, Türkiyədir, Qazaxstandır, Özbəkistandır və.s. Bizlər bu dildən, bu nəsildən olanlar Səddam Hüseyn dönəmindən başımıza gətirilən zülm zamanı heç kəs səsini çıxartmadı. Bizim ümidimiz bir Türkiyə dövləti idi ki, bizim adımızı dilə gətirsin və bizi müdafiə etsin. Amma çox təəssüflər olsun ki, bir neçə çirkli əlləri istiğbarat fikri ilə göndərdilər içimizə, bizim türkman millətinin istiqbalını öz mənfəətinə qurban verərək yox etsinlər. Düşmən tapmağa, kürd xalqı ilə türkman xalqını düşmən etməyə və şovinist ərəblərlə işbirliyi yapıb, kürd və türkman xalqının əldə etdiyi azadlığı məhv etsinlər.

Bu da bir məzlumiyyəti sürdürməkdir. Kürd xalqı da bizim qardaş xalqımızdır. Kürd xalqının sayəsində biz də başı uca, kəramətlə, şan-şərəflə yaşayırıq. Bu dövlətlərə, türk dünyasına səsləndiyimiz məsələ odur, türkman xalqını qurban etməsinlər öz mənafeylərinə. Türkman azad bir millətdir, burada qardaş xalqlarla birgə yaşayırıq. Bizi özlərinə dost etsinlər. Çalışsınlar ki, buradakı xalqlarla bizim qardaşlığımızı şanlı-şərəfli etsinlər. Kərkük və cənub bölgələrdəki xalqların durumu çox ağırdır. Biz Kürdüstan rəhbərliyindən xahiş edirik ki,bu bölgələri referendum yolu ilə Kürdüstan bölgəsinə aid etsinlər.Heç kimin haqqı yoxdur, biz türkmanların adından danışsın. Biz xahiş edirik ki, Azərbaycan höküməti, Azərbaycan dövləti bizim hüquqlarımızı müdafiə etsin.Kürdüstan hökuməti ilə ictimai-siyasi, iqtisadi və mədəni əlaqələr yaradılsın. Məktəblərimizdə azərbaycan tədris sistemini təşkil edilsin. Çünki biz Azərbaycanlıyıq!

**(“Diplomat” qəzeti 60-61-ci say)**

# Biz heç kimi özümüzə vəkil etməmişik

**Müsahibim Kürdüstan Demokratik Türkman partiyasının başkanı Dilşad bəydir.**

**Dilşad bəy, Səddam Hüseyn zamanında İraq höküməti türkmanlara hansı haqları vermişdir?**

- Həqiqətən Səddam zamanı 1991-ci ilə qədər türkmanlarin heç bir insani hüquqları yox idi. Hətta türkman dilində danışmağa da icazə vermirdilər, yasaq idi, türkman dilində danışmaq. Heç bircə məktəbimiz də yox idi. Məktəblər, dərnəklər, mədəniyyət mərkəzləri, radio və televiziyadan söhbət açmaq olmazdı. Çünki bir millət kimi İraq Konstitusiyasında türkmanların adı belə çəkilmirdi. Hər zaman zülm altında yaşayırdıq. Səddam quruluşu diktator quruluş idi.Mən Türkiyə rəhbərliyindən soruşuram, 1983-85-ci illərdə 13-yaşından 35-yaşına qədər qız gəlinlərimizi Səddam zorla aparıb Səudiyyə Ərəbistanında 60-yaşında ərəblərə satanda onda sizlər harda yatmışdınız?

Onun "ədalət"i dönəmində heç bir haqqdan, hüquqdan danışmaq olmazdı. 1991-ci ildə Məsud Bərzaninin rəhbərliyi altında Kürdüstandakı xalqlar, əsasən kürdlər, türkmanlar, assurilər, məsihilər, kıldanilər, bir qisim ərəblər birləşərək qalxdılar, zülmkar Səddam Hüseynin ordusunu Kürdüstandan qovub çıxartdılar və Kürdüstan hökumətini elan etdilər. Bu hökümət demokratik biçimdə bütün xalqlara öz haqqını tanıtdı və bütün çətinliklərə baxmayaraq, azsaylı xalqların mədəni haqlarını verdi və onlara böyük şərait yaratdı. O dönəmdən həqiqətən Kürdüstan azad oldu. Burada yaşayan xalqlar birlik əldə etdilər və birlik üzərində çalışdıq, seçimlərə qatıldıq, parlament seçiminə . O vaxt bizim andımız, qərarımız bu idi ki, Kürdüstan hökuməti yaradaq və bu hökuməti biz yaratdıq. Bu hökumət azsaylı xalqların, o cümldən türkmanların mədəni haqlarını geniş aləmə tanıtdı. Kürdüstan hökumətin qərarı ilə 120-i məktəb, 20-i dən artıq dərnəklər, mədəniyyət mərkəzləri, radio, televiziya, bir çox qəzet dərgiləri işıq üzü gördü.



Soldan: Tahir Süleyman, Vəli bəy və Kürdüstan Demokratik Türkman Partiyasının başkanı Dilşad bəy

**- Dilşad bəy partiyanızın neçə üzvü var?**

- Partiyamızın üzvləri çoxdur. Büro üzvlərindən başqa, 25 minə qədər partiyamızın üzvü var.

**- Kürdüstan hökuməti ayda nə qədər yardım sizə edir?**

- Bizim burada 6 türkmən partiyası, bir neçə dərnəyimiz var. Eləcə də 4 müxalif partiyası və 2 dərnəyi var. - Kürdüstan hökuməti kifayət qədər bizə yardımlar edirlər. Eyni zamanda kompaniyalar da bizə yardımlar edirlər.

**- Bu bürolarınız kim tərəfindən yaradılıb. Hökumət sizə nə yardım edib?**

- Bu büroların yeri hökümət tərəfindən təyin edilmişdir və özümüz gücü ilə və Kürdüstan hökümətinin köməkliyi ilə tikmişik. Ondan əlavə bütün bölgələrdə bürolarımız var. Dərnəklərin icazəsini Kürdüstanın Xarici İşlər Nazirliyindən almışıq. Partiyaların icazəsi isə Ədliyyə Nazirliyindən alınıb. Amma müxalif partiyalar qeyri-qanuni fəaliyyət göstərirlər. Buna baxmayaraq Kürdüstan hökuməti onlara rəğbətlə yanaşır. Bu gün Kürdüstanda çox sabitlikdir, bu sabitliyə görə biz sərbəst çalışa bilirik.

**- İndi müsəlman dövlətləri çalışırlar ki, Avropa Birliyinə daxil olsunlar. Hansı ki, Avropa dövlətləri bütün xammalı və işçi qüvvəsini müsəlman dövlətlərindən aparır. Olmazmı ki, müsəlman dövlətləri birləşib İslam birliyi yaratsınlar və bu İslam birliyini elə inkişaf etdirsinlər ki, Avropa dövlətləri islam birliyinə qəbul olmağa can atsınlar?**

- İslam dövlətlərində belə birlik olsaydı, çox gözəl olardı. Lakin islam ölkələrində demokratiya yoxdur, sərbəstlik yoxdur. Bəli, Avropa ölkələrində demokratiya var. Hər bir insan hüquqlarını bilir və istədiyi kimi çalışır. Lakin bizim islam dövlətlərinin yeraltı zənginliklərinin olmasına baxmayaraq çalışırlar ki, bir-birlərini parçalasınlar, biri o birisinin insani haqlarını işğal etsin. Lakin islam dövlətləri demokratik şəkildə birləşərək güclü qüvvəyə çevrilsələr Avropa dövlətləri onlarla hesablaşar. Çünki İslam dövlətlərinin yeraltı zənginlikləri tükənməzdi. Ona görə də həmişə Avropa dövlətləri gözünü İslam dövlətlərinin yeraltı sərvətlərinə dikərək, bu qardaş xalqları bir-birinin üstünə saldıraraq öz çirkin niyyətlərini həyata keçirirlər.Bayaq qardaşımız da qeyd etdi ki, Səddam Hüseyn bizim başımıza zülm açdığı zaman İran və Suriya dövlətləri qapılarını bizim üzümüzə açan yegane dövlətlər oldular, şaxtalı qış günündə bizə həyan oldular. Çox təəssüflər olsun ki, ilk əvvəl Türkiyə də qismən bizə öz qapılarını açsa da, türkman xalqını sonda öz mənafeyinə qurban etməyə çalışdı və qapılarını üzümüzə bağladı. İndi biz Kürdüstan hökumətinin demokratiyası altında bütün mədəni haqlara sahib olmuşuq. Lakin Türkiyə dövləti bir qisim türkmanı öz tərəfinə çəkərək Kürdüstandakı demokratiyanı və bizim haqlarımızı pozmaq istəyir. Nədənsə türk dövləti istəmir ki, türkman xalqı öz azadlığını sürdürsün. Çünki bundan 5 il əvvəl, 2002-ci ildə Türkiyə dövlətinin rəhbərliyi ilə müxalif türkmanlar Səddam Hüseyn rejimini Kürdüstana gətirmək və Kürdüstanda olan demokratiyanı dağıtmaq istədilər. Türkmanların illər boyu əldə etdiyi haqlarını əllərindən almağa çalışdılar. Çünki Türkiyədə yaşayan kürd qardaşlarımız 25-30 milyondur. Amma heç bir demokratik haqları yoxdur. Türkiyə dövləti Kürdüstan hökümətinin azsaylı xalqlara verdiyi demokratik haqlardan narazıdır. Çünki burda olan demokratiya oraya da təsir edə bilər və Türkiyə Kürdüstanındakı kürd xalqı da öz haqlarını tələb edirlər. Ona görə də Türkiyə Kürdüstan hökumətini və demokratiyasını tanımaq istəmir.İstəmir qoy istəməsin, ancaq qanla əldə etdiyimiz azadlığı heç vaxt əldən verməyəcəyik.Biz türkmanlar Türkiyəni özümüzə vəkil etməmişik.

**- Azərbaycan hökumətinə, Azərbaycan xalqına nə çatdırmaq istərdiniz?**

- Bizim dilimizlə azəri dili eynidir. Biz Azərbaycan hökümətindən, Azərbaycan dövlətindən ərklə tələb edirik, xahiş edirik.Onlarla dövlətin nümayəndəliyi Kürdüstanda açılıb. Qoy hörmətli prezidentimiz İlham Əliyev cənabları Ərbildə Azərbaycan nümayəndəliyini açsın, biz azərilə-türkmanlara sahib çıxsın.

Kürdüstan hökuməti ilə siyasi, ticarət və mədəni əlaqələr yaratsınlar. Çünki Azərbaycanda neçə minilliklərdir ki, kürdlər və azərilər bir yerdə mehribancasına yaşadıqları kimi, burada da türkmanlarla kürdlər birgə yaşayırlar. Biz çox məmnunuq. Siz birinci şəxs olaraq Azərbaycan vətənimizdən bura təşrif buyurmusunuz, bizimlə görüşürsünüz. Biz təmənna edirik ki, bizim xahişimizi Azərbaycana çatdırasınız.

***Müsahibəni apardı: Tahir SÜLEYMAN***

**(“Diplomat” qəzeti 60-61-ci say)**

# BİZ TÜRKMANLARIN SALAMINI AZƏRBAYCANA ÇATDIRIN

## Müsahibim Kürdüstan Parlamentinin üzvü, millət vəkili Səid bəydir

-Mən çox sevinirəm ki, Kürdüstan parlamentində türkman deputatları da var. Bu sevindiricidir. Səid bəy, bizi qəbul edib "Diplomat" qəzetinə müsahibə verdiyiniz üçün təşəkkür edirəm. Və sizə müvəffəqiyyətlər arzulayıram.

**-Səid bəy, Səddam Hüseyn dönəmində siz türkmanların hansı haqları var idi, xahiş edirəm bu barədə oxuculara məlumat verəsiniz?**

-İrakda yaşayan bütün xalqlar, şiddətli basqı altında idilər. Heç bir insani hüquqlarımız yox idi.Nə siyasi, nə mədəni,nə iqtisadi haqqımız olmamışdı. O də-



rəcəyə çatmışdır ki, türkman dilində danışmaq qadağan olmuşdu. Əlәlxüsus Kərkük də və Dilafər də.Onların evləri hər zaman nəzarətdə və basqı altında idi. türkmanları hər şeydən məhrum etmişdilər. Türkmanların, türkman kimi yaşamağa haqqı yox idi. Yetmiş iki il, bu millət basqı altında yaşadı. Çox şükürlər olsun ki, türkman anaları öz övladlarına türkman dilini unutdurmadılar.Bir millətin qəzeti olmasın, radio və televiziyası olmasın, millət öz mədəniyyətini necə saxlaya bilər? Biz türkman dilini, mədəniyyətini, qoruyub saxlayan ailələrə öz təşəkkürümüzü bildiririk.Lakin 1991-ci ildən sonra Məsud Barzani və Calal Təlabani cənablarının rəhbərliyi altında sistem tamam dəyişdi. Şimali İraqda, yeni Kürdüstanda kürd xalqı ilə bərabər, bütün azsaylı xalqlar birgə mübarizəyə qalxdılar. Və Səddam ordusunu Kürdüstandan qovdular. Orda yaşayan millətlər birləşərək Kürdüstan hökuməti və Parlamentini yaratdılar. Bütün azsaylı xalqların nümayəndələri bu hökumətdən faydalandı, eləcə də parlamentdə azlıqların nümayəndələri özlərinə yer tutdular. Kürdüstanda yaşayan bütün xalqların mədəni haqları verildi, eləcə də türkmanların. Bunu xüsusi ilə qeyd etmək istəyirəm ki, yığıncaqların birində, Məsud Barzani cənabları çıxışında qeyd etdi:"kürd xalqı uzun illərdi inhisarçı dövlətlər tərəfindən əziyyətlər çəkib və çəkir.Mən Məsud Barzani olaraq heç vaxt razı olmaram ki,Kürdüstanda yaşayan heç bir xalq biz çəkdiyimiz müsibətləri çəksin. Əlәlxüsus qoy türkman xalqı bilsin ki, əgər heç kəs olmazsa türkmanların haqlarını müdafiə etsin, mən Məsud Barzani hər zaman türkmanların haqlarının müdafiə edəcəyəm". Onun bu çıxışı bütün xalqlar kimi biz türkmanları çox məchub etdi, sevindirdi. Dogrudan da Məsud Barzani cənabları Kürdüstan bölgəsinə prezident seçilən zaman, andiçmə mərasimində bu ifadələri təkrar etdi, siz də buna şahidsinis.

**-Səid bəy Məsud Barzani cənablarının vəd etdiyi imtiyazların hansına nail olmusunuz?**

-Çox şükürlər olsun ki, Kürdüstan hökuməti Səddam quruluşunun tam əksinə olaraq demək olar ki, bizim bütün imtiyazlarımızı vermişdir. Belə ki, 120-dən artıq məktəbimiz,altı televiziya kanalımız, beş radio yayım evimiz, on dörd mədəniyyət mərkəzimiz, on yeddi siyasi partiyalarımız var. Hələ bizə verilən ticarət mərkəzlərini demirəm. Kürdüstan Parlamentində dörd türkman parlamentarları var. Lazım olanda türkmanlarla bağlı məsələləri parlament iclaslarına qoyuruq və istəyimizə nail oluruq.Kürdüstan hökumətində iki nəfər nazirimiz var. Bizə elə gəlir ki, gələcəkdə nazirlərimizin sayı da artacaqdır. Çünki bəzi qüvvələr, İraq türkmanlarını bir neçə yerə parçaladılar. İndi o parçalar həqiqəti anlayaraq yavaş-yavaş birləşməyə başlayıblar. Üzümüzə gələn seçimlərdə, yəqin deputatlarımızın və nazirlərimizin sayı mütləq artacaq.

**-Kürdüstan hökuməti tərəfindən türkmanlara qarşı bir təzyiq varmı?.**

-Elə bir türkman ailəsi tapa bilməzsən ki, onlara təziq ola. Əgər hər hansı bir anlaşılmazlıq olarsa, həmən danışıqlar yolu ilə məsələ həll olunar. Kürdüstan hökuməti mən deyərdim ki, azsaylı xalqlara kürd xalqına nisbətən daha çox üstünlük verir.Bəzi məsələlərdə bizə daha çox önəm verirlər. Ona görə ki,kürd xalqı istər Səddam Hüseyn tərəfindən istərsə də ondan əvvəlki quruluş zamanı çox əziyyətlər, faciələr yaşayıblar.Ona görə də onlar heç vaxt razı olmazlar ki, Kürdüstanda yaşayan başqa xalqlar onlar çəkdiyi, yaşadığı faciələri yaşasınlar.

Kürdlər bu bölgədə hakim bir qüvvədir. Burda yaşayan xalqlar bu hökuməti və bayrağını qəbul edib bu bayraq altında qardaşcasına yaşayırlar.

**-Şimali İraqda yəni Kürdüstanda türkmanlar üç yerə parçalanıb.Nəyə görə, bunun səbəbi nədir?**

-Tahir bəy 1995-ci ilin aprel ayında Türkman Cəbhəsi evi quruldu. Və mən o təşkilatda dairə başqanı köməkçisi idim. İşimiz çox gözəl gedirdi.Siyasətimizi buranın siyasətinə uyğun aparırdıq. Ancaq çox təəssüflər olsun ki,Türkiyə dövləti bizi bu vəziyyətə saldı.Türklərlə soydaşıq. Mənim xüsusi siyasətim var.

Birinci mən İraq türkmanıyam, buranın qanunlarına uymalıyam.Türkiyənin qismən bizə yardımı oldu. Lakin onun Şimali İraqdakı siyasəti çox yanlış idi.O, istəmirdi biz kürd qardaşlarımızla anlaşaq.Türkiyə istəyirdi öz siyasətini burda yeritsin, bunlar çox yanlış idi. Biz onlara dəfələrlə anlatdıq,lakin onlar anlamadılar. 2000-ci ildə Ərbildə Türkmanların qurultayı keçirildi və Türkmanların cəbhə başqanı seçildi.Mən siyasi büronun üzvü idim.Türkiyə dövləti israrla bizdən iki şeyi tələb edirdi.

**1)Kürdüstan ifadəsini işlətməyək, Kürdüstan adını dilimizə gətirməyək.**

**2)Kürdüstanın bayrağına ehtiram etməyək.**

Necə olur qardaşım, bir futbol komandasının bayrağına ehtiram edilsin.Bu dövlətdir, siyasi partiyadır özünün bayrağı var. Kürdüstan dövlətinin, hökumətinin bayrağı var. Burda yaşayan xalqlar ona ehtiram göstərməlidir.

Kürdüstanda təkcə kürd xalqı deyil eyni ilə türkman, aşuri, kıldani,yezidi,ərəb və bir sıra başqa xalqlar yaşayır.Və Kürdüstan hökumətinin prezidenti Məsud Barzani cənablarına partiyasına, partiyasının bayrağına və Kürdüstan bayrağına ehtiramla yanaşırlar. Eləcə də Məsud Barzani cənabları burda yaşayan xalqlara və onların simvolik bayraqlarına çox ehtiram və hörmətlə yanaşır. Bəs biz niyə ehtiramla yanaşmayaq? Burda yaşayan hər bir xalqın borcudur ki,ölkə rəhbərliyinə və bayrağına ehtiram etsin.Mələsəf, biz Türkiyənin bizə qarşı yönəltdiyi siyasətin qurbanı olduq. Çox təəssüflər olsun. O,siyasət nəticəsində kürd xalqını biz özümüzə düşmən etdik.Bütün bunlara baxmayaraq kürd xalqı öz dostluq əlini bizə uzatdı. Bizə qarşı böyük humanistlik etdi. Heç bir şey olmamış kimi, qardaşcasına bizə yanaşdı.Təkcə Ərbildə 14 türkman məktəbimiz var. Ümumiyyətlə Kürdüstanda yüzdən artıq orta məktəblərimiz var.Ona görə də cəbhə yavaş-yavaş parçalandı və üç yerə bölündü.Rəhbərliyi Ərbildən Kərkükə apardılar.

**-Nə üçün apardılar səbəb nə idi?**

-Səbəb onda gördülər ki, bəs Ərbildə türkman azdır Kərkükdə çoxdur. Onu bəhanə edərək Kərkükə apardılar. Ərbili ehmal etdilər, bu da çox yanlış idi. Mən onlara anlatmağa çalışdım. Qardaşım, bu gün sən Kürdüstana KDP və YNK-i tanımasan, ehtiram etməsən bu bölgə Kürdüstan kimi tanınan deyil?. Sultan Əbdül Həmid dönəmində də bu bölgə Kürdüstan bölgəsi adlanırdı. Biz hər zaman kürd xalqı ilə qardaşcasına yaşamışıq.Kürdüstan Səddam dönəmində türkman xalqının və siyasətçilərinin xilas yeri olub.Tarixən biz bu bölgədə birgə yaşamışıq və yaşayacağıq.Siz necə Azərbaycanda birgə yaşayırsınız.

**-Mən bir neçə partiya rəhbərləri və deputatlarla söhbət zamanı, onlardan soruşdum bu parçalanma sizi zəif salmadımı? Əgər bir olsaydınız parlamentdə və nazirlikdə çox yer əldə edə bilməzdinizmi? Bu birliyi yaratmaq olmazmı?**

-Sonu belə olmalıdır. Bütün milli partiyalar mütləq birləşməlidir.Həqiqətən çox gözəl deyiblər qüvvət birlikdədir.Düzdür mənim əslim azəridir.Mənşəyim türkdür.Amma mən İraq türkmanıyam qoy bu xüsusiyyətlər məndə qalsın.

**-Sizin bizim hörmətli dövlət başqanımız İlham Əliyev cənablarına,Azərbaycan parlamentinə, azərbaycan ziyalılarına və azərbaycan xalqına nə deyəcəyiniz və nə istəyiniz var?**

-İstədiyimiz odur ki, bizə hər zaman yardım etsinlər. Çünki, bizim əslimiz azərbaycanlıdır. Nəyə görə Türkiyənin, İranın,Ərəb ölkələrinin, Rusiyanın bir sıra Avropa dövlətlərinin, Çinin, Koreyanın nümayəndəlikləri Ərbildə olsun və Kürdüstan hökumətinin nümayəndəliyi o,ölkələrdə olsun, Azərbaycanda olmasın. Və ya Azərbaycan nümayəndəliyi Ərbildə olmasın. Nə üçün o ölkələrdən Ərbilə təyyarələr gəlsin Azərbaycandan gəlməsin?

Biz artıq dərəcədə xahiş edirik. Azərbaycan hökuməti ilə Kürdüstan hökumətlər arası ictimai, siyasi, iqtisadi və mədəni əlaqələr yaransın. Ölməz Ümumilli liderimiz Heydər Əliyev cənablarının ənənəsi davam etdirilsin.İlk öncə mədəni əlaqələr yaransın və əlaqələr bərpa edilsin Bakı- Ərbil, Ərbil -Bakı təyyarə reysləri açılsın. Biz türkmanların qardaşlıq salamlarını bütün Azərbaycan xalqına çatdırın!.

**Müsahibəyə görə çox sağ olun.**

**Siz də sağ olun.**

**Tahir Süleyman**

## Gotinek di 80 Saliya Rojbûna Yilmaz Guney de

***"..Ta ku mirov li jiyanê be, wê kul û xem, evîn û hezkirin pîre berdewam bin. Zana be an nezan be, her wê ew barhilgirê kul û xeman û evîn û hezkirinê be.. Min di filmên xwe de hewil daye ku, ez kul û xeman, evîn û hezkirinê bigihînim hev.. Gelek kes van tiştan ji hev dernaxînin..".***

***Yilmaz Guney***

***Yilmaz Guney kî bû, çi bû û çi ji gelê xwe re pêşkêş kiriye ta ku em wî bibîr bînin?***

Yilmaz Guney kurdekî resen bû.. Derhênerekî cîhanî bû.. Wî, di rojên teng û dijwar de, perîşanî, zulm û zora gelê xwe di rêka fîlmên xwe de ji xelkên cîhanê re da xuya kirin û eşkere kir.. Di filmên xwe de bi serbilindî kurdîtiya xwe diyar dikir..

Ew di 1ê nîsana 1937an de li gundê (Yenîce), herêma Adenê hatiye dinyayê. Navê bavê wî Hemîd û diya wî Gulê bû, ji



xelkên Zaza bû. Di malek feqîr û perîşan de mezin bibû.. Di biçûkaniya xwe de gelek kar û barên têvel kiribûn; ji avdana bexçan ta bi sewterîbûna kolanên bajara.. Pêre jî hez xwendin û nivîsandinê kiriye.. Piştî ku lîse qedandiye bi çend hevalên xwe re du kovar (Dorok û Boran), bi zimanê tirkî weşandine. Ew derhênerê gelek filmên bedew e û 17 xelat li dor filmên xwe wergitine. Belê di sala 1982an de bi beşdarbûna wî di festîvala (Kan)ê de li Fransayê bi filmê (YOL), Xelata zêrîn stand û bi wê xelatê navê wî û perîşaniya gelê kurd di dinyayê de belav bû.

Ji filmên wî: Kerî, Seydxan, Belengaz, Kesên Revyayî, Bav, Kovî, Talî.. û gelek filmên din hene.. Di sala 1983an de filmê xwe yê dawî bi navê (DÎWAR), bi alîkariya hikumeta Fransî li bakurî Fransayê kişandiye.

Hêjaye gotinê ku, ew jî yeke ji wan kesên ku di sibata 1983an de (Enistîtuya Kurdî) li Parîsê damezirandine, wek; Cegerxwîn, Qenatê Kurdo, Osman Sebrî, Tewfîq Wehbî, Remzî, Dr. Nûreddîn Zaza, Haciyê Cindî û Ismet Şerîf Wanlî.

Ew di 9ê Êlûna 1984an de li nexweşxaneyeke Parîsê koça dawî kir. Bi rêûresmekî bedew ji rex hin wezîrên Ferasnî, cemawerekî mezin ji Kurd û Fransîzan ew li Parîsê di goristana (Laşaz) de, li kêleka van herdu helbestvanên Fransî yên navdar; Charles Baudelaire û Alferd de Musset hat veşartin.

Ma nehêja ye ku em her sal wî bibîr bînin û navê wî li cihekî bilind deynin?

***Konê Reş***

***Qamişlo, 01.04.2017***

# İRAQDA BİZ TÜRKMANLARIN MİLLİ VARLIĞI CƏNAB MƏSUD BƏRZANİNİN SAYƏSİNDƏ TANINDI

## Müsahibim, Kürdüstan Federativ hökumətinin parlament üzvü Karxi Nəcməddin Altıbarmaqdır

Biz türkmanlar faşist Səddam dönəmində yox olmaq ərəfəsində idik.

2003-cü ildə cənab Məsud Bərzani türkmanların milli mənsubiyyətini qırmızı qələmlə yazaraq, İraq parlamentinin gündəminə qoydu və biz türkmanları millət kimi İraq konistitusiyasına saldırdı. Buna görə biz türkmanlar hər zaman Məsud Bərzani cənablarına minnətdarıq. Çünki, o Kürdüstan bölgəsində bütün milli imtiyazlarımıza imkan tanıdı və lazımı maliyyə dəstəyi verdi.

**Karxi bəy, biz keçən il İraqa gələrkən, bir sıra dövlət nümayəndələri və türkman partiya rəhbərləri ilə görüşlərimiz olmuşdur. Özünüz də görürsünüz bu görüşlər haqqında "Diplomat" qəzetində ətraflı məlumat vermişik. İstəyirik ki, siz parlament üzvü və türkman xalqının nümayəndəsi olaraq qəzetəimizə müsahibə verəsiniz Azərbaycan oxucuları Kürdüstanda baş verən ictimai-siyasi hadisələrdən xəbərdar olsunlar və ilk sualımız.**

**- Səddam Hüseyn zamanında türkmanların hansı haqları var idi?**

- İlk öncə siz xoş gəldiniz, gəlişinizlə bizə şərəf verdiniz.Türkman olaraq İrak Kürdüstanında yaşamaqdayıq. Kürd qardaşlarımızla bir yerdə xoş həyat sürürük. Sizin sorduğunuz suala gəlincə, biz Səddam dönəmində təkcə türkmanlar deyil,- burda yaşayan heç bir xalqın hüquqları yox idi. Özəlliklə türkman millətini ərəblər İrak vətəndaşı kimi qəbul etmirdilər. Kərkükdə, Altın körpüdə,Bağdadda türkman millətini zorla ərəbləşdirirdilər.Ərəb yazılmayanların isə evlərini, dükanlarını, əkin sahələrini hətta arvad uşaqlarını əlindən alırdılar.Türkmanlar namus dərdindən, ya ərəbçiliyi qəbul edir ya da başqa ölkələrə köçürdülər.

Çox şükürlər olsun ki, 1991-ci ildən Məsud Barzani və Calal Tələbani cənablarının rəhbərliyi altında, Kürdüstanda yaşayan bütün azsaylı xalqlar birləşərək Səddam ordusunu qovub çıxartdılar. İndi Kürdüstan hökuməti çox böyük demokratik sistem əldə edərək, bölgədə əmin-amanlıq yaradıb. Kürdüstan hökuməti orda yaşayan bütün xalqlara o cümlədən,türkmanlara geniş demokratik haqlar vermişdir.

**-Karxi bəy, istərdik, özünüz haqqında oxuculara məlumat verəsiniz?**

-Mən, Karxi Nəcməddin Altıbarmaq,1967-ci ildə Ərbil şəhərinin Ərbil qalasında dogulmuşam, Səlahəddin universitetinin məzunuyam.- Türkman ailəsində dünyaya göz açdım,türkman olaraq da dünyaya göz yumacağam. Siyasi həyata ilk olaraq, Türkman Qardaşlıq Ocağında başladım. Ərbildə tək siyasi qurum o idi.1990-cı ildən sonra, siyasi partiyalar meydana gəldi və biz partiyalarda çalışmağa başladıq. Lakin türkman cəbhəsinin siyasəti ilə, bizim siyasətimiz uyğun gəlmədi və cəbhədən ayrıldıq. Özümüzə yeni siyasi türkman partiyası yaratdıq. Partiyanın idarə heyəti Ərbildədir və partiyamızın adı Türkman Demokratik Hərəkatıdır. Biz Kürdüstanın qanunları çərçivəsində siyasətimizi yeridirik və bu demokratiyadan çox razıyıq.Mən burdan bütün Azərbaycan xalqına salamlarımı göndərirəm, biz eyni qanı daşıyırıq və dilimiz, inancımız eynidir. Biz Kürdüstanda İrak vətəndaşı olaraq, İrak və Kürdüstan qanunlarına tabe olmalıyıq və bu qanunlara hörmətlə yanaşmaqla öz haqlarımızı əldə etmişik.

Bildirmək istəyirəm ki, İrak tarixində türkmanlar Kürdüstan demokratiyası dönəmində əldə etdikləri azaldığa, heç vaxt sahib olmamışdılar. Ərbildə və başqa türkmanlar yaşayan yerlərdə türkman dilində məktəblərimiz var.

Kürdüstanın qanunları çərçivəsində bütün xalqlar kimi, türkman xalqı da istənilən qədər siyasi partiya aça bilər. Bizim altıya qədər telekanallarımız, ondan artıq qəzet və jurnalımız,bir neçə radio kanallarımız iyirmi dörd saat fəaliyyətdədir.

**-Türkmanların Kürdüstanda neçə məktəbləri var?**

Kürdüstanda 100-dən artıq türkman dilində orta məktəblərimiz, eləcə də 20-dən çox mədəniyyət mərkəzimiz var.

**-Türkman mədəniyyət mərkəzlərinə, siyasi partiyalara, qəzet və jurnallara, radio və televiziya kanallarına Kürdüstan hökuməti tərəfindən maddi yardım olunurmu?**

-Kürdüstan hökuməti, bütün azsaylı xalqlara etdiyi yardımı, türkman xalqına da edir. Onun üçün biz Kürdüstan hökumətinə minnətdarlığımızı bildiririk.

**-Mən parlament iclasında olarkən gördüm ki, üç türkman qardaşımız və bir bacımız Kürdüstan parlamentinə üzv seçilib. Parlamentə üzv seçildiyinizə görə sizi və yoldaşlarınızı səmimi qəlbdən təbrik edir, sizə uğurlar arzulayıram. Sizin parlamentə üzv olmağınız necə baş verdi?**




-Təbii, biz partiyamızı qurduğumuz zaman,iki böyük siyasi təşkilatımız tərəfindən təklif gəldi. Bizim iki yolumuz var idi. Ya tək öz partiyamızla seçkilərə getmək, ya da mövcud olan siyasi partiyalarla koalision şəkildə birləşmək idi. Biz koalisya yolunu seçdik. Gələcəkdə partiyamızı genişləndirərək ayrıca seçkilərə gedəcəyik. Bizə elə gəlir ki, bundan daha artıq deputat təmsilçimiz seçiləcəkdir. Buna əminik.

**- Səddam dönəmi ilə Məsud Barzani höküməti arasında nə fərq görürsünüz?**

-Təbii, müqaisə olunmayacaq fərq var. Səddam Hüseyn sistemi ərəbləşdirmə, assimliasiya etmə siyasəti idi. Amma hörmətli Məsud Barzani cənablarının sistemi demokratik bir sistemdir. Biz türkmanlar olaraq, sistem içində böyük demokratik haqlara malikik,bütün insani haqlara sahibik. Lakin Səddam dönəmində bu haqların heç birinə sahib deyildik.

**-Sizin Azərbaycanın prezidenti hörmətli İlham Əliyev cənablarına, azərbaycan parlamentinə, azərbaycan ziyalılarına və azərbaycan xalqına nə deyəcəkləriniz var?**

Bi navê Newrozêve girêdayî gellek lêgend û cîrok hatine gotinê. Ji van lêgêndan yek jî bi nave hedad ê engal Kawayêva girêdayîye. Navê Kawa li Kurdistanê sembola azadîyêye. Li Kurdistanêda lêgend weha destpêdibe: wextekî li Kurdistanêda bi nave Dehoq hukumdarekî zalimî, bê bext, bê wîcdan hebûye. Ew gellekî qeddar bûye, hertim bobelat anîye li serê gelê Kurdistanê. Rojekî li ser mile vî kujerî du damarê wek mer şîn dibin. Çiqas hekîm û loxman derman çê dikin ku evî hukumdarî devxwîn ji vê xezebê xilazkin. Lê car lê nedibû. Dawîyêda hekîm û loxman dicivin biryar dikin ku hero mêjûyên du xortên kurd bidine wan meran ku zirarê nedin hukumdar û wî xeza nekin. Wê rojê şûnda hero du xorta dukujin mejûyê wan didin van mera. Binelî, gundî di dest wî zalimî tengezar dibin.

Rojekê dîsa mirovên wî kujerî tên ber derê Kawa ewladê wî dawîyê dixwazin. Kava mirovekî hesinkar bû, ewî bi hesina mirov çêdikir. Kawa heyşt zarê xwe qurbana Dehoq dabû. Lê vêcarê yê dawîyê ê neha nade. Miqabilî Dehoq ê zalim û bê xweda bê wîcdan cînar û gundîyan beşdar dike sozê xwe dikin yek êrîşî li ser qesira wî dikin. Kawa bi çakûçê xweva sere Dehoq ê xwînmêj diperçqîne û wî dikuje,leşkerê wî tarmar dikin. Kawa qesira wî zulumkarî de rûdinê dibe hukumdar. Gundî hevdu dicivin Kawa dibêje - îro şûnda li welatê me wê xwîn nerije, kesek ê sîtem û zorê nebîne, emê dewletek, jîyanek nû serrastkin, agiran vêxin, govendan bikşînin, bila roja îro-bîst û yekê adarê roja cejnêbe, roja undabûna zordestîyêbe, destpêbûna emrê şa û aza be, bila rênîşa azadîyêbe NEWROZ...

Ev lêgend ji kûraya dîrokê tê. Lêgêndêda rastî heye. Qewimandin li ser rastîyê, heqîyê hatîye efirandin. EW rastî, buyer îro jî li ser axa Kurdistanê didome. Gel dijî merê çar ser şer dike. Geç û xortên niştimanê bi laşên xwe agirê Newrozê gur dikin û ronayê,azayê di gelê bindest û berdest ra tînin.

Îro agirê Newrozê dilê hemû kurdê welatparêz de vêdikeve û zûtirê li welatekî serbixwe û azadda agirê Newrozê yê ronîbe, ev agir ji bo kurda sembola jîyanek serbest û serbilinde.

Belê Kurdistan bi xwîna şeîdanva ava dibe û em her kurdên bi namûs şerefeke mezin dikşînin, serkeftin dixwazin û dibêjin – «Heta dibî çêleka çil (40) salî bibe boxê rojekê» an jî «Mirina bi şeref ji emrê bindest çêtire».

Îro em bi ruhê xwe, bi ramanên xwe, bi nefesa xwe, bi xwîna xwe êrîşî li ser merê çar ser dikin, em rêça KAWA didomînin. Heqê kurdan tune vî şerî bidin der. Hesreta me, daxwaza me, ola me, bawerîya me Kurdistane. Kurdistan gazî dike, hîvî dike, gelê kurd xwe hertim pêş dixe, jîyanêra dimeşe û dîroka xwe bi xwîna xwe dinîvsîne. Bi bawerîke mezin jîyanek bi şeref,bi sîyanet didomîne, çandek nûjen diafrîne, li dîroka mirovahîyê de belgeke nû vedike, belga wekhevîyê, qehremanîyê û vê belgeyê bi xwîna xwe a sorva dixemlîne, belê kurd îro cejna azadîyê li qadada pîroz dikin, nêzînkî armanc û daxwazên xwe ên tewrebilind dibin. Agrê Nevrozê heya kurd hene venamire yê bişuxule. Ev agir bê şik ê bibe helebêtî (meşel) li welatê şeîdan de. Em kurd bi bawerî hîvîdarê wê roja aza a bi rêzin...

**EW ROJÊ BÊ.**

Ez bawerim ew rojê bê
Ew qezenca şeîdane
Hêsrên cavên dayikane
Ew hesret û armanca milyonane.

Ew roj bawerîya Mezlûm Doxan
Daxwaza Rewşen, Alkan
Rênîşa şeîdan
Ez bawerim ew rojê bê
Ew hesreta gelê meye
Ew xelata şerê meye
Mizgîna şeîdane

Ew rojeke aza nuhe
Ew rojeke pir bi rêze
Ew rojê bê........

Newroz pêşeroja kurdane.

Newroz ji bo gelê kurd cejnek dirokîye û mecala çaresarkirina pirsgirêkane. Newroz ji bo mirovên kurd jîyanek bi wete û bi rûmete.

Newroz dîroka çarenûsa kurdaye.

Newroz ji bo kurdan vejîna safîyê, biratîyê, wekhevîyê, azadîyê, yekbûna gelan, lihevhatinê, aşîtîyê, lêborînê, çewsandina zulm, zorê, koletîyê û dîdema pêşerojek ronîye.

Newroz salnama azadîya gelê Kurdistanêye, zindîbûna suruştê û gelên mezlûme.

**NEWROZ** sembola berxwedana jîyanêye...

**NEWROZ** sembolaa edaletê û rastîyêye, daxwaz, armanc, xastek û nêt meramên qencin ji bo mirovan.

Newroz dîroka yekbûn, berxwedan û altindarîya kurdane...

# Demîrtaş, Tûncel û Zeydan dest bi girêva birçîbûnê dikin

Hevserokê HDP'ê Selahattîn Demîrtaş, Hevseroka DBP'ê Sebahat Tûncel û Wekîlê Colemergê Abdûllah Zeydan sibe wê dest bi girêva birçîbûnê bikin.

Demîrtaş û Zeydan ji Navenda Giştî ya HDP'ê re mesaj şandin û wiha gotin:

"Ji ber ku Midûrê Girtîgeha Edîrneyê xwe nade ber diyalogê, bi rengekî dij bi hiqûqê tevdigere, kiryarên li derveyî mirovahiyê li ser girtiyên din ferz dike û ji bo bidawîbûna grevên birçîbûnê yên bi rojan e dewam dikin ti gavek ji bo başiyê navêtiye, em jî ji roja Înê û pê ve dikevin greva birçîbûnê. Em bang li raya giştî dikin ku haya xwe ji grevên birçîbûnê û binpêkirina mafên mirovan ên li girtîgehan hebe û bi berpirsyarî rabe."

**Tûncel jî tevlî grevê dibe**

Hevseroka Giştî ya DBP'ê Sebahat Tûncel jî ragihand, ku ew jî dest bi greva birçîbûnê dike.

Di peyama Hevseroka Giştî ya DBP'ê Tûncel de hat gotin, "Grevên birçîbûnê, ku ji bo rakirina tecrîda giran a li ser Birêz Ocalan, destpêkirina diyalog û danûstandinê, bidawîkirina binpêkirina mafên mirovan ên li girtîgehan û qedandina zextên li gundan bi rengekî bêdembêdorveger li girtîgehan hatin destpêkirin, di asteke krîtîk de ne. Gelekî girîng e ku rêxistinên mafên mirovan, hêzên demokratîk, partiyên siyasî û gelê me li pêşberî grevên birçîbûnê yên li girtîgehan bêdeng nemînin û ji bo bersiv ji van daxwazên demokratîk re bê dayîn, bala raya giştî ya demokratîk bikişîne ser mijarê. Di navbera 1-5'ê Nîsanê de ez ê tevî komek ji hevalên xwe, ji bo bersiv ji van daxwazan re bê dayîn, li Girtîgeha Hejmara 9. a Sîlîvriyê bikevin greva birçîbûnê."



***PUKmedia***



**Ədalət Əyyub oğlu Bədirxanov**

## ATƏŞ - 2016
## HƏR GÜLÜN BUDAĞINDA

Bir gül açdı bu səhər,Qarabağ torpağında,
Şəhid qanı göründü, hər gülün budağında.
Bir ağacda nə qədər,tam açılmış qanlı gül,
Neçə dənə şəhid var,hər gülün budağında.

Dedilər döyüş gedir, səs yayıldı, gələn var,
Ağlamasın analar, məğrur dursun atalar,
Güllə dəyən zabitlər, neçə əsgər şəhid var,
Susdu nişanlı qızlar, hər gülün budağında.

İlk döyüşdə dağ aldın, tutdun Lələ təpəsin,
Hələ zəfər arxada,düşmən çox sevinməsin.
Hər savaşda elə vur, baş-gözü səpələnsin,
Qanı görsün dığalar, hər gülün budağında.

Bu vətən sizinkidir, yurd sənindir əsgərim!
Uf da demə düşmənə, üz başını əsgərim!
Torpağa yaz adını, ey qəhrəman əsgərim!
Şəhid qani gül açar, hər gülün budağında!

Bir kərə hücum deyib çaxmağını saxarsan!
Hazırlanmış hücumlalapLaçına çatarsan!
Vətən - elsavaşındabirdən şəhidolarsan!
Tikanlardagülaçar, hərgülünbudağında!

*01-04.04.2016.*

### AZƏRBAYCAN

Ayağa qalx, Azərbaycan!
Fəda olsun, sənə bu can!
Olum yenə, sənə qurban!
Qoyma geri qaça bir can!
Azərbaycan, Azərbaycan!

Torpaq azad olmayıncan!
Şumla topla,qir sonacan!
Qıyma qala bir soxulcan!
Qoyma geri qaça bir can!
Azərbaycan, Azərbaycan!

Aman vermə sonunacan!
Son qələbə çalmayıncan!
Boşa atma, sağ qala can!
Qoyma geri qaça bir can!
Azərbaycan, Azərbaycan!

Təlim keçən ordumiz var!
Xalqın bil ki, bir sözü var!
Vətən varsa ölüm də var!
Qoyma geri qaça bir can!
Azərbaycan, Azərbaycan!

Yetər artıq,dünya görsün!
Bircə dəfə haqq öyünsün!
Sübh tezdən axşamacan!
Qoyma geri qaça bir can!
Azərbaycan, Azərbaycan!

Yol sənindir,Azərbaycan!
Sənə dedik, neçə qurban!
Yaşa vətən, Azərbaycan!
Səninləyəm, Azərbaycan!
Azərbaycan, Azərbaycan!

### ÇIRAQLI
**kəndi Laçın rayonu**

Kəndin qədim yurd yeri var,
Hər tərəfi, çox füsunkar.
Bu yerlərdə, bir oba var.
Qoynundadır, dağlarımın.

Burda Bədirxan daşı var.
Üstündə qan yaddaşı var.
Yuya bilmir axan sular
Selləri də, dağlarımın.

Belə bir el məsəli var.
İgid ölər, adi qalar.
Analara həmdəm olar,
Göz yaşları, dağlarımın.

Üst tərəfi, sağı, solu,
Çaxmaq daşı, elat yolu,
Alt tərəfi, daşla dolu,
Bir qaladır, dağlarımın.

Kəndin üzü çaya sarı,
Divarı, Hilal hasarı.
Yol kənarı bulaqları
Axıb gedir, dağlarımın.

Hər dərənin öz çiçəyi,
Hər çiçəyin öz ləçəyi,
Dumandan, çəndən, örpəyi
Özü seçir, dağlarımın.

Yol boyu quşların səsi,
Bulaqların zümzüməsi,
Dərələrdə çayın səsi,
Nəğməsidir , dağlarımın.

Top daşı, yol nişanəsi
Gər xaç kimi var meşəsi.
Bir yanda Şükür tələsi,
Xonçasıdır, dağlarımın.

Orta burun, Orta dərə,
Bu yerlərdə neçə kərə,
Sürüşüb dəymişəm yerə,
Sinəsində, dağlarımın.

Çalmalarda ot çalmışıq,
Tapıl-tapıl daşımışıq,
Çox hallarda yarışmışıq,
Yollarında, dağlarımın.

Çox yamaclar əkilirdi.
Arpa, buğda, səpilirdi
Saralanda biçilirdi,
Zəmiləri, dağlarımın.

Pir bulağı, suyu sərin.
Nəbi yurdu, qantəpərin,
Dərmanıdır dərdi - sərin
Kəklik otu, dağlarımın.

Arıları çəmənlərdən,
Bal daşıyır çiçəklərdən.
Doymaq olsa bu yerlərdən,
Küsər yazı dağlarımın.

Gözəlləri alma yanaq,
Ərənləri, igid, qoçaq.
Kişiləri tam dar qursaq
Çox sərt olur dağlarımın.

Təzə kənd də olan yerlər,
Çox sərt deyil Gər xaç qədər.
Bura qədim abidələr,
Məskənidir, dağlarımın.

Bir burundu iki dərə,
Bölünübdü iki yerə.
Albanlardan son xatirə,
Daşları var dağlarımın.

Bir dərədə Orta bulaq,
Hər tərəfi göm-göy otlaq.
Bura gələn hər bir qonaq,
Mehmanıdır dağlarımın.

Birində, Nəcəf bulağı,
Bütöv daşdır, hər qırağı.
Yoldan bir azca, aşağı,
Döşündədir dağlarımın.

Albanların məbədi var.
Çox qədim də tarixi var.
Üstündə bəzi yazılar,
Tarixidir dağlarımın.

Neçə dənə qəbir daşı,
Məlum deyil ancaq yaşı.
Hər köçənə bir baş daşı,
Özü qoyub dağlarımın.

Hər tərəfi çılpaq dağlar,
Neçə dənə çeşməsi var.
Yurdun sevən bu insanlar,
Qartalıdır dağlarımın.

Çaşır bitir hündür yerdə,
Şoşan olur zəmilərdə.
Hər nə görsən təpələrdə,
Tutmasıdır dağlarımın.

Ədalətəm, bu kənddənəm,
Bədirxanın nəvəsiyəm.
Nə qədər ki, həsrətdəyəm,
Üzü gülməz dağlarımın.

# Nameyek ji General Îhsan Nûrî Paşa (1892 – 1976) re

Xwediyê herêma Kurdava! General Îhsan Nûrî Paşa! Ezbenî li me bibûre.. Bibûre eger kêmasiyên me hebin, me efû bike, me bibexşîne.. Berî du rojan, di 25 adara 2017an de, 41 saliya koçkirina te derbas bû, ji mafê te bû




**Surye Bederkhan, The case of Kurdistan Aginst Turkey. P47 .**

ku em te bi gerimbûn bibîr bînin; gul û kulîlkan li ser gora te deynin.. Te bi zarokên xwe û nifşê nû bidin naskirin.. Lê ezbenî, ji ber gelek sedeman me xwe winda kir..! Ne ku me tu winda kiriye.. Yên wek te nayên windakirin, her û her hun di dilê welatiyên dilsoz û wefadar de zindî ne ezbenî..

Tu xwediyê herêma (KURDAVA) î, ev yek tenê besî te ye.. Me bibexşîne serwerê Kurd.. Besî me ye ku yekî weke te di nav me de hebû û te navê (Kurdava) li ferhenga kurdî zêde kir.. Besî Bedlîsê ye ku xwe bi te pesin bide.. Besî eşîra Cibra ye ku ta bi ebed bi te serbilind be.. Silav li te bin, silav li Ferzende, Biro Heskî û tev lehengên serhildana Agirî bin..

Not: Ev nexşe, di sala 1928an de ji rex Mîr Sureya Bedirxan ve hatiye hatiye çêkirin. Yê ku di wan salan de berdevkê komeleya Xoybûnê bû li Ewropa û Amerîkayê.

***Konê Reş***
***Qamişlo, 26.03.2017***

# Helbestvan Arjen Arî Dengê Ameda Kurdî bû!

Di rojbûna Arjen Arî, yekê Nîsanê derew nekir û rastgo bû.. Têde zayîna Arjen Arî xwe diyar û ew bû dengê Diyarbekir..

Erê, Arjen biharek rengîn bû, di payîzek kurt de winda bû.. Arjen Arî, xweş tov di beyarên welatê me de reşand.. Xweş berhem nivîsandin û xweş ziman ji talanên neyaran parast..

Arjen Arî; hevalê min bû.. Em hogirî hev bibûn.. Çend carekî em bi hev û din re beşdarî festîvalên rewşenbîrî li bakur û başûrî welatê birîndar bibûn.. Em bi hev re çûn geliyê Laliş, me Lalişa nûranî tewaf kir û em bi hev re bûn Hecî..

Me bi hev re sikak û kolanên Qamişlo û Amedê pîvan.. û em bi hev re çûn serdana gora Fayiq Bucaq û seydayê Cegerxwîn û me dengê xwe tevî dengê Cegerxwîn kir û got:

Min ji bo we gelek tişt
Min dîwan û hin nivişt
Gol ji avê bûye mişt
Ez nizanim çi bêjim
Heta dil ranewestî
Ez nabêjim bi sistî
Kêr gihaye ser hestî
Ez nizanim çi bêjim..

Ez jî di vê derbarê de nizanim çi bibêjim, hema ji van gotinên rehmetî Arjen Arî çetir nabînim, dema gazî quling û koçerê dike:

Qulingo!
Qulingê baskşikestî ye dilê min
Ji bin milê çepê birîn-xedar!
Evdalo, kê li me neda tivingê?
Ne ez têr geriyam, ne te têr ax xwar..
Koçerê!
Bi te re koçer bûma!
Bi te re têr bûma, birçî bûma
Girtî bûma, kuştî bûma...
Li van axan, koçerê lêêê
Bela ne penaber bûma!

Û qet ne di wê baweriyê de me ku Arjen miriye.. Arjen bi berhem û gotinên xwe her dem bi me re dijî.. Arjen zindiye.. zindiye.. Yezdanê mezin wê bi dilovaniya xwe şad bike û cihê wî bihişta rengîn be.

***Konê Reş***



***Konê Reş***

## Cejna Newrozê ye Destpêka Nû Salê ye

Cejnê Cejnê Cejnê
Xanê rok hat bejnê
Cejna Newrozê ye
Serê nû salê ye
Va dar dipişkivin
Çiya dixemilin
Bi zer û kesk û sor
Bi riçinê wek por
Çûk çivîk dixwîn in
Hêlîna datîn in
Dil lêdide bijen
Xwerist dibe bi ken
Mirov dibe rûgeş
Jiyan şêrîn û xweş.

* * *

Cejnê Cejnê Cejnê
Xello rok hat bejnê
Cejna Newrozê ye
Destpêka salê ye
Cejna ji sed salan
Roja bav û kalan
Heydê keko rabe
Bi vê rojê şabe
Em dadin agire
Ser zinar û gire
Agirê vê rojê
Nîşana Newrozê
Derenge zû rabe
Tev dostên xwe şabe.

# Kərkükdə kürd dili rəsmi dil elan olundu

İraqın Kərkük valisi Nəcməddin Kərim mübahisəli bölgələr arasında yer alan şəhərdə rəsmi yazışmalar üçün ərəb dili ilə yanaşı, kürd dilinin də istifadə edilməsini zəruri



edib. Kürdüstan Vətənpərvərlər İttifaqı (KYB) üzvü də olan Vali Kərim bütün dövlət qurum və təşkilatlarının binalarında İraq bayrağı ilə yanaşı İKBY bayrağının asılması göstərişi verib.

"Şəhərdəki bütün rəsmi yazışmaların bundan sonra ərəbcə və kürdcə yazılmasına dair qərar aldıq. Bu qərar İraq konstitusiyasına görə qəbul edilib. Bundan əlavə, Novruz Bayramı münasibətilə Kərkükdə hökumət binalarına İraq bayrağı ilə yanaşı İraq Kürd Regional Rəhbərliyi (İKBY) bayrağının da asılması meriya tərəfindən rayon məclisinə təklif olunub".

**AzNews.az**

# Bərzani kürd dövlətinin yaradılacağı vaxtı açıqladı



İraq Muxtar Kürd Vilayətində müstəqilliklə bağlı referendum bu il reallaşdırıla bilər. Bunu ABŞ-ın "Philly.com" saytına açıqlamasında İraq Muxtar Kürd Vilayətinin Baş naziri Neçirvan Bərzani söyləyib. "Artıq Bağdadla keçmiş əlaqələr mümkünsüzdür. Mosuldan sonrakı İraq Mosuldan əvvəlki İraqdan fərqli olacaq. Müstəqilliklə bağlı razılıq üçün Bağdadla ciddi danışıqlara başlamaq istəyirik. Türkiyə ilə bu məsələdə danışıqlar aparmamışıq, amma onlar bizim mövqeyimizi dinləməyə hazır olduqlarını bəyan ediblər", – deyə o bildirib.

**Axar.az**

# "Kürdlər öz dövlətinə sahib olacaq"

"İraq artıq bitdi, biz kürdlər öz dövlətimizə sahib olacağıq". Bunu Şimali İraq kürd muxtariyyətinin başçısı Məsud Bərzani Fransanın "La Stampa" nəşrinə müsahibəsində deyib.

"İraqın bütövlüyünü qorumaq istəyirlər. Amma gerçək budur ki, İraq əslində həll edilməsi qeyri-mümkün olan problemlər üzündən bölünüb. Sünnilər və şiələr 1400 ildir ki, qarşı-qarşıyadır. Bu döyüşün qurbanları isə kürdlərdir. Birlikdə həyat düsturu tapılmalıdır. Kürdüstanın müstəqilliyi bu bölgədə sabitlik meydanı yaradar. Kifayət qədər qan və ədalətsizlik gördük", - kürd siyasətçi bildirib.



"Suriya Kürdüstanı"nın yaradılması ehtimalına gəlincə, Bərzani bu fürsətin qaçdığını qeyd edib: "Çünki YPG bir çox ölkədə terror təşkilatı olaraq qəbul edilən PKK-nın yardımını qəbul etdi. YPG Başər Əsəd rejiminin köməyini qəbul etdi. Bu seçim onları bizdən uzaqlaşdırdı. Bu səhv siyasət suriyalı kürdlərin gələcəyini riskə atır".

**Publika.az**

# DKP Müstəqillik referendumu bu il keçiriləcək



DKP Politbüro üzvü Hoşyar Zebari, Kürdüstan Bölgəsinin bu il içərisində müstəqillik referandumunun reallaşdıracağını, DKP Politbüro müşaviri Arif Rüşdi isə referendumun Birləşmiş Millətlər Təşkilatının (BMT) müşahidəçiləri ilə reallaşacağını qeyd etdi. BasNews'e danışan DKP Politbüro üzvü Hoşyar Zebari " Kürdüstan Bölgəsi bu il müstəqillik referandumunun reallaşdıracaq və Kürd xalqı öz qərarını verəcək " dedi. Hoşyar Zebari, Kürdüstan xalqının çox əhəmiyyətli bir dövrdə tarixi bir qərar verdiyini də sözlərinə əlavə etdi.

DKP siyasi bürosu müşaviri Arif Rüşdi isə Kürdüstan Bölgəsinin bu il referenduma gedəcəyini vurğulayaraq, " Kürdüstan xalqının, gələcəyinə bağlı istək və niyyətini təyin mənasını verir. Referendum ediləcəyi zaman Birləşmiş Millletler (BMT) və beynəlxalq təşkilatlardan müşahidəçi istəyəcəyik " dedi. Arif Rüşdi, BMT-nin Baş katibi Antonio Guterresin Kürdüstan Bölgəsinə edəcəyi ziyarətdə bu mövzu da gündəmə gələcəyini söylədi.

**Basnews**

# Türkiyə ilə ABŞ-ın söhbəti baş tutmadı

"Financial Times" yazır ki, ABŞ dövlət katibi Rex Tillerson Türkiyə prezidenti Recep Tayyip Erdoğanla görüşündə Ankaranın Suriya münaqişəsindən tutmuş, ABŞ-da yaşayan Fethullah Gülenin ekstradisiyasına qədər bir sıra narahatlıqlarını aradan qaldıra bilməyib.

Türkiyə rəsmiləri bildirirlər ki, Donald Trump-ın prezident seçilməsinin ardınca Vaşinqtonla münasibətləri təzələməyə çalışan Ankara bu danışıqlardan məyus çıxıb.

Cənab Tillerson iki NATO müttəfiqini bir-birindən aralı salan əsas məsələlərə - ABŞ-ın Türkiyənin gözündə terrorçu olan Suriya kürdlərinə dəstəyi, Ankaranın çevriliş cəhdinin arxasında durmaqda ittiham etdiyi müsəlman vaiz Fethullah Gülen-in ekstradisiyası və nəhayət Türkiyənin dövlət banklarından birinin vəzifəli direktorunun bu həftə New York-da həbs edilməsinə çox zəif reaksiya verib.

Məqalədə deyilir ki, tərəflər arasındakı gərginlik Rex Tillerson-un türkiyəli həmkarı Mevlut Çavuşoğlu ilə birgə keçirdiyi mətbuat konfransında da hiss olunurdu.

Çavuşoğlu Ankaranın səbirsizliyini dəfələrlə ifadə etsə də, Tillerson ABŞ-ın Suriya kürdlərinə dəstəyi barədə üç sualdan yayınmağa çalışıb.

ABŞ dövlət katibi nəhayət bu məsələnin "çox mürəkkəb seçim" olduğunu deməklə yax-



asını qırağa çəkib.

Tillerson deyib ki, tərəflər onların əllərində olan imkanları müzakirə ediblər.

"Bunlar çox çətin qərarlardır və açığını deyim ki, biz çox çətin seçimlər etməli oluruq" - deyib dövlət katibi.

Qəzet yazır ki, Suriyada İŞİD-lə mübarizədə kürdlərin YPG birləşməsinə dəstək verməklə Vaşinqton Ankaranı çoxdan bəridir ki, qəzəbləndirir.

Türkiyə əslində Suriyaya kürd qruplaşmalarının güclənməsinin qarşısını almaq üçün müdaxilə edib.

Cənab Erdoğan ABŞ-ın YPG-yə dəstəyini dəfələrlə "xəyanət" adlandırıb.

Çavuşoğlu Ankaranın bu narazılığını mətbuat konfransında bir daha dilə gətirib.

"Biz İŞİD-ə qarşı birlikdə döyüşə bilərik. Lakin bir terrorçu qrupla mübarizədə başqa bir terrorçu qrupu dəstəkləmək düzgün deyil. Çox təəssüf ki, belə bir dəstək davam edir" - deyib Çavuşoğlu.

Cənab Tillerson Türkiyənin Raqqanı İŞİD-in əlindən almaq üçün hərbi dəstək təklifini birbaşa rədd etməyib.

Kürdlər isə bildirirlər ki, Raqqa əməliyyatında ABŞ-ın müttəfiqi olduqları şübhəsizdir.

Suriya Demokratik Qüvvələrinin sözçüsü Təlal Sello deyib ki, kürdlər Raqqanın blokadaya alınmasından bəri ABŞ-ın yeganə müttəfiqi olaraq qalırlar.

Sözçü deyib ki, ABŞ kürdlərə Türkiyənin də iştirak təklifini verib.

"Amma biz bu təklifi rədd etdik və axırda bizim mövqeyimiz qəbul olundu" - deyib Sello.

"Financial Times" yazır ki, Amerikanın bu seçimini bilən Türkiyə artıq çərşənbə günü "Fərat qalxanı" əməliyyatının başa çatdığını bəyan edərək Suriyadakı hərbi əməliyyatlarını dayandırıb.

Beləliklə, Türkiyə hazırda kürdlərin nəzarətində olan Mənbic və İŞİD-in nəzarətində olan Raqqa üzərinə hücum ambisiyalarını və Suriyada 5 min kvadrat kilometrlik bufer zonası yaratmaq planlarını da tərk edib.

"Financial Times" yazır ki, YPG Kürdüstan İşçi Partiyası - PKK ilə yaxın münasibətlərə malikdir və PKK həm Vaşinqton, həm də Ankara tərəfindən terrorçu təşkilat kimi tanınır.

Çavuşoğlu habelə 1999-cu ildən bəri Pensilvaniyada yaşayan türk müsəlman vaizi Ferthullah Gülen-in Türkiyəyə təslim edilməsi ricasını bir daha səsləndirib.

Öz növbəsində cənab Gülen Türkiyədə ötən iyul ayında yer almış uğursuz çevriliş cəhdi ilə heç bir əlaqəsi olmadığını söyləyir.

Məqalədə xatırladılır ki, bu həftə həm də Türkiyənin Halk-Bank bankının direktorlarından Hakan Atilla ABŞ-da həbs edilib. O bir İran-Türkiyə ikili vətəndaşı vasitəsilə İranın ABŞ sanksiyalarından yan keçməsinə yardım göstərməkdə ittiham olunur.

Türkiyə bu həbsin siyasi motivli olduğu qənaətindədir. Çavuşoğlu bildirib ki, bu həbsin arxasında bu yaxınlarda vəzifəsindən uzaqlaşdırılmış ABŞ prokuroru Preet Bharara durur. Türkiyə rəsmisi iddia edir ki, prokuror Fethullah Gülen-in təsiri altına düşüb.

Çavuşoğlu deyib ki, Bharara və Gülen çox yaxın münasibətlərə malik olublar.

Cənab Bharara bu yaxınlarda yazdığı tvitdə Tillerson-un Türkiyəyə səfəri zamanı müxalifətlə görüşməmək qərarını pisləyib.

# Qüdsün xilaskarı Sultan Sələhəddin Əyyubi–əl-Kurdi

*Dünya tarixinə adını qızıl hərflərlə yazdırmış, İslam Dünyasının xilaskarı, Sələhəddin Əyyubinin ölümündən 820 il ötür*

Sələhəddin Əyyubi (tam adı Əl-Nasir Sələhəddin Yusif ibn Əyyub olub- Sultan Salahaddin el-Kurdi) (d. 1138 – ö. 4 Mart 1193). Misir, Suriya, Yəmən və Fələstin sultanı və Əyyubi sülaləsinin ilk hökmdarı. 2 Oktyabr 1187-də Qüdsü səlibçilərdən alaraq şəhərdə 88 il sürmüş xristian ağalığına son qoymuş, avropalıların ardı ardınca düzəltdikləri III səlib yürüşünü təsirsiz hala gətirmişdir. Sələhəddin, ərəb, türk, kürd və ümumiyyətlə müsəlman aləminin qəhrəmanı hesab olunur.

**İlk illəri**

Sələhəddin təxminən 1138-ci ildə müasir İraqın Tikrit şəhərində doğulmuş, kiçik yaşlarında təhsilini davam etdirmək üçün Dəməşqə göndərilmişdir. Onun atası Nəcməddin Əyyub, Baalbek əyalətinin əmiri idi. Sələhəddin on il ərzində Hələb və Mosulun səlcuqlu atabəyi olan Nürəddin Zənginin sarayında yaşayıb orada dinşünaslığı öyrənmişdir. İbtidai hərbi təhsilini Nürəddin Zənginin sərkərdələrindən biri olan doğma əmisi Əsadəddin Şirkuhdan almış Sələhəddin, onunla Misirdə yaradılmış Fatimi xilafətinə qarşı döyüşlərdə iştirak etmişdir. Nəticədə, o, 1169-cu ildə Misirin vəziri təyin edildi. Misirdə Sələhəddinin çiyinlərinə düşmüş əsas vəzifə ölkəni I Amalrikin başçılıq etdiyi Qüds səlibçi krallığına qarşı müdafiə etmək idi. Hamı Sələhəddinin bu vəzifədə uzun çəkməyəcəyinə inanırdı, çünki ondan əvvəl Misirdə qısa müddət ərzində bir çox hökümət dəyişmişdi. Buna səbəb, biri birinin ardınca taxta çıxmış kiçik yaşlı xəlifələrin maraqlarını təmsil edən vəzirlər arasında gedən rəqabət olmuşdur. Öncə Sələhəddin ətrafına Suriya sünnilərindən ibarət bir qrup şəxsi yığdığına görə Misir ordusuna nəzarət edə bilmirdi, çünki sonuncu əsasən şiələrdən ibarət idi. Onların (yəni şiələrin) maraqlarının əsas müdafiəçisi hesab olunan xəlifə Əl-Ədid 1171-ci ildə vəfat etdikdən sonra, taxta yeni Abbasi sülaləsinin nümayəndəsi olan Əl-Müstədi çıxdı ki, o da sünni idi. Sələhəddinin təkidi ilə, Bağdaddakı ülamalar cümə namazları zamanı artıq Əl-Müstədini vəsf etməyə başladılar. Artıq bütün Misirin hakimi olan Sələhəddin rəsmi olaraq hələ də Nürəddin Zənginin nümayəndəsi hesab olunurdu. Sonuncu da öz növbəsində Bağdadda oturan Abbasi xəlifəsinin hakimiyyətini tanıyırdı.

Sələhəddin Misirin iqtisadiyyatını canlandırıb, ölkənin ordusunu təkmilləşdirdi. Atasının tövsiyyələrinə qulaq asaraq, özünü Nürəddin Zəngi ilə hər hansı münaqişədən qoruya bildi. Yalnız Nürəddin Zəngi 1174-cü ildə vəfat etdikdən sonra, Sələhəddin ciddi hərbi əməliyyatlara başladı: əvvəlcə kiçik müsəlman dövlətlərinə, sonra isə səlibçilərə qarşı.

İndi Sələhəddin artıq Misir sultanı adını daşıyırdı. Bununla o, yeni Əyyubi sülaləsinin əsasını qoyaraq, islamın sünni məzhəbini Misirin əsas məzhəbi elan etdi. Sələhəddin öz torpaqlarını qərbə tərəf genişləndirməyə başladı. Əmisi Əsadəddin Şirkuhun Fatimi tərəfdarlarının Nil çayı boyunca üsyanını yatırtmasından istifadə edən Sələhəddin Qırmızı dənizi keçərək Yəmənin işğalına yollandı. İslamda Sələhəddin Vəliulla adını daşıyır, o da "Allaha yaxın olan şəxs" deməkdir.

**Səlibçilərə qarşı mübarizə**

Sələhəddin iki dəfə, 1170-ci və 1172-ci illərdə, Nürəddin Zəngi tərəfindən Qüds krallığının işğalına yönəlmiş kampaniyalardan kənarda qaldı, çünki o, Misir və Suriya arasında "bufer zonasının" mövcudluğunda maraqlı idi. Onun fikri ilk olaraq Suriyanı ələ keçirmək idi. Nürəddin Zənginin qəfil ölümü Sələhəddinlə onun arasında yaranmaqda olan münaqişənin qarşısını aldı. Nürəddin Zənginin özündən sonra qoyub getdiyi oğlu Əs-Saleh İsmayıl Əl-Məlik hələ uşaq idi və o da 1181-ci ildə dünyasını dəyişdi.

Nürəddin Zənginin ölümündən dərhal sonra, Sələhəddin qoşunla Dəməşqə doğru irəlilədi və şəhər aliləri tərəfindən qarşılandı. Öz hakimiyyətini möhkəmləndirmək üçün Sələhəddin illərin sınağını keçmiş ənənəyə yol atır: o, Nürəddin Zənginin dul qalmış arvadı ilə evlənir. Nürəddin Zənginin hakimiyyəti altında olan iki ən böyük şəhər – Hələb və Mosul – yalnız sonralar (1176 və 1186-cı illərdə) Sələhəddin tərəfindən ələ



keçirildi. 20 may 1176-cı ildə Hələbin mühasirəsi zamanı Haşaşin adı ilə tanınan gizli bir qrupun qatilləri Sələhəddini öldürməyə cəhd etdi. Onun həyatına iki sui-qəsd təşkil edildi və bunların ikincisi az qalsın Misir soltanının həyatı bahasına başa gələcəkdi.

Suriyada öz hakimiyyətini möhkəmləndirməklə məşğul olan Sələhəddin, səlibçi qoşunları ilə girişdiyi döyüşlərdən adətən müzəffər çıxırdı. Yalnız 1177-ci il noyabrın 25-i Montgisard ətrafında baş vermiş döyüş zamanı Qüds kralı IV Bolduin, Reynald de Şatiyon və Tampliyer cəngavərlərinin birləşmiş qoşunu Sələhəddini ağır məğlubiyyətə uğratdı. Müsəlman ordusunun yalnız onda bir hissəsi Misirə qayıda bildi.

1178-ci ildə Sələhəddin və səlibçi krallığı arasında atəşkəs elan edildi. Sonrakı ili Sələhəddin uğradığı məğlubiyyətin acı nəticələrini aradan qaldırmaqla məşğul oldu. Ordusunu möhkəmləndirdikdən sonra, Sələhəddin yenidən səlibçilərə qarşı hücuma keçərək, onları 1179-cu ildə Vadum Yakob adı ilə tanınan yerdə məğlub etdi. Ancaq səlibçilərin əks-hücumları Sələhəddin tərəfindən qəti hərbi cavablara səbəb olurdu. Məsələn, Reynald de Şatiyon Qırmızı dənizdə yaratdığı donanma ilə müsəlman zəvvar və tacirlərinə basqın edirdi. Buna cavab olaraq, Sələhəddin 30 gəmidən ibarət donanma düzəldərək 1182-ci ildə Reynald de Şatiyonu Beyruta hücum etməklə hədələdi. Öz növbəsində, de Şatiyon müsəlman dünyasının müqəddəs şəhərləri olan Məkkə və Mədinəni talamağı söz verdi. Sələhəddinin növbəti addımı 1183 və 1184-cü illərdə de Şatiyonun İordaniyada yerləşən Kerak qalasını mühasirəyə almaq oldu. Bunu meydan oxumaq kimi anlayan de Şatiyon 1185-ci ildə müsəlman zəvvarlarının karvanına hücum etdi. Qədim fransız mənbələrinin verdiyi yoxlanılmamış məlumata görə, bu karvana hücum zamanı Sələhəddinin bacısı əsir götürülmüşdü. Həqiqətdə isə, de Şatiyonun cəngavərləri Sələhəddinin bacısı və onun oğlunun olduğu karvana yox, başqasına basqın etmişdilər.

1187-ci ilin iyulunda Sələhəddinin qoşunları Qüds krallığının çox hissəsini geriyə qaytarmağa müvəffəq oldular. Həmin il iyulun 4-ü Sələhəddinin ordusu Qüds kraliçasının əri Gi de Luzinyan və Tripoli hökmdarı III Reymondun birgə qoşunları ilə Hattin döyüşü zamanı üz-üzə gəldi. Bu döyüş səlib yürüşləri tarixində dönüş anı hesab olunur. Müsəlman ordusu səlibçiləri darmadağın etmiş, əsirliyə düşən Reynald de Şatiyon isə şəxsən Sələhəddin tərəfindən edam edilmişdir. Gi de Luzinyan əsir düşsə də, Sələhəddin ona rəhm etmişdir. Döyüşdən iki gün sonra, Sələhəddinin əmri ilə səlibçilər arasında bilavasitə hərbi əmrləri yerinə yetirməklə məşğul olanların boynu vuruldu. Bu edamlar haqqında Sələhəddinin şəxsi katibi İmadəddin də yazmışdır: "O, (Sələhəddin) buyurdu ki, əsirlər edam olunsun. Onun ətrafında bir çox alim, sufi və başqa möminlər yığışmışdı; onların hər biri də qollarını çirməyələrək və qılınclarını qınından çıxardaraq heç olmasa bir əsiri edam etməyi Sələhəddindən xahiş edirdi. Sələhəddin xoşbəxt üzlə taxtında əyləşmişdi. Kafərlər ümidsiz bir halda idilər."

Tarixçi Bəhaüddinin yazdığına görə, Sələhəddin Qüdsü səlibçilərdən almamışdan əvvəl bunları söyləmişdir:

"Mən (Bəhaüddin) Sələhəddinin yanında olarkən, o, çönüb mənə dedi: "Allah bütün Fələstin üzərində qələbəni mənə verərsə, onda mən torpaqlarımı böləcəm, bunu da vəsiyyətimdə yazacam. Sonra da gəmiyə minib, frankları onların uzaq ölkələrinə qədər təqib edəcəm. Mən ya öləcəm, ya da bütün Yer kürəsini Allaha inanmayanlardan qurtaracam."

Qısa müddət ərzində, Sələhəddin səlibçilərin işğal etdiyi demək olar ki bütün şəhərləri geriyə ala bildi. 88 il xristianların dayaq nöqtəsi olan Qüds 1187-ci il oktyabrın 2-də nəhayət Sələhəddinin əlinə keçdi. Əvvəlcə, Sələhəddin səlibçilərin şəhərdə qalmış hissələrinə çıxış yolu vermək istəmirdi. Onun fikrini dəyişdirən o oldu ki, xristianların başçılarından biri Balian İbelin Qüdsdə yaşayan 3-5 minə yaxın müsəlmanı öldürməyi və şəhərdəki müsəlman incilərini dağıtmağı söz verdi. Müşavirləri ilə məsləhətləşdikdən sonra, Sələhəddin səlibçilərin şərtlərini qəbul etdi. Şəhərdən çıxmaq üçün hər bir frank girovpulu verməli idi. Bir çoxlarını girovsuz Qüdsdən buraxmasına baxmayaraq, . Sələhəddin 7-8 minədək qadını qul etdi.

Xristian istehkamlarından yalnız Tir özünü saxlaya bildi. Şəhərin hökmdarı Konrad Montferrat Tirin müdafiə xətlərini möhkəmlədib, Sələhəddinin qoşunlarının iki mühasirəsinə tab gətirə bildi. 1188-ci ildə Gi de Luzinyan azadlığa buraxılaraq, öz yoldaşı Qüds kraliçası Sibillanın yanına qayıtdı. 1189-cu ildə bu kral ailəsi Montferratın məskəni olan Tiri öz krallığına qatmaq istədi. Lakin Montferrat, Gi de Luzinyanı kral kimi tanımaq istəmədi. De Luzinyan və kraliça Sibillaya qalan yeganə addım Əkr şəhərinin mühasirəsi oldu.

Hattin məğlubiyyəti və Qüdsün süqutu III səlib yürüşünə səbəb oldu. Bu məqsədlə İngiltərə və Fransada xüsusi "Sələhəddin vergisi" yığılmağa başlandı. Bu yürüş, Əkr qalasını geriyə qaytara bildi. İngiltərə kralı I Riçard Əkrdə əsir götürülmüş müsəlmanları edam etdikdən sonra, Sələhəddinin əsiri olan frankların da aqibəti buna bənzər oldu. 1191-ci il sentyabrın 7-i Sələhəddin və I Riçardın orduları Ərsuf ətrafında görüşdülər. Bu döyüşdən səlibçilər qalib çıxdılar. Sələhəddinlə Riçard arasındakı münasibət hərbi rəqabətdən başqa qarşılıqlı hörmət üzərində qurulmuşdu. Məsələn, İngiltərə kralı döyüşlərin birində yaralandıqda, Sələhəddin ona özünün şəxsi təbibinin qulluqlarını təklif etmişdi. Daha sonra, Ərsuf döyüşündə Riçard atını itirdikdə, müsəlmanların mərd soltanı öz rəqibinə iki at yolladı. Frankların düşərgəsində su çatışmamazlığı haqqında eşitdikdə isə, Sələhəddin onlara dağlardan yığılmış qar içində meyvə yolladı. Öz növbəsində, Riçard öz bacısını Sələhəddinin qardaşına verməyi və Qüdsü onların toy hədiyyəsi etməyi təklif etdi.

İki hökmdar 1192-ici ildə Ramla müqaviləsini bağlayaraq, bu qərara gəldilər ki, Qüds müsəlmanların əlində qalsın, ancaq bir şərtlə ki, xristian zəvvarlarına heç bir manəə törədilməsin. Müqavilənin şərtlərinə görə, Latın krallığı indi Tirdən Caffaya qədər uzanan ensiz zolaq çərçivəsində yerləşməli idi.

1193-cü il martın 4-ü, I Riçardın Avropaya qayıtmasından dərhal sonra, Sələhəddin vəfat etdi. Sələhəddinin xəzinəsi açıldıqda məlum oldu ki, orada onun dəfninə belə çatacaq pul yoxdur. Səxavətli hökmdar vardövlətinin çox hissəsini xeyriyyə işlərinə xərcləmişdi. Sələhəddinin məqbərəsi Dəməşqdəki Üməyya məscidində yerləşir.

**Tarixdə necə tanınır?**

Xristianlara qarşi apardığı amansız mübarizəyə baxmayaraq, Sələhəddin Avropada mərd cəngavər şöhrətini qazanmışdır. Onun şöhrəti o dərəcəyə çatmışdır ki, onun haqda epos yazılmış, və hətta dahi italyan şairi Dante Aliqieri onu cəhənnəmin xeyirxah dinsizlərin yaşadığı guşəsində təsvir etmişdir. Sələhəddin həmçinin Sör Valter Skotun 1825-ci ildə yazdığı Tilsim əsərində də müsbət şəkildə göstərilmişdir. Səlibçilərin 1099-cu ildə Qüdsü işğal etdikdən sonra törətdikləri vəhşiliklərə baxmayaraq, Sələhəddin girov pulunu ödəyən sıravi katoliklər və hətta xristian döyüşçülərini əfv etdi. Yunan pravoslav məzhəbinin tərəfdarları ilə daha yaxşı rəftar olunurdu, çünki onlar səlibçilərə qarşı çıxış etmişdilər. Sələhəddin və onun yaşadığı dövr haqqında maraqlı məlumat Tariq Əlinin müəllifi olduğu Sələhəddinin Kitabı romanında verilir.

***Hazırladı Tahir Süleyman***

# ДИПЛОМАТ

№ 08 (382) 03 - 09 апреля 2017 ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА


## Последняя страница

# Совет Ниневии добивается поддержки президента Курдистана



Провинциальный совет Ниневии обратился к президенту Иракского Курдистана Масуду Барзани с просьбой продолжить поддержку жителей Ниневии. В ответ Барзани назвал эту поддержку своим "человеческим и национальным" обязательством.

Согласно заявлению, опубликованному в субботу на веб-сайте президента Курдистана, председатель и члены провинциального совета Ниневии в сопровождении представителей различных религиозных и этнических меньшинств провинции встретились с Барзани в его офисе в Эрбиле. На встрече президент Барзани говорил о будущем Мосула (столицы Ниневии) после его освобождения от боевиков "Исламского государства" (ИГ), подчеркнув право жителей Ниневии самим управлять и защищать свои земли. Но, как отметил президент, Курдистан не забудет преступлений любых сторон, которые сотрудничали с ИГ против курдского народа.

Делегация из Ниневии выразила свое недовольство "неудовлетворительной" поддержкой иракского правительства народу провинции, и просила о дальнейшем сотрудничестве Курдистана и Ниневии, "поскольку безопасность, стабильность и восстановление в провинции Ниневия и в регионе Курдистан взаимно влияют друг на друга".

"Что касается будущего Мосула, то регион Курдистан не может выступать в качестве наблюдателя, и нам необходимо быть уверенными в будущем компонентов и в будущем провинции Ниневия, а также в безопасности в Курдистане, чтобы никогда не допустить повторения катастроф и угроз", сказал Барзани представителям Ниневии.

Во время встречи представители провинции Ниневия также высоко оценили роль президента Барзани и сил пешмерга в их усилиях по освобождению Мосула и защите прав различных компонентов Ниневии.

Согласно заявлению, делегаты также поблагодарили Региональное правительство Курдистана (КРГ) и жителей Курдистана за размещение огромного количества вынужденных переселенцев из Ниневии. *kurdistan.ru*

# Президент Барзани поздравил ассирийцев, халдеев и сирийских христиан с Новым годом Акиту



Президент Иракского Курдистана Масуд Барзани в пятницу передал ассирийцам, халдеям и сирийским христианам свои поздравления с наступлением их Нового года - Акиту.

"Я желаю, чтобы этот Новый год стал новым началом для устранения скорби, вызванной экстремизмом и террористическими атаками", - говорится в заявлении Барзани.

Курдский президент также заверил ассирийцев, халдеев и сирийских христиан, что Курдистан является их землей, и люди Курдистана разделяют с ними одну судьбу и одну позицию по борьбе с терроризмом и дискриминацией.

"В Курдистане нет места идеологии экстремизма, сектантства и отрицания", - подчеркнул Барзани. *kurdistan.ru*

# Премьер-министр Курдистана: Курдский флаг в Киркуке укрепляет сосуществование

Премьер-министр Регионального правительства Курдистана (КРГ) Нечирван Барзани в среду поздравил губернатора, провинциальный совет и народ Киркука с решением поднять флаг Курдистана над государственными зданиями провинции, заявив, что эта инициатива еще больше укрепит дух сосуществования между различными этническими компонентами Киркука. В своем официальном заявлении Нечирван Барзани также подверг критике "правящие фракции" в центральном правительстве Ирака за то, что они не выполнили статью 140 иракской конституции, которая предназначена для решения вопросов, касающихся курдских спорных районов, включающих и Киркук.



Барзани пояснил, что отказ Багдада решать этот вопрос, однако, не помешал курдскому руководству сохранить стабильность в Киркуке, чтобы служить своему народу, независимо от этнических и религиозных различий.

"Даже после падения режима Баас, когда жители Киркука остались одни под террористическими атаками, именно силы безопасности и пешмерга Курдистана защищали Киркук", - говорится в заявлении.

Курдский премьер сказал, что силы пешмерга также защищали народ после того, как иракская армия оставила Киркука быстрее, чем она вышла из Мосула, отступая перед террористами "Исламского государства". "Десятки тысяч ВПЛ из центрального Ирака и все правительственные институты в провинции находятся под защитой пешмерга под флагом Курдистана", - сказал Барзани. *kurdistan.ru*

# Глава ООН призвал международное сообщество поддержать иракских ВПЛ

После посещения лагеря для беженцев и вынужденных переселенцев (ВПЛ) "Хасан-Шань" в Иракском Курдистане Генеральный секретарь ООН Антонио Гутьеррес заявил, что Региональное правительство Курдистана (КРГ) наряду с неправительственными организациями и учреждениями ООН прилагает "огромные усилия" для того, чтобы предоставить людям, бежавшим от террора "Исламского государства" (ИГ) все необходимое.

Вместе с тем он заявил, что отсутствие "международной солидарности" приводит к трудностям и отсутствию необходимых источников финансирования.

"Это визит солидарности с народом Мосула, который страдал от гнета ИГ в ужасных условиях и теперь страдает от военных операций, необходимых для борьбы с терроризмом в Мосуле", - сказал Гутьеррес.

"Эти люди очень страдали, и они продолжают страдать. Мы нуждаемся в большей солидарности со стороны международного сообщества. Есть усилия региональных властей [Курдистана], огромные усилия НПО, огромные усилия агентств ООН, но у нас нет ресурсов, необходимых для поддержки этих людей. У нас нет международной солидарности, необходимой для условий, в которых эти люди должны жить.., чтобы они имели минимальную компенсацию за страдания, которые они вынесли, и, в то же время, чтобы создать условия для примирения в общинах и примирения на национальном уровне как только Мосул будет полностью освобожден".

Он призвал международное сообщество "выразить глубокую солидарность" с миллионами людей, пострадавшими от продолжающейся войны против ИГ.

Он также дал высокую оценку иракским силам, которые в настоящее время ведут борьбу на переднем крае кампании по обеспечению безопасности каждого человека во всем мире.

"Борьба с терроризмом в Мосуле - это то же самое, что бороться с терроризмом в любом месте, потому что терроризм стал глобальной угрозой. Сегодня все террористические группы взаимосвязаны", - добавил глава ООН. "Все это требует гораздо большей приверженности со стороны международного сообщества, и это обязательство - не просто великодушие. Нет, это в личных интересах всех, потому что террористические угрозы, которые мы видим в Мосуле,


TƏSİSÇİ VƏ BAŞ REDAKTOR:
TAHİR SÜLEYMAN
ÎMTÎYAZ Û SERNIVÎSAR:
TAHÎR SÎLÊMAN
УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:
ТАХИР СУЛЕЙМАН
Tel: +994 50 352-33-18

Xüsusi müxbirlər:
Ramiz Qərib,
Tariyel Cəlil
Региональный корреспондент:
Усуб Тейфур
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Ünvan: Bakı şəhəri Az1040, küçə S.Mehmandarov ev 25, mənzil 17
Navnîsan: Bakû Az1040, soqaq S.Mêhmandarov xani 25, mal-17
Адрес: Баку Az1040, улица С.Мехмандаров дом 25, кв.-17

Qəzet "Diplomat" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnib və "Mətbuat" mətbəəsində çap olunmuşdur.
e-mail: hewler@mail.ru
Şəhadətnamə: NFŞ 005004966
BUSB-un Sabunçu rayon filialı
VÖEN 1800061582
H/h 438010000
Sifariş: 1500